YENİ AZƏRBAYCAN PARTİYASI
GƏNCƏ ŞƏHƏR TƏŞKİLATI

YUSİFOV MÜBARİZ İMRAN OĞLU

# AZƏRBAYCANÇILIQ

Kitab yeni Azərbycan Partiyası Gəncə şəhər Təşkilatının İdarə Heyətinin 29 iyun 2007-ci il tarixli iclasının (protokol №6) qərarı ilə çapa təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«Elm və təhsil»
Bakı – 2010

6 ? . ...
Y 92

**Redaktor:** **İsrafil İsmayılov**
*Yeni Azərbaycan Partiyası Gəncə şəhər Təşkilatının sədri*

**Rəyçi:** **Nizami Cəfərov**
*AMEA-nın müxbir üzvü, professor*

**Yusifov Mübariz İmran oğlu. Azərbaycançılıq.**
**Bakı, «Elm və təhsil», 2010. – 132 səh.**

Kitabda azərbaycançılıq ideyalarının ümumi prinsipləri barədə bəhs olunur. Azərbaycançılıq ideyaları ictimai şüur forması olmaq etibarı ilə tarixi bir kateqoriyadır. Azərbaycançılıq ideyaları özündə tarixiliyi və müasirliyi, ənənə və varisliyi, ictimai psixologiyanı və etnik təfəkkürü birləşdirir. Azərbaycançılıq tarixən ictimai şüur forması kimi mövcud olmuşdur. Müstəqil dövlətçilik şəraitində isə azərbaycançılıq milli şüur formasına çevrilir. Kitabda azərbaycançılıq ideyaları məhz tarixlə müasirliyin qovşağında izah edilir. Kitab Heydər Əliyev irsinin gənc nəslə öyrədilməsi və mənimsədilməsi məqsədi ilə hazırlanmışdır. Kitabdan eləcə də politoloqlar, müəllimlər və ictimai – siyasi hadisələrlə bağlı tədqiqat aparanlar faydalana bilərlər. Rəy və təkliflər üçün müəllif əvvəlcədən oxuculara öz təşəkkürünü bildirir.

**ISBN 978-9952-809-84-8**

**© «Elm və Təhsil», 2010**

# Giriş

## AZƏRBAYCANÇILIQ İDEYALARI HAQQINDA

***Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Eyni zamanda, öz milli-mənəvi dəyərlərimizi ümumsbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq.***

**Heydər Əliyev**

Azərbaycançılıq ideyaları özünün tarixi etibarı ilə qədim dövrlərlə səsləşir. Azərbaycançılıq ideyaları Azərbaycan xalqına məxsus etnik və psixoloji amillərlə, ictimai təfəkkürün qaynaqları ilə, xalqın məişət həyatı ilə dərindən bağlı olan düşüncə və təsəvvürlər bazasında yaranır. Azərbaycançılıq ideyalarının formalaşmasında insan və cəmiyyət amili xüsusi yer tutur. Hər bir insan cəmiyyətin bir üzvüdür. Cəmiyyətdə özünəməxsus mövqe tutan hər bir şəxs bu və ya digər ideyanın yaradıcısı ola bilər. Lakin hər bir fərdi ideya cəmiyyətin ümumi psixologiyasını, təsəvvür və təfəkkürünü təyin edə bilmir. Cəmiyyət həyatı üçün ümumi xarakter daşıyan ictimai fikir və düşüncələr zaman – zaman yetkinləşərək bütöv bir sistemə çevrilir. Cəmiyyət həyatında bütövləşən ictimai ideyalar cəmiyyət üzvlərinin ictimai xarakterini təyin edir. Bütün

ictimai ideyaların mahiyyəti milli şəxsiyyət obrazının yaranması ilə nəticələnir. Belə ki, məsələn azərbaycançılıq ideyalrı mühitində formalaşan azərbaycanlı obrazı beynəlxalq ictimaiyyətə özünəməxsus xarakterə malik olan milli bir şəxsiyyət nümunəsi kimi təqdim edilir. Azərbaycançılıq ideyalrı ümumilikdə azərbaycançılıq anlayışının özünü formalaşdırır. Azərbaycançılıq ideyalrı azərbaycançılıq anlayışı ilə üzvi şəkildə bağlıdır. Yəni bu ideyalar mövcud olmasa, yaranmasa, formalaşmasa, yetkinləşməsə azərbaycançılıq anlayışından danışmaq mümkün deyildir. Başqa sözlə, azərbaycançılıq ideyalrı bütövləşir, ümumiləşir və azərbaycançılıq anlayışını yaradır. Azərbaycançılıq anlayışının yaranmasında ümumiləşən azərbaycançılıq ideyalrının bazasını ictimai təfəkkürün mövcudluğu, milli – mənəvi dəyərlər və müstəqil dövlətçilik ənənələri təşkil edir. Azərbaycançılıq anlayışının özü isə cəmiyyət həyatında çox mühüm ictimai, siyasi, ideoloji və hərəkətverici əhəmiyyət daşıyan milli şüur mənasında başa düşülür. Beləliklə, azərbaycançılıq anlayışının daxili məzmununu qısa olaraq belə xarakterizə etmək mümükündür: *azərbaycançılıq ictimai təfəkkürün canlanması ilə yaranan, milli mənəvi dəyərlər bazasında yetkinləşən və müstəqil dövlətçilik ənənələri əsasında formalaşan milli şüurdur.* Bu o deməkdir ki, ictimai təfəkkürdə milli ideyalar yaranmasa milli – mənəvi dəyərlər də meydana gələ



bilməz. İctimai təfəkkür bazasında yaranan milli – mənəvi dəyərlər isə dövlətçiliklə qorunur, zənginləşir və inkişaf edir. Dövlətçilik olmadan milli ideyalar ancaq lokal səviyyədə qalmaqla məhdudlaşır. İctimai təfəkkür cəmiyyətlə birlikdə yaşadığı üçün həm tarixidir, həm də müasir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz çıxışları zamanı milli ideyaların formalaşmasında, tarixliyin və müasirliyin dialektik vəhdət təşkil etdiyini dönə-dönə bəyan etmişdir.[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli ənənələrin qorunub saxlanmasında tarixiliyin, milli ideyaların bəşəri ideyalarla qovuşdurulmasında isə müasirliyin əhəmiyyətli rol oynadığını göstərir.[2]

Bu mənada milli ideyalar təkcə tarixi kateqoriya deyil, həm də müasirdir, daimidir və gələcək nəsillərin sərvətidir. Milli şüur anlayışına gəldikdə isə onun başlıca əlamətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

---

[1] Bax: Heydər Əliyev. Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli iclasdakı nitqi «Xalq qəzeti» , 24 noyabr, 1998: Heydər Əliyev. Müstəqillik yolu Bakı, 1997, 67-75.

[2] Bax:İlham Əliyev Gəncə şəhər ictimaiyyəti qarşısında nitqi. «Azərbaycan» qəzeti, 19 iyun, 2004; İlham Əliyev Cəncə şəhər ictimaiyyəti qarşısındakı nitqi. «Xalq qəzeti», 12 fevral, 2010; İlham Əliyev Ağdaş və Göyçay rayonlarında ictimaiyyət qarşısındakı niqti. «Xalq qəzeti», 13 fevral 2010; Əlavə olaraq bax: «Respublika» qəzeti, 26 oktyabr 2004.

1. Milli mədəniyyət
2. Milli etik – əxlaqi normalar
3. İctimai birlik və həmrəylik
4. Dövlətçilik və onun atributlarına ehtiram
5. Vətənpərvərlik
6. Milli – mənəvi dəyərlərin bəşəri dəyərlərlə qovuşdurulması

Milli şüurun formalaşması üçün müstəqil dövlətçilik amili mühüm və vacib şərtdir. Milli şüur kimi formalaşan azərbaycançılıq anlayışı barədəki başlıca fikir və mülahizələr də məhz respublikamızda müstəqil dövlətçiliyin bərqərar olunduğu dövrdən sonra meydana gəlmişdir. Ancaq azərbaycançılıq anlayışı barədə əvvəllər də müəyyən fikir və mülahizələr irəli sürülmüşdür. Azərbaycançılıq ideyaları isə bilavasitə Azərbaycan cəmiyyətinin yarandığı dövrlərlə səsləşir. Bu o deməkdir ki, milli düşüncə formasındakı azərbaycançılıq ideyaları zaman – zaman yaranmışdır. Müstəqil dövlətçilik mərhələsində isə bu ideyalar yetkin səviyyəyə çataraq milli şüura çevrilir.

Milli azərbaycançılıq şüurunun yetkinləşməsi mərhələlərinin araşdırılması, təhlil olunması, onun daxili məzmununun öyrənilməsi, aydınlaşdırılması milli ideologiyanın mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ümummilli liderimiz Heydər Əliyev azərbaycançılıq anlayışını məzmun baxımından çox yüksək qiymətləndirir. Heydər



Əliyev göstərir ki, «Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli – mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir»[1].

Göründüyü kimi, burada azərbaycançılıq milli dövlətçilik ideologiyasının özəyi, təməli, əsası kimi qiymətləndirilir. Eyni zamanda, dövlətçilik, milli dəyərlər, ümumibəşəri dəyərlər kimi qlobal məsələlər azərbaycançılığın tərkib hissələri kimi verilir. Bu mənada, azərbaycançılığın geniş tədqiqinə və xüsusən, müasir dövrdə onun mənimsənilməsinə, təbliğinə və tətbiqinə böyük ehtiyac olduğu özünü göstərir. Azərbaycançılıq anlayışı qlobal məsələləri əhatə etdiyi üçün əlbəttə ki, sosioloqlar, politoloqlar, tədqiqatçılar, xüsusən də ideyaca müxtəlif baxışlara malik olan şəxslər onu ayrı – ayrı prizmalardan şərh edə bilərlər. Lakin nəzərə aldıqda ki, azərbaycançılıq ictimai təfəkkürlə, ictimai şüurla, milli – mənəvi dəyərlərlə və ən əsası müstəqil dövlətçiliklə bağlı bir anlayışdır, onda bu anlayışın şəhr olunmasında ən düzgün istiqamət kimi Heydər Əliyev konsepsiyasına əsaslanılmalıdır.

Azərbaycançılıq anlayışı milli ideya anlayışı ilə və dövlətçiliklə bağlı olduğu üçündür ki, ona

---

[1] Bax: Heydər Əliyev. Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəli yığıncaqdakı nitqi. «Xalq qəzeti», 24 noyabr 1998.

müxtəlif siyasi baxışlara malik olanlar müxtəlif istiqamətlərdən yanaşmağa meyl göstərirlər. Bəzən isə məsələ o dərəcədə dolaşdırılır ki, əslində, «azərbaycançılıq» anlayışının nə olması barədə konkret fikir yaratmaq mümkün olmur. Hətta, «Azərbaycançılıq nədir?» sualına hərə bir cür, hər kəs özü başa düşdüyü kimi cavab verir. Ramiz Mehdiyevin bu mənada M.Karpoviçdən gətirdiyi sitat tamamilə yerinə düşür. Politoloq M.Karpoviçə görə, «Rusiya ideyası» anlayışının nə demək olduğu müəllifin özünə qaranlıqdır. Ancaq müəllifin göstərdiyinə görə rus ideyalarının mövcudluğu inkar edilmir. Bunların məcmusu və qarşılıqlı təsiri rus ideyaları tarixinin məğzini təşkil edir.»[1] Nəzərə aldıqda ki, M.Karpoviçin bu fikirləri sovet dövrünə aiddir, onda ona haqq qazandırmaq olar ki, həmin dövrdə «milli ideya» anlayışı barədə açıq bir fikir söyləmək imkanları yox idi. Müasir dövrdə «milli ideya» və «azərbaycançılıq» anlayışlarının bir – birindən fərqli təqdim olunması müxtəlif siyasi baxışların mövcudluğu ilə bağlıdır. Ancaq bu barədə nə qədər çox yazılsa, nə qədər daha artıq tədqiqat aparılsa məsələyə bir o qədər də aydınlıq gətirmək mümükün olacaqdır.

[1] Bax: Ramiz Mehdiyev. «Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda» - Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı-2001, s.188. (Həmçinin, bax: M.Korpoviç. Bir daha rus missiyaçılığ barədə. «Novi jurnal». 1968 № 54, s.277.)



Müasir dövrdə azərbaycançılıq anlayışının doğru və düzgün başa düşülməsində mövcud olan əsas çətinliklərdən biri onun türkçülük anlayışı ilə qarışdırılmasmdan ibarətdir.

Nizaməddin Şəmsizadəyə görə «Azərbaycan ideologiyası üç təməl üzərində bərqarar olur: türkçülük, islamçılıq və azərbaycançılıq. Bu üç təməl tarixi vəhdətdə olub, xalq bu vəhdəti həyat tərzində, düşüncəsində, arzusunda, nəğməsində, bayatısında – bir sözlə, ictimai və bədii təfəkküründə qoruyub saxlayıb, qırılmağa, ayrılmağa qoymayıb. Türkçülük Azərbaycan xalqının milli idealı – məfkurəsidir. Onun əsasında, öz soy kökünə, əslinə və bütün dünya türklərinə məhəbbət dayanır.»[1] N.Şəmsizadə, həmçinin, azərbaycançılığı özündə türkçülük, islamçılıq və Qərb dəyərlərini birləşdirən bir ideologiya adlandırır.[2]

Azərbaycançılıq anlayışını və ümumilikdə milli azərbaycançılıq ideologiyasını N.Şəmsizadə kimi şərh edən başqa müəlliflər də vardır. Onların milli ideologiyaya dair baxışlarını Ramiz Mehdiyev aydın şəkildə təhlil edərək azərbaycançılığın tarixi və milli köklərini dərinləşdirir, aydınlaşdırır və arqumentləşdirir. Hər şeydən əvvəl qeyd etmək yerinə düşər ki, Ramiz Mehdiyev «milli ideya» və onun müxtəlif

[1] Bax: Nizaməddin Şəmsizadə. Azərbaycan ideologiyası. Bakı-1996, s.66.

[2] Bax: Nizaməddin Şəmsizadə. Yenə orada, s.39.

təzahürlərinin mövcudluğunu ictimai fikir tarixinin real ünsürü kimi qiymətləndirir. İctimai fikir tarixində reallıq olan bu mülahizələrin və yanaşmaların qəbul edilməsi o demək deyildir ki, milli dövlətçiliyin ideologiyası olan azərbaycançılığa dair fikir müxtəlifliyinin özü də ictimai həyata tətbiq oluna bilər. Azərbaycançılıq anlayışının milli dövlətçiliyin mənafeyi baxımından araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Ramiz Mehdiyev məsələni araşdırarkən göstərir ki, Azərbaycan «milli ideyası»na aid olan fikir və mülahizələrdə iki başlıca istiqaməti görmək mümkündür. Birincisi, «türkçülük, türk – islam təfəkkürü və «azərbaycançılığ»ın millətçilik kimi başa düşülməsi, ikincisi isə Azərbaycan «milli ideyası»nın romantikləşdirilərək türkləşdirilmə kimi başa düşülməsindən ibarətdir.[1]

Ramiz Mehdiyev türkçülük ideyasının yaranmasının tarixi bir zərurətdən meydana gəldiyini göstərir: «Sözün qısası, «türkçülük» ideyasının yaranması tarixi zərurət – türk etnosunun məhv olmaq və dünyanın hakim millətlərindən biri kimi siyasi səhnədən çıxmaq təhlükəsindən qorünmaq zərurəti ilə əlaqədar idi. Lakin «türkçülük» ideyası bir – birinə qarşı mübarizə aparan ideyalar aləminə

[1] Bax: Ramiz Mehdiyev. «Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda» - «Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi». Bakı-2001, s.188-189.



«panturançılıq» kimi ümumi anlayış şəklində daxil olmuşdur ki, onun da məqsədi bütün türk xalqlarını bir dövlətdə birləşdirmək idi».[1]

Azərbaycançılıq anlayışı ilə türkçülüyü qarışdıranlar, əlbəttə ki, tarixiliklə müasirlik arasındakı əlaqə və münasibətləri unudaraq yaddan çıxarırlar. Tarixən türk xalqlarının vahid bir dövlət qurumuna daxil olmaları barədə bu və ya digər mənbələrdən məlumat almaq mümkündür. Məsələn, «Kitabi – Dədə Qoruqd»dakı 24 qəbilə – tayfa birliyi, 24 tayfada birləşən Səlcuq hakimiyyətinin mövcudluğu, Səlcuqun nəvəsi Toğrul bəyin 1038-ci ildə özünü sultan elan etməsi ilə Şərqdə böyük Səlcuq imperiyasının yaranması (1038 – 1157) və s. digər tarixi gerçəkliklər türklərin vahid dövlətdə birləşməsini təsdiq edən reallıqlardan ibarətdir. Digər tərəfdən, türk xalqlarının Şimaldan Cənuba, Şərqdən Qərbə tarixi yayılmaları onların böyük bir imperiya daxilində mövcud olduqlarını təsdiq edən faktlardır. Lakin indi zaman bizi həmin tarixi mərhələdən xeyli uzaqlaşdırmışdır. Türk xalqları indi ərazi cəhətdən, dövətçilik qurumu baxımından, etnopsixoloji cəhətdən, dil normaları baxımından diferensiallaşmışdır. Hər bir xalqın özünə məxsus milli – etnik ənənələri yaranmışdır. Buna görə də məsələn, qazax dilində, mədəniyyətində, məişətində, sosial – iqtisadi həya-

[1] Bax: Ramiz Mehdiyev. həmin əsər, s.192.

tında əlbəttə ki, qırğız, qaraqalpaq, Altay, özbək, türkmən, tatar, çuvaş, kumık, noqay, qaraçay – balkar, qaqauz xalqlarından fərqlənən fərdi cəhətlər meydana gəlmişdir. Eləcə də Azərbaycan xalqına məxsus etnik prosesləri millilik baxımından başqa türk xalqları ilə tam eyniləşdirmək mümkün deyildir. Odur ki, türkçülük ideyasını Azərbaycan həyatına tətbiq etməklə bağlı olan ideyalar həqiqi mənada romantizmdən, xəyalpərəstlikdən başqa bir şey deyildir. Ona görə də Ramiz Mehdiyev haqlı olaraq yazır ki, «Milli ideyanın əsasını, başlıca amalını xəyali ideyalar və romantik arzular deyil, tarixi ənənələrə, əvvəlki nəsillərin təcrübəsinə və dövrün ruhunua uyğun olan milli dövlətçiliyin yaradılması təşkil edir. Xalqımız tarixi təcrübədən və son illərin praktikasından məhz bu qənatə gəlmişdir»[1].

Başqa bir tərəfdən, «türkçülük» ideyasının Azərbaycan ideologiyasına tətbiqi Azərbaycan etnosonu ölkə ərazisində yaşayan başqa etnik təbəqədən ayırmaq deməkdir. Halbuki Azərbaycan xalqı minilliklər boyu, əsrlər boyu ölkə ərazisində məskun olan bir çox etnik təbəqənin qaynayıb – qarışması və qovuşması nəticəsində yaranmışdır. Bu etnik proseslərdə yaxınlaşma və birləşmə elə bir vüsət təşkil etmişdir ki, onların inteqrasiyası vahid bir Azərbaycan millətinin təşəkkülünü meydana

[1] Bax: Ramiz Mehdiyev. həmin əsər, s.204.



gətirmişdir. Nizami Cəfərov belə bir fikrin təsbit olunması üçün dəlillər gətirir ki, türk əsaslı Azərbaycan xalqının və Azərbaycan millətinin formalaşdığı məkan Azərbaycan ərazisindən ibarətdir. Eyni zamanda, Nizami Cəfərov Azərbaycan xalqının formalaşmasında iki mühüm dövrün mövcud olduğunu göstərir. Bunlardan biri diferensiasiya, ikincisi isə inteqrasiya dövrü adlandırılır. Nizami Cəfərovun həmin mülahizəsində deyilir: «Diferensiasiya dövrü dedikdə türk etnosunun müxtəlif xalqlara (o sıradan Azərbaycan türklərinə, yaxud Azərbaycan xalqına) ayrılmsı prosesinin intensiv dövrü nəzərdə tutulur. İnteqrasiya isə Azərbaycan cəmiyyətinin etnik tarixinin sonrakı dövrlərinə aid olub türk (və bir sıra qeyri – türk etnoslarının) konsolidasiyası, bütöv bir xalq təşkil etməsi prosesindən ibarətdir»[1]. Nizami Cəfərov Azərbaycan xalqının bir etnik vahid kimi formalaşmasının üç mərhələ üzrə baş verməsi fikrini irəli sürür. Birinci mərhələ hun qıpçaq türklərinin Azərbaycanda məskunlaşması dövründən ibarət hesab edilir. Tarixdən məlum olduğu üzrə hun qıpçaqlar Azərbaycan ərazisində eramızın ilk əsrlərindən yayılmağa başlamışdır.

[1] Bax: Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı-2002, s.91.

İkinci mərhələ oğuz türklərinin Azərbaycana gəlişinə (XI əsrin əvvəlləri) aid olan dövrü əhatə edir.

Üçüncü mərhələ isə XV əsrin sonu, XVI əsrin əvvəlləri, xüsusən, Səfəvilər dövlətinin yarandığı dövrdən ibarət hesab edilir.[1]

Nəzərə almaq lazımdır ki, Sovet dövründə də Azərbaycanda etnik birliklər arasında diferensiasiya baş verməmişdir. Bu o demək deyildi ki, sovet ideologiyası elə Azərbaycan xalqının bütövləşməsinin tərəfdarı olmuşdu. Əksinə, sovet ideologiyası bütün xalqları formaca milli, məzmunca sosialist mədəniyyəti kimi fantasktik bir vəhdətin həyata keçirilməsinə aparmaq istəyirdi. Əslində, burada qlobal bir ruslaşdırma siyasətinin həyata keçirməsi məqsədi var idi. Lakin bu ideya baş tuta bilməzdi və tarix də buna imkan verməzdi. Etnik birliklər arasındakı əlaqələrin pozulmamasına gəlincə isə bu uzunmüddətli tarixi bir konsolidasiyanın nəticəsi kimi nəzərə alınmalıdır.

Müasir dövrdə də Azərbaycan xalqı dedikdə, məhz Azərbaycan ərazisində məskun olan etnik təbəqənin inteqrasiyası prosesinin nəticəsi başa düşülür. Artıq, həmin proses çoxdan yetişib sona çatmışdır. Türkçülük ideyasının yeniləşdirilməsi isə müstəqil dövlətçilik mərhələsində milli birliyin,

[1] Bax: Nizami Cəfərov. Yenə orada. s.100, 103, 107.



müstəşəkilliyin və ictimai həmrəyliyin pozulmasına, eləcə də dövlətçiliyin möhkəmləsində sosial əngəllərin və lüzumsuz problemlərin meydana gəlməsinə gətirib çıxarır. *Türkçülük ideyası, əslində, türk xalqlarının etnik birliyini təcəssüm etdirən ictimai təvəkkürün vəhdəti və varisliyi mənasında başa düşülməlidir.* Ona görə də azərbaycançılığı milli şüur kimi qəbul ediriksə, onu milli ideyanın təməli kimi qiymətləndiririksə deməli bütövlükdə dövlətçiliyin vəhdətini qəbul etmiş oluruq. Çünki dövlətçilik xalqdan və millətdən ayrı deyil, millətin və xalqın bütövlüyünün, vəhdətinin təminatçısıdır. Bu mənada, Ramiz Mehdiyev haqlı olaraq yazır ki, «Milli ideya» xlaqı və hakimiyyəti birləşdirən bir zəmindir və müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan öz tarixi ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirməyi bacarmalıdır. «Milli ideyanın» gücü dövlətdirsə, dövlətin də gücü «milli ideyaya» xidmət etməkdir. Bütün Azərbaycan xalqı – azəri türkləri, ruslar, talışlar, ləzgilər, kürdlər, tatarlar, avarlar, bir sözlə, AZƏRBAYCANLILAR əsl dövlətçilik ruhu ilə yaşasalar millətçiliyin yeni peyda olmuş «novatorları» ilə mübarizədə bu ruhu qorusalar, yalnız bu zaman keçmişin canlı ənənələri, indiki və gələcək nəsillərin quruculuq fəaliyyəti əsasında mənəvi və iqtisadi cəhətdən güclü, dinamik,

müsətqil sivilizasiyalı AZƏRBAYCAN DÖVLƏTİ yaradacaqlar»[1].

Azərbaycan xalqının bütöv bir etnik vahid kimi formalaşmasında əsrlər boyu baş verən inteqrasiya prosesinin əhəmiyyəti nə qədər böyükdürsə, danılmazdırsa, onun sonrakı mərhələlərdə qorunub saxlanılması da xalqın bütövlüyü və mütəşəkkilliyi baxımından o qədər əhəmiyyətlidir. Bütölükdə, bir ərazidə yaşayan etnik təbəqə üçün vəhdət yarada bilmək imkanları heç bir dövrdə qapalı olmamışdır. Xalqın etnik potensialının genişlənməsində bu proses, əslində, əvvəlki dövrlərə məxsus ənənənin davamı kimi öz ardıcıllığını qoruyub saxlamışdır. Müstəqil dövlətçilik mərhələsində isə milli birliyin qorunmasına xidmət edən bu vəhdət çox böyük sosial, siyasi və ideoloji əhəmiyyət daşıyır.

Azərbaycançılıq ideyaları müstəqil dövlətçilik mərhələsində milli xarakter daşıdığı üçün onu dövlətçilikdən ayrı təsəvvür etmək olmaz. Nəzərə almaq lazımdır ki, milli ideyalar məhz dövlətçiliklə qorunur. Dövlətçilik olmadan milli ideyaları qoruyub saxlamaq və davam etdirmək, onu milli şüura çevirmək mümkün deyildir. Dövlətçiliyin inkişafı milli ideyaların, azərbaycançılıq dünyagörüşünün daim inkişafına və zənginləşməsinə səbəb olur. Odur ki, müstəqil dövlətçiliyimiz çiçəkləndikcə, onun

[1] Bax: Ramiz Mehdiyev. Göstərilən əsər, s.205. (həmin məqalə ilə əlaqədar bax: «Xalq qəzeti», 14,15,17,18 sentyabr 1993).



iqtisadi qüdrəti artdıqca xırda millətçilik hissinə çevrilən və eyni zamanda fantastik aləmə aparıb çıxaran «türkçülük» ideyasının öz mənasını itirəcəyi də reallığa çevriləcəkdir. Ancaq azərbaycançılıq dünyagörnüşünü aydınlaşdırarkən «türkçülük» ideyasının nə demək olduğunu və bu ideyanın kimlər üçün gərəkli olduğunu da açıb göstərmək vacib məsələlərdəndir. Qaldı türk xalqlarının ümumiliyi və birliyi məsələsinə, burada fantaziyadan yan keçib reallığı nəzərə almaq vacibdir. Ramiz Mehdiyevin dediyi kimi, «Türkçülük ideyası hələ yaşayır və türk xalqlarının milli ruhuna öz təsirini itirməmişdir. ... düzgün yanaşılsa, sağlam qavranılsa, həmin ideya hazırda öz müstəqil dövlətlərini yaratmış türklər, azərbaycanlılar, özbəklər, türkmənlər, qazaxlar, qırğızlar arasında qarşılıqlı iqtisadi və mədəni əməkdaşlığın inkişafında müəyyən müsbət rol oynayar, onların bir – birinə yaxınlaşmasına, dünya birliyinə qovuşmasına kömək edər».[1]

Bu gün Azərbaycan Respublikasında milli ideyanın, azərbaycançılıq dünyagörüşünün və azərbaycançılıq şüurunun yetikinləşməsi üçün hər cür imkan və şərait vardır.

Azərbaycançılıq şüurunun formalaşması və yetkinləşməsi azərbaycanlı obrazının formalaşmasını şərtləndirir. Azərbaycanlı obrazında milli mənəvi və

[1] Bax: Ramiz Mehdiyev. Göstərilən əsər, s.200.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

əxlaqi – etik keyfiyyətlər, vətənpərvərlik, dövlətə, xalqa xidmətin ən bariz nümunələri öz təcəssümünü tapır. Azərbaycanlı obrazı örnəkdir. Həm Azərbaycan cəmiyyəti üçün, həm də bu ölkəyə və onun əhalisinə xalqına, millətinə maraq göstərənlər üçün. Azərbaycanlı obrazı beynəlxalq aləmdə Azərbaycana və azərbaycanlılara münasibəti formalaşdırır. Ölkənin, xalqın və millətin tanınmasında nümunəvi azərbaycanlı obrazı ən mühüm informasiya subyekti kimi diqqətəlayiqdir. Belə ki, məsələn, beynəlxalq aləmdə Azərbaycan haqqındakı informasiyalarda Nizami, Füzuli, Nəsimi, Tusi, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov kimi dahi şəxsiyyətlər yada düşür. Belə şəxsiyyətlər cəmiyyətin güzgüsüdür. Onlar fikir və ideya dahiləridir. Azərbaycanda cəmiyyəti öz arxasınca aparmağa qadir olan bir çox şəxsiyyətlər, dövlət xadimləri və sərkərdələr də yetişərək illərin, əsrlərin xatirəsində əbədi obraz yaratmışlar. Azərbaycan cəmiyyətinə müstəqil dövlətçilik quruculuğu bəxş etmiş şəxsiyyət kimi Heydər Əliyevin obrazı daha parlaqdır. Bu obrazın parlaq işığı əsrləri və minillikləri keçib yaşayacaqdır.

Heydər Əliyevin parlaq azərbaycanlı obrazında cəsarətlilik, təşəbbüskarlıq, yorulmazlıq, mərdlik, dəyanətlilik, uzaqgörənlik, hadisələri qabaqlamaq məharəti, dövlətə, xalqa sədaqət, milli mənafeyi uca tutmaq kimi keyfiyyətlər ümumiləşmişdir. Eyni zamanda, Heydər Əliyevin şəxsiyyətində milli –



mənəvi dəyərlərlə bəşəri dəyərlər qovulmuşdur. Heydər Əliyev şəxsiyyəti bu mənada nəsillərə nümunə obrazını formalaşdırmışdır.

Məhz Heydər Əliyev kimi böyük insanların şəxsiyyətində yaranmış obraza görə Azərbaycan xalqının milli – mənəvi dəyərləri bəşər mədəniyyətinin bir tərkib hissəsinə çevrilir. Beləliklə, müasir dövrdə milli – mənəvi dəyərləri özündə birləşdirən azərbaycanlı obrazı bəşər mədəniyyətinin ən yaxşı ənənələrini mənimsəməklə öz şəxsiyyətinin bütövlüyünü və tamlığını nümayiş etdirməyə qadir olur.

Bu gün Azərbaycan Renspublikasının prezidenti İlham Əliyev əsrimizin lideri kimi ölkə iqtisadiyyatının sürətli inkişafını təmin etməklə, siyasi və diplomatik fəaliyyətində yeni uğurlar qazanmaqla, regionda sülhün və ictimai sabitliyin qorunmasına təminat yaratmaqla Azərbaycanın nüfuzunu qaldırır, öz şəxsiyyətinin nümunəsində azərbaycanlı obrazının şərəfini ucaldır.

Azərbaycan milli mədəniyyətinin və Azərbaycan milli ideologiyasının təbliği və tətbiqi sahəsində bu gün Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın çox böyük əməyi, zəhməti və xidmətləri vardır.

Mehriban xanım Əliyeva azərbaycançılıq ideyalarının yayılması, həyata keçirilməsi və təbliği ilə xalq arasında böyük nüfuz qazanaraq özünün parlaq şəxsiyyətində şərəfli bir azərbaycanlı qadını obrazını yaratmışdır. Mehriban xanım Əliyeva özünün humanitar sityasət sahəsindəki fəaliyyəti ilə Azərbaycanın tarixində Möminə xatun (XII əsr), Sara xatun (XV əsr), Bəyim xatun (XVI əsr), Tutu Bikə (XVIII əsr), Bəyim xanım (XIX əsr) kimi qadın siyasətçilərin irs qoyduqları humanist ideyaları yaşadır, inkişaf etdirir və zənginləşdirir.

Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüskarlığı və əməli fəaliyyəti ilə respublikamızda müasir məktəb binalarının və səhiyyə ocaqlarının tikilib istifadəyə verilməsi, maddi – mədəniyyət abidələrinin qorunması, saxlanması və bərpası milli azərbaycançılıq şüurunun inkişafına böyük təsir göstərən vətənpərvərlik nümunəsidir.

Mehriban xanım Əliyevanın bu sahədə apardığı işlər Respublika Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının mənafeyi naminə yönəlmiş fəaliyyəti ilə həmahənglik təşkil edərək bütövlükdə Heydər Əliyev irsinin ləyaqətlə davam etdirilməsinin bariz nümunəsinə çevrilmişdir.

Prezident İlham Əliyevin siyasi və diplomatik fəaliyyəti Azərbaycan Respublikasının dünya siyasəti meydanında getdikcə daha artıq nüfuz qazanmasına



təsir göstərir. Azərbaycanın nüfuzunun artması dünya azərbaycanlıları məkanında azərbaycançılıq ideyalarına marağın və diqqətin genişlənməsinə səbəb olur.

Azərbaycançılıq ideyalarının yaranması, formalaşması və onların milli şüura, milli düşüncə tərzinə, bütövlükdə milli ideologiyaya çevrilməsi prosesini aydın başa düşüb dərk etməkdən ötrü ictimai təfəkkürün, milli mənəvi dəyərlərin və milli dövlətçilik ənənələrinin üzvi əlaqələrinə aid proseslərin araşdırılması vacibdir.

## BİRİNCİ BÖLMƏ

### Azərbaycan cəmiyyətində ictimai təfəkkürün formalaşması

Azərbaycan cəmiyyətində icitmai təfəkkürün formalaşmasının sosial, tarixi və ənənvi kökləri vardır. Cəmiyyət həyatında mühüm rol oynayan maddi – mənəvi mədəniyyət nümunələri, sosial, siyasi və iqtisadi dəyişmələr, ayrı – ayrı mədəniyyətlər arasındakı əlaqə və münasibətlər, müxtəlif inteqrasiya prosesləri ictimai təfəkkürün formalaşmasının qaynaqlarını təşkil edir.

Yusif Rüstəmov təfəkkür haqqında bəhs edərkən yazır: «Təfəkkür dünyanın anlayışlarda, mühakimələrdə, nəzəriyyələrdə və s. fəal ifadə olunması sahəsində bu və ya digər məsələlərin həlli ilə, dünyanın dərk edilməsini ümumiləşdirən vasitələrlə bilavasitə əlaqədə olan ali şüur vasitəsidir».[1] Bu mənada ictimai təfəkkür ictimai şüurun canlanmasına, yaranmasına, formalaşmasına təsir göstərən idrak vasitəsidir. İctimai şüur, bütövlükdə, «insanların ictimai varlığını, onların maddi həyat şəraitini əks etdirən və cəmiyyətdə mövcud olan ideyaların, nəzəriyyələrin, görüşlərin, hisslərin,

[1] Bax: Yusif Rüstəmov. Fəlsəfənin əsasları. Bakı, 2004, s.257.



əhval – ruhiyyənin, adət – ənənələrin məcmusu deməkdir»[1]. Qısa şəkildə desək, ictimai şüur cəmiyyətdə *insanların* öz bəşəri hüquq və azadlıqlarını dərk etməsi deməkdir. İctimai təfəkkür cəmiyyət üzvlərinin ayrı – ayrılıqdakı fərdi, şəxsi dünyagörüşü deyildir. İctimai təfəkkür bütövlükdə cəmiyyət həyatında yaranmış dünyagörüş deməkdir. İctimai təfəkkür insanların cəmiyyətdəki sosial həyatının, məişətinin, əxlaqi – etik normalarının, vətənpərvərlik duyğularının ümumi haldakı təcəssümü deməkdir.

İctimai təfəkkür xalqın mənəvi həyatını, məişətini, yaradıcılıq münasibətlərini müəyyən edən folklor nümunələrində, şairlərin, mütəfəkkirlərin, maarifçilərin cəmiyyət həyatına gətirdiyi ideyalarda, həmçinin sosial, siyasi hadisələrdə canlanır. Bunları müxtəsər şəkildə aşağıdakı kimi səciyyələndirmək olar:

1) folklor nümunələri

İctimai təfəkkürün formalaşmasında cəmiyyətdaxili hadisə və proseslər böyük rol oynadığı kimi, onun yayılmasında, canlanmasında və sonrakı nəsillərə təsir göstərməsində folklor nümunələri əvəzsiz təsiredici qüvvəyə malikdir. Folklor nümunələrində cəmiyyət həyatı üçün səciyyəvi olan, onun ayrılmaz mənəvi – psixoloji qatını təşkil edən

[1] Bax: Yusif Rüstəmov. Yenə orada, s.257.

ailə – məişət əxlaqı, etik normalar, insanların qarşılıqlı əlaqə və münasibətləri, eyni zamanda vətənpərvərlik duyğuları özünün bariz təcəssümünü tapır. Belə ki, məsələn, folklor nümunələrinin ümumiləşdirmə baxımından aparıcı qolunu təşkil edən atalar sözləri və zərbi məsəllərdə ictimai - etik normalar, vətənpərvərlik duyğuları, bayatılarda daxili hiss və həyəcan, insan cəmiyyətinə dair humanist münasibətlər, nağıl və dastanlarda ibrətamiz hadisə və proseslər canlandırılır. Atalar sözləri «obrazlı təfəkkürün aforizm şəklində ifadəsi olmaq etibarı ilə milli təfəkkürdəki cilalanmış tarixi təcrübəni, dərin və samballı həyat həqiqətlərini bədii idrak və təxəyyülün süzgəcindən keçirərək yaşadır, onları tükənməz bir eneji ilə dolğun əks etdirir».[1]

Folklor nümunələrində, xüsusən, atalar sözlərində ictimai, mənəvi, psixoloji və etik normalarla bağlı bir çox deyimlər formalaşmışdır. Məsələn, dostluq haqqında: «Dost dosta tən gərək, tən olmasa gen gərək», «Dost min isə azdır», «Dost yolunda boran olar, qar olar», «Dostu çox olanın gücü çox olar»; yaxşılıq, xeyirxahlıq haqqında: «Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir», «Yaxşı yoldaş yaman gündə tanınar»; düzlük, mərdlik sözübütövlük və şəxsiyyət haqqında: «Düz söz daşdan keçər», «Düz yol gedən yorulmaz»,

[1] Bax: Atalar sözü. «Öndər nəşriyyatı», Bakı, 2004, s.4.



«Yalançının evi yandı, heç kəs inanmadı», «İgid basdığını kəsməz», «Mərd ömründə bir dəfə ölər, namərd gündə yüz dəfə ölər», «İgid ölər, adı qalar, müxənnətin nəyi qalar», «Kişinin sözü bir olar», «Mərd əldən tutar, namərd ayaqdan», «Mərd kişi çörəyini daşdan çıxardar», «Mərdin gözü tox olar»; ağıl və idrak haqqında: «Ağıl ağıldan üstündür», «Ağıl yaşda olmaz, başda olar», «Ağıllı adam qışın qeydinə qalar», «Ağıllı olan bir dəfə aldanar»; tərbiyyə və etika haqqında «Ağır otur, batman gəl», «Böyük danışanı kiçik götürər», «Böyüksüz evdə xeyir – bərəkət olmaz», «Böyüyün üzünə ağ olmazlar», «Can de, can eşit», «Qız anadan öyüd götürər», «Oğul atadan görər süfrə açar»; vətən və el təəsübkeşliyi haqqında: «El bir olsa dağ oynadar yerindən», «El gücü, sel gücü», «Vətənə gəldim, imana gəldim», «Vətən viranə də olsa yenə cənnətdir», «El dediyi mübarək olar», «El gözü tərəvəzdir», «Elin sözü əvvəl – axır düz olar» kimi hikmət xəzinəsi yaranmışdır.

Bayatılarda da insanın daxili hiss və həyəcanları, humanist münasibətləri və vətən təəssübkeşliyi öz parlaq ifadəsini tapır. Bü gün bayatılar klassik janr səviyyəsində qalsa da xalqın həyatını, onun ictimai təsəvvür və təfəkkürünü canlı şəkildə ifadə edən bir bədii vasitə kimi çox böyük əhəmiyyət daşıyır. Nağıllarda, dastanlarda bu və ya digər hadisənin təsviri ilə insanların arzu və xəyalları

öz təcəssümünü tapır. Məsələn, yoxsul adamın xəzinə tapması haqqındakı düşüncələrində onun həyatının firavan keçməsi arzusu təcəssüm olunur. Bəzən nağıllarda xalqın aşağı təbəqəsini təmsil edən adamlar ağıl, idrak, düşüncə etibarı ilə yuxarı təbəqədən olan bəy, xan, tacir, vəzir, və şah obrazlarından üstün göstərilir. Bu müqayisə nə üçün verilir? Ona görə ki, doğrudan da sadə xalq içərisində elə ağıllı adamlar tapılır ki, onlar cəmiyyətdə özlərinə layiq olan yeri tuta bilmirlər. Onların yuxarı təbəqədən üstün verilməsi isə aşağı təbəqəni təşkil edən ağıllı adamların yüksək pilləyə qalxmaq arzusudur. İkinci tərəfdən, nağıllarda verilən belə epizodlar xalqın özünün bünövrəsində, mayasında intellektin mövcudluğunu göstərir.

Nağıllarda keçəl obrazı da, bir qayda olaraq, çoxbilmiş, uzaqgörən, fərasətli şəxs kimi təqdim edilir. Keçəl, əslində kimdir? Bir qarın çörəyə möhtac qalan, əyninə paltar, başına papaq, ayağına ayaqqabı tapmağa ehtiyacı olan aşağı təbəqənin nümayəndəsidir. Belə olduğu halda, keçəl nə üçün xandan, bəydən, vəzirdən, şahdan ağıllı verilir ? Onə görə ki, keçəl də cəmiyyət üzvüdür. O da özünün sosial ehtiyaclarını ödəmək arzusundadır. Yuxarı təbəqəyə üstün gəlmək onun xəyalıdır. Məsələn, bir nağılda deyilir ki, padşah öz qızını yalan danışmağı bacaran bir şəxsə ərə vermək istəyir. Belə bir meydana bir keçəl girməli olur. Padşah peşman olur.



Ona görə vəzirinə buyurur ki, keçəlin yalanlarını doğru kimi qələmə versinlər. Padşah da qızını keçələ verəmsin. Keçəl çox yalanlar uydurur, ancaq qəbul etmirlər. Belə olduğu halda keçəlin başı güdaza da gedə bilər. Odur ki, keçəl çıxış yolu tapır. Böyük bir küpə ilə gəlib padşahın qapısını kəsdirir və şərt qoyur. Deyir ki, «mənim atam çoxlu xoruz və beçəni satıb dünya padşahlarına küpələrlə qızıl verib. Bu padşaha da həmin qızıldan yeddi küpə düşüb. Əgər doğru sayırsınızsa, qızılı verin, yalan ilə qızı verin». Padşah isə cavabsız qalır. Nəticədə iki şərtdən birini qəbul etməlidir. Ancaq əslində padşah bu şərtlərdən yaxa qurtarmaq üçün deyə də bilərdi ki, doğrudur, belə küpələrdən xəzinədə var... Gəl apar. Xəzinəyə elə küpələr qoyub içini daş, torpaqla doldurub keçəli məğlub edə bilərdi. Doğrudan da keçəlin atasının qızılı harada idi? Qızılı olsa idi oğlu niyə keçəl olurdu? Ancaq xalqın içərisində maddi ehtiyac çəkən adamlar çox olduğundan nağılçı keçələ üstünlük verir. Heç bir nağılda keçəl hökmdarlıq arzusunda deyil. Çünki onu bir qarın çörək daha artıq maraqlandırır.

Koroğlunun keçəli də belədir. Dəyirmanda Koroğlu öz üç qüvvəsinin (qılınc, at, nərə) birindən istifadə edib Qıratı ondan ala bilərdi. Koroğlunun üç qüvvəsindən biri atı idi. O Həmzənin əlinə keçmişdi. İkincisi qılıncı idi. Qılınc Həmzəyə çata bilməzdi. Üçüncüsü nərəsi idi. O nərə ki, Dəli Həsən kimi

qoçaq bir cəngavər, Dəmirçioğlu və Kürdoğlu kimi igidlər, Ərəb Reyhan kimi bir pəhləvan həmin nərədən basılmışdılar. Nə üçün Koroğlu nərədən istifadə etmir? Çünki buna ehtiyac yox idi. Keçəl Həmzə nərəyə layiq deyildi. Nərə igidlər üçündür. Keçəl Həmzə isə bir qarın çörəyin quludur. Üstəlik at da ona gərək deyil. Elə Keçəlin məqsədi də atı verib paşa qızını almaq idi. Sonra at necə olur olsun. Hətta Keçəl Düratı qaçırdanda fikirləşirdi ki, «Toqatda kim nə bilir Qırat hansıdır, Dürat hansıdır». Doğrudan da Koroğlu Toqata gələndə Keçəl Həmzə «Söz dəyirmandakıdır», deyib özü atı ona təhvil verdi.

Koroğlu isə dastanda xalqın ictimai təfəkküründən doğan, ictimai düyagörüşün məhsulu kimi formalaşan, əzəmətliliyin, mərdliyin, igidliyin, səxavətliliyin rəmzidir. Xeyirxahlığın təcəssümüdür. Xalq özü üçün belə bir obrazı yetişdirib ona ümuid çırağı kimi baxır. Koroğlu zülm əlindən dağlara çəkilib. Zülm, haqsızlıq görənlər də Koroğluya pənah gətirirlər. Çünki xalq həmişə ictimai ədalətə möhtac olub. Hakimlərin zülmündən cana doyan insanlar ictimai ədalət naminə Koroğluya üz tutmuşlar. Nağıl və dastanlarda belə motivlər çoxdur. Bunlar xalqın ictimai təfəkkürünün məhsulu kimi folklor nümunələrində canlandırılır.

Nağıl və dastanlarda keçəlin və ya sadə adamların ağıllı təsvir olunması xalqın daxili intellektual



potensialının təcəsümüdür. Koroğlu və Koroğlu kimi şəxslərin igidliyi, mərdliyi, səxavətliyi isə xalqın arzu etdiyi sosial ədalətin ifadəsidir.

Xalq ədəbiyyatı xalqın ictimai təfəkkürünün elə bariz, elə canlı ifadəsidir ki, onlar zaman – zaman yaşayır, cilalanır, yazıya köçürülür, öyrənilir, qorunur, mənimsənilir. Belə nümunələr xalqın özünün ruhuna çevrilir və müqəddəsləşir. Xalqın daxilindən gələn bu müqəddəslik ruhu nağıl və dastan qəhrəmanlarını şəxsiyyətə çevirir. Şəxsiyyət tarixdə ictimai hadisələrin gedişinə təsir edən böyük bir qüvvədir. Nağıl, dastan qəhrəmanlarını müqəddəsləşdirən vasitə isə məhz ictimai təfəkkürdə belə qəhrəmanların şəxsiyyətləşdirilməsidir. Ramiz Mehdiyev yazır ki, «Zəruri varlıq olan tarixi şəxsiyyət öz zəmanəsinin yetirməsidir. O xalqın və dövlətin məruz qaldığı çox mürəkkəb təbəddülatlar və transformasiyalar dövründə, inkişaf və tərəqqi naminə hadisələrin gedişini və tarixi dəyişdirmək məqsədi ilə siyasət səhnəsinin önünə çıxır. Başqa sözlə desək, tarixi şəxsiyyət xalqın istək və arzusuna uyğun olaraq tarixin gedişini dəyişdirməyi bacaran, gərəkli anda zamanın tələbini şüurlu surətdə qəbul edən, öz vəzifəsinə məsuliyyətlə və yaradıcılıqla yanaşan görkəmli liderdir. İctimai fəaliyyətin subyekti kimi belə lider müəyyən tarixi dövrdə

təkcə ümummilli ideyaların daşıyıcısı deyil, həm də bu ideyaların həyata keçirilməsinin təşkilatçısıdır».[1]

İctimai təfəkkürün məhsulu kimi yetişən şəxsiyyətlərin ən başlıca amalı vətənpərvərlikdən ibarətdir. Məsələn, vətənin qorunmasından, vətənpərvərlik tərbiyəsindən danışanda həmişə Qazan xan kimi, Koroğlu kimi xalqın şəxsiyyət obrazına çevirdiyi qəhrəmanlar göz önündə canlandırılır. Vətənpərvərlik birbaşa vətənin bütövlüyünü qorumaq mənasında dövlətçiliklə üzvi əlaqənin təcəssümüdür. Ümummilli liderimiz Heydər Əliyev göstərir ki, «Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun. Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir».[2]

Azərbaycan folklor nümunələrində ağıllı, müdrik, uzaqgörən, cəmiyyət hadisələrindən doğru – dürüst baş çıxaran şəxsiyyət obrazları bir qayda olaraq ağsaqqal, dünyagörmüş insanlar kimi təsvir edilir. Məsələn, Dədə Qorqud, Koroğlunun atası Alı kişi, çətin məqamda qəhrəmanlara yol göstərən «Qoca» obrazları bununun bariz nümunəsidir. Nə üçün müdrik insanlar «Qoca» obrazında təcəssüm etdirilir ? Bu da ictimai təfəkkürün məhsuludur. Cəmiyyətdə yaranan belə bir fikrin və əqidənin təcəssümüdür *ki, ağıllı insanlar yaşa dolduqca daha da müdrikləşir (Əksinə ağlı az olanlar yaşa dolduqca ağlı daha da azalır).* Odur ki, müdrik insan obrazı məhz «Qoca» şəxsiyyətində ümumiləşdirilir. Cəmiyyətdə qocalara, yaşlılara, böyüklərə hörmət və ehtiram da məhz məişət həyatında formalaşmış etiketdən irəli gəlir. Ümummilli liderimiz Heydər Əliyev göstərir ki, «Vaxtı ilə Moskvadan nümayəndələr gəlirdilər, gedib bizim şəhərləri, kəndləri gəzirdilər. Gəlib təəccüblə mənə deyirdilər ki, «Biz getdik, filan yerdə 10 – 15 gənc oturmuşdu. Bizi görən kimi hamısı ayağa qalxdı. Biz təəccüb etdik. Necə oldu ki, bunlar ayağa qalxdılar? Bu niyə belədir?». Deyirəm ki, bu təbii bir haldır. Deyir ki, «Axı biz indi Rusiyada bir kəndə, şəhərə gedək bizi görüb heç danışdırmayacaqlar, heç bizə fikir verməyəcəklər. Amma bunlar ayağa qalxdılar.» Dedim ki, bu bizim xalqın xüsusiyyətidir. Bu

[1] Bax: Ramiz Mehdiyev. «Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi». Bakı-2001, s.23.
[2] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

xalqımızın mentalitetidir. Bu kiçiyin böyüyə hörmətidir. Bu ev sahibinin qonağa hörmətidir».[1]

Ümumi halda, bu onu göstərir ki, ictimai təfəkkür bütün xalqlarda eyni dərəcədə formalaşmamışdır. Hər bir xalqın ictimai təfəkkürü onun ictimai şüurunu yetişdirir. Hər bir xalq öz ictimai təfəkkürünün bünövrəsində ictimai dünyagörüşünə və ictimai etik – əxlaqi normalara yiyələnir. Azərbaycan xalqına məxsus ictimai təfəkkürün və buna uyğun şəkildə formalaşan ictimai şüurun güzgüsü, göstəricisi kimi folklor nümunələrinin müstəsna əhəmiyyəti vardır.

2) şairlərin, söz ustadlarının, mütəffəkir şəxsiyyətlərin yaradıcılığı

İctimai təfəkkürün formalaşmasında və onun ictimai şüura çevrilməsində şairlərin, söz ustadlarının, mütəfəkkirlərin, yaradıcı insanların müstəsna əməyi və zəhməti vardır. Azərbaycanın tarixində dünya mədəniyyətini bəşəri fikir və ideyalarla zənginləşdirən böyük şəxsiyyətlər yetişmişdir. Doğrudur, tarixin dərinliklərinə getdikdə belə şəxsiyyətlərin bir çoxunu axtarıb tapmaq, müəyyən etmək imkanları azalır. Ancaq bizə məlum olan mənbələr onu göstərir ki, Azərbaycan mədəniyyəti, Azərbaycan ədəbiyyatı və Azərbaycan ictimai fikri çox dərin və zəngin bünövrə üzərində yetişmişdir.

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.



X – XI əsrlərin yadigarı olan «Kitabi – Dədə Qorqud» dastanlarını ozanlar yaratmış olsa da bu kitab ana dilində qələmə alınmış ən böyük ədəbi abidə kimi qiymətləndirilməlidir. XI əsrdə sarayda yazıb yaradan Əbül üla Gəncəvi, Qətran Təbrizi (1010 – 1080), Fələki Şirvani (1108 – 1146), Əfzələddin Xaqani (1120 – 1199), milli mədəniyyətimizin «qızıl əsrini» yaradanların ən görkəmlisi Nizami Gəncəvi (1141 – 1209) Azərbaycan ictimai fikrinin yaranmasında və formalaşmasında öz üzərlərinə düşən çox böyük tarixi vəzifəni şərəflə yerinə yetirmişlər.

XIII – XIV əsrlərdə Övhədi Marağainin (1275 – 1338) «Dəhnam»si, Zülfiqar Şirvaninin (1190 – 1245) lirikası, şair Əlinin «Qisseyi – Yusif» dastanı (XI əsr), XIII – XIV əsrlərin astanasında İzzəddin Həsənoğlunun «Divanı», Mustafa Zəririnin «Yusif və Züleyxa» və Suli Fəsihin «Yusif və Züleyxa» poemaları yazılmışdır.

XV – XVI əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafında xüsusi bir mərhələ baş vermişdir. Əvvəlki dövrlərdə yaranan ədəbiyyat nümunələri Azərbaycan və fars dillərində yazılırdısa, XV – XVI əsr ədəbiyyatında fars dilli nümunələr olduqca az idi. Azərbaycan dilli ədəbiyyatın yaranması ilə bir tərəfdən ana dilinin inkişafı imkanları güclənirdi, digər tərəfdən isə azərbaycançılıq ideyaları daha artıq canlandırılırdı. Bu dövrdə Təbrizdə, Şamaxıda və Azərbaycanın digər şəhərlərində görkəmli

mədəniyyət xadimləri, şairlər, alimlər, memarlar, musiqiçilər yaşayır və yaradırdılar.

XV əsrin ikinci yarısında Azərbaycan mədəniyyətinin böyük xadimlərindən Arif Ərdəbili, Əssar Təbrizi böyük şöhrət qazanmışdılar. Arif Ərdəbili Nizaminin «Xosrov və Şirin» poeması əsasında özünün «Fərhadnamə» əsərini yazmışdı. Əssar Təbrizinin «Mehr və Müştəri» əsərində azərbaycançılığın mühüm cəhətlərini canlandıran qəhrəmanlıq və dostluq motivləri başlıca yer tuturdu. Yaradıcılığının əsas hissəsi XV əsrə təsadüf edən İmadəddin Nəsiminin şeirləri Azərbaycan ədəbiyyatını və üslub formalarını zənginləşdirirdi. Həmin dövrün şairlərindən olan Şah Qasim Ənvar həm azərbaycanca, həm də farsca şeirlərin müəllifi idi. Bu dövrdə Kişvəri Təbrizi özünün lirik şeirləri ilə, Xətayi Təbrizi «Yusif və Züleyxa» poeması ilə, Həqiri «Leyli və Məcnun» poeması ilə, Xələfi «Xəmsə» əsəri ilə, Bədr Şirvani və Ziya Ordubadi kimi şairlər lirik şeirləri, xüsusən, qəzəlləri ilə böyük şöhrət qazanmışdılar. Fars dilində «Xəmsə» yaratmış Əşrəf Marağayi xüsusilə məşhurlaşmışdı.

Şah İsmayıl Xətayi dövründə sarayda bir çox şairlər toplaşmışdı ki, onların əsərləri Azərbaycan həyatı, məişəti və milli dünyagörüşü ilə sıx bağlı idi. Sarayda Xətayinin özü ilə birlikdə Süruri, Şahi, Matəmi, Tüfeyli, Qasimi kimi şairlərin yaratdığı əsərlərdə bilavasitə Azərbaycan cəmiyyətinə, etik –



əxlaqi normalara aid olan motivlər işıqlandırılırdı. Bu şeirlərdə canlandırılan dini motivlərin əsas məzmunu bilavasitə azərbaycançılıq ideyaları, azərbaycanlı həyatı və məişəti ilə bağlı şəkildə ifadə olunurdu.

Şah İsmayıl Xətayi təxəllüsü ilə Azərbaycan dilində əsərlər yazmışdır. Onun «Divan», «Nəsihətnamə», «Dəhnamə» adlı əsərləri Şərqdə çox böyük şöhrət qazanmışdır. Bu dövrün şairlərindən olan Həbibini xatırlamamaq mümkün deyildir. Onun sadə, asan başa düşülən şeirlərində Azərbaycan həyatı olduqca dolğun bir şəkildə tərənnüm edilir.

Dövrün ən görkəmli nümayəndəsi Məhəmməd Füzuli (1494 – 1556) idi. Füzuli ömrünün 40 ildən çoxunu bədii və elmi yaradıcılığa həsr etmişdi. Füzuli özünün lirik şeirləri, xüsusilə də qəzəlləri ilə Yaxın və Orta şərqin bütün şairlərindən irəli getmişdi. Onun əsərləri zaman və məkan hüdudu tanımır. Bu əsərlərdə azərbaycanlı ictimai şüurunun formalaşmasına dair bədii təsvirlər çox güclüdür. Füzulinin «Leyli və Məcnun», «Şikayətnamə», «Bəngü badə» əsərləri çox böyük şöhrət qazanmışdır.

Füzulinin «Leyli və Məcnun» əsərində Azərbaycan həyatına, azərbaycanlı məişətinə dair hadisələr, azərbaycanlı dünyagörüşü və təsəvvürləri o qədər incəliklə qələmə alınmışdır ki, burada hadisələr təkcə XVI əsr mühiti ilə məhdudlaşmır. Bu əsərlərdə Füzulidən əvvəlki və sonrakı dövrlərə aid ictimai mühit də sənətkarlıqla canlandırılar. Bu əsərlərdə

azərbaycanlı təfəkkürü müəyyən ictimai hadisələr bazasında təsvir edilir. Azərbaycanlı həyatı və məişəti bəşəri düşüncələrin ayrılmaz bir tərkib hissəsi kimi çatdırılır. Məsələn, «Leyli və Məcnun» əsərində əsas motiv insan azadlığının, sərbəst, azad və müstəqil cəmiyyət ideyalarının tərənnümündən ibarətdir. Bu təkcə Leyli və Məcnunun arzusu deyildi. Füzuli Leyli və Məcnun obrazlarının timsalında cəmiyyətdə mövcud olan ictimai təfəkkürü, ictimai arzu və düşüncələri ecazkar bir bədii dillə ifadə edir. «Leyli və Məcnun» poemasında məktəb həyatı belə təsvir edilir: həddi-buluq yaşındakı oğlanlar və qızlar dərsdə cərgə – cərgə oturarmışlar. Yəni bir cərgədə oğlanlar, bir cərgədə qızlar otararmış. Dərs zamanı bir – birinə yazı da ötürərmişlər.

Əlbəttə ki, XVI əsrdə şəriət qanunları buna yol verməzdi. Ancaq bu Füzulinin Azərbaycan cəmiyyətində görmək istədiyi idi, onun arzularının təcəssümü idi. İnsan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı yanğısı idi. Başqa bir yerdə Leylinin anası Leyliyə nəsihət verərəkən onu danlayır və deyir ki, «Lalə kimi səndə lütf çoxdur, əmma nə deyim, üzün açıqdır». Axı XVI əsrdə şəriət yol verərdimi ki, Leyli yaşda olan qızlar üzüaçıq gəzsin. Bu mümükün deyildi. Füzuli isə insan azadlığını hər şeydən üstün tutub qızların üzüaçıq gəzməsinə tərəfdar çıxırdı. Füzulinin «Leyli və Məcnun»una bu ideya qədim Azərbaycan



məişətindən gəlirdi. Ancaq Füzuli XVI əsr mühitində həmin ideyanı elə cilalayır ki, dövrün fanatikləri ona irad tuta bilmirlər. Beləliklə, Füzuli, XVI əsrin islam ideologiyası mühitində azərbaycanlılara məxsus ictimai və etnik – psixoloji təfəkkürü canlandıra bilmişdi. Yaxud, Məcnunun atasının Leyliyə elçi gəldiyi səhnədə qız atası qızını verməyə razı deyil. Ancaq o qonağın şərəfinə dəbdəbəli bir məclis düzəldir. Çox böyük nəzakətlə deyir ki, «Sənin adın, nüfuzun mənə şərəfdir. Amma oğlun qəribədir. Hamı ona Məcnun deyir. Mənim qızın sənin oğluna layiq deyil». Demir ki, «Sənin oğlun layiq deyil». Ancaq ümid yeri də qoyur ki, oğlun yaxşılaşsın, Leyli onunkudur. Leylinin atası qızı vermək istəmədiyinə görə deyinmir, kobud cavab vermir. Gülə – gülə qarşılayır, gülə – gülə yola salır. Bu Füzuli böyüklüyüdür ki, Azərbaycan məişətində əxlaqi – etik normaları belə görmək istəyirdi. Azərbaycanlı ictimai təfəkkürünün canlandırılması ilə ictimai şüurun yetkinləşməsini istəyirdi. Azərbaycanlı ictimai şüurunda bəşəri ideyaların özünə yer tapmasını istəyirdi. Bu əlbəttə, şairin əsrlərə və zamanlara sığmayan çox güclü bədii təxəyyülünün məhsulu sayılmalıdır. Yeri gəlmişkən demək lazımdır ki, böyük Nizamidə də belə güclü təxəyyül vardır. Məsələn, «İskəndərnamə» əsərinin «Şərəfnamə» hissəsində İskəndərin ruslarla döyüş səhnəsi verilir. Burada rusların qəddarlığından,

amansızlığımdan söhbət açılır. İskəndər isə ədalətin təcəssümü kimi verilir. İskəndər qalib gəlir. Sanki hıqsızlıq üzərində ədalət qələbə çalır. *Tarixdə isə əslində İskəndərlə rusların döyüşü olmayıb. Çünki İskəndər dövründə rus dövləti yox idi.* İskəndər eradan əvvəl 334-cü ildə Şərqə yürüş etmiş, Əhəməni şahı III Dara ilə döyüşmüş, Orta Asiyaya və oradan Hindistana keçmişdir. 10 il davam edən döyüş (e.ə. 334 – 324) Hindistanda başa çatmışdır. 323-cü ildə İskəndər 33 yaşında ölmüşdur.

Ruslar isə 914-cü ildə (X əsr) Xəzər sahillərinə gəlmiş, 938-ci ildə Bakıya yaxınlaşmışlar. Sonra isə Arranın mərkəzi Bərdəyə gəlmişlər. 944-cü il avqustun 24-də Bərdəni mühasirəyə almışlar. Bərdədə çoxlu tələfat verən ruslar 945-ci il avqustun 12-də yığdıqları qənimətlərlə Bərdəni tərk etmişlər. Bundan sonra xeyli müddət Bərdə dirçələ bilmədi.

Bu hadisə, görünür, şairə güclü təsir etmiş, rusların qəddarlığını, amansızlığını və onların Şərq ölkələrinə qarşı şovinst siyasətini qabarıqlaşdırmaq üçün hadisəni eradan əvvələ çəkib aparıb onları İskəndərin vasitəsi ilə məğlub etmişdir. Qələbəni ədalətə vermişdir. Bu da azərbaycanlıların haqq işinə, sosial ədalətə daha çox meylli olmasını göstərmək üçün bir vasitə idi. Bütünlükdə, haqqın və ədalətin azərbaycanlı ictimai təfəkküründə dərin tarixi köklərlə bağlılığı Nizaminin sənətkar təxəyyülündə özünün canlı ifadəsini tapır.



XVI – XVII əsr ədəbiyyatının səciyyəvi cəhətlərindən biri bu idi ki, fars dilli ədəbiyyat tənəzzülə uğrayardı. Azərbaycan dilli ədəbiyyat isə üstünlük təşkil edirdi. Digər tərəfdən, Azərbaycan şairləri tərəfindən fars dilində yazılan əsələrdə də Azərbaycan cəmiyyətinə xas olan hadisələr ifadə olunurdu. XVII əsrin ortalarında ən istedadlı şairlərdən biri Qövsi Təbrizi idi. Qövsi Təbrizi, əsas etibarı ilə lirik şeirlər müəllifi kimi tanınır. Onun şeirlərində azadlıq, azad cəmiyyət arzuları, ictimai ədalət motivləri xüsusi bir yer tutur. XVII əsr şairlərinin içərisində Saib Təbrizi də layiqli yer tutur. Saib Təbrizinin şeirlərində vətənpərvərlik, doğma diyara məftunluq motivlərinə üstünlük verilir. Dövrün məşhur olan şairlərindən biri də Məsihi Rüknəddin Məsud olmuşdur. I Şah Abbasın şərəfinə «Vərqa və Gülşa» əsərini yazmışdır.

Dövrün şairlərindən biri də Tərəzi Əfşardır. Azərbaycan, fars və ərəb dillərində yazmışdır. Hər üç dildə yazdığı əsərlərdə mövzu Azərbaycan həyatı, Azərbaycan məişəti ilə bağlı olmuşdur. Bu dövrdə xalq ədəbiyyatının görkəmli nümayəndəsi olan Aşıq Abbas Tufarqanlı yetişmişdir. Doğma Azərbaycan, Təbriz şəhəri, Dərbənd və Tufarqan onun yaradıcılığında xüsusi yer tutur. Onun qoşma, divani, gəraylı və müxəmməslərində ictimai ədalətsizlik, dövrdən şikayət, dərd və kədər motivləri mühüm yer tutur. İctimai birliyə çağırış, etik – əxlaqi keyfiyyətlərin tərənnümü də onun əsərlərində aparıcılıq təşkil edir.

Qarşılıqlı etimad, saf məhəbbət ideyaları aşığın yaratdığı «Abbas və Gülgəz» dastanında canlı və təsiredici bir şəkildə verilmişdir.

Bu dövrdə yaşayıb – yaradan el şairlərindən biri də Sarı Aşıq olmuşdur. Sarı Aşıq bayatı ustadı kimi məşhurlaşmışdı. İnsanın səmimi qəlb duyğuları, saflıq, təmizlik, qarşılıqlı humanist keyfiyyətlər Sarı Aşığın yaradıcılığında aparıcı mövzudur.

Bu dövrün güclü el sənətkarlarından biri də Tikmədaşlı Xəstə Qasımdır. O gəraylı, qoşma, təcnis, bayatı, bağlma, qıfılbənd kimi əsərlərlə şöhrət qazanmışdır. Yüksək bədii sənətkarlıq və poetik dilin xəlqiliyi Tikmədaşlı Xəstə Qasımın yaradıcılığının başlıca keyfiyyətləridir. Aşığın yaradıcılığında xalqın daxili hiss və duyğularının, hummanist münasibətlərinin bədii təcəssümü ictimai təfəkkürün canlandırılması üçün poetik bir vasitədir.

XVII əsrin bədii nümunələri içərsində «Koroğlu» dastanının, eləcə də «Şəhriyar və Sənubər» dastanının xüsusi bir yeri vardır. İctimai təfəkkürdə özünə yer tapan vətənpərvərlik, mərdlik, humanist ideyalar bu dastanlarda təsvir olunan hadisələr əsasında olduqca canlı bir şəkildə öz təcəssümünü tapır. Öz tarixi kökləri üzərində canlanan Azərbayacn mədəniyyəti XVIII əsrdə bir çox görkəmli şəxsiyyətlərin yetişməsinə şərait yaratmışdır. Bu dövrdə yetişən Saili, Saleh, Urfani, Məlali kimi şairlər Xəstə Qasımın, Tufarqanlı



Ababsın və Sarı Aşığın ənənələrini davam etdirirdilər.

XVIII əsrdə yazıb yaradan şairlərdən Şakir Şirvani, Nişat Şirvani, Ağa Məsihi, Şikəstə Şirin və Nəbi daha çox tarixi hadisələri işıqlandırırdılar. Onların əsərlərində ictimai siyasi hadisələr, xalqın düçar olduğu ictimai və sosial bəlalar, kədər və narazılıq motivləri əsas yer tuturdu. Bu da ictimai həyata ayıq gözlə baxmaq üçün insanların şüuruna təsir göstərməyə bilməzdi. Xalqın hiss və duyğuları şairlərin əsərlərində ümumiləşdirilmiş şəkildə verilirdi. Belə ki, kədər, sosial çətinliklər, insanların üzləşdikləri bəlalar bir şəxsin həyat faciəsi kimi qələmə alınmırdı. Bu hadisələr ictimailəşdirilərək cəmiyyət həyatına tətbiq olunurdu. Şakir Şirvani «Şirvan haqqında dastan» adlı müxəmməsində 1743-cü ildəki Şamaxı üsyanı zamanı baş verən qırğınları qələmə almışdı. XVIII əsr ara müharibələri şair Ağa Məsihinin bir müxəmməsində təsvir olunur. Şikəstə Şirin Tiflisin İran işğalçıları tərəfindən dığıdılması münasibəti ilə poema yazmışdı. İctimai təfəkkürün ictimai şüura keçməsi üçün bu əsərlər cəmiyyətin bədii dillə maarifləndirilməsi məqsədinə xidmət etmişdir. XVIII əsrdə yazılmış bu əsərlərdə ictimai həmrəylik və azadlıq uğrunda mübarizə aparılması başlıca motiv idi.

XVIII əsrdə xalq yaradıcıları tərəfindən formalaşdırılan «Şəhriyar» dastanı xüsusi bir maraq

doğrudur. Nəsrlə yazılmış bu əsərin əsas məzmunu cəmiyyətdə baş verən sosial ədalətsizliyin aradan qaldırılması kimi arzu və istəklərin ictimaiyyətə çatdırılmasından ibarət idi.

XVIII əsr ədəbiyyatından danışarkən böyük ədəbi simaları – Molla Vəli Vidadini və Molla Pənah Vaqifi xüsüsilə nəzərə almaq lazımdır.

Molla Vəli Vidadi 1709-cu ildə Şəmkirdə anadan olmuşdur. Vidadinin əsərlərində ictimai kədər, sosial ədalətsizilk motivləri üstünlük təşkil edir. Onun kədəri vətəninə olan sevgidən, xalqın düçar olduğu bəlaların törətdiyi fəsadlardan irəli gəlirdi. Bu əsərlər cəmiyyətdə əlbəttə ki, təsirsiz qalmırdı, ağıllı insanları çətinliklərdən xilas olmaq üçün yollar axtarmağa sövq edirdi.

Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Onun əsərlərində həyata nikbin baxışla yanaşmaq meylləri xüsusi yer tutur. Bu da insanların sabahkı günə inamının artmasına, onların arzu və ümidlərinin baş tutacağına yönələn humanist ideyaların tərənnümü kimi qiymətləndirilməlidir. Eyni zamanda, Vaqifin bir sıra şeirlərində ictimai ədalətsizliyə qarşı etiraz səsləri də qaldırılır. XVIII əsrdə saray ənənələrini davam etdirən şairlər də var idi. Saray şeir ənənələrinin davam etdirilməsi, əslində, klassik şeir ənənələrinin zənginləşdirilməsi demək idi. Lakin bununla yanaşı bu ədəbiyyatda dövrün həyat hadisələri və



ictimai münasibətləri də canlandırılırdı. Bu da ictimai şüurun yetkinləşməsinə öz təsirini göstərməyə bilməzdi. Həmin ənənəni daha çox Şəki xanları sarayında yaşayan Hacı Məhəmməd, Hüseyn xan Müştaq kimi bədii yaradıcılıqla məşğul olan şəxslər davam etdirirdilər.

Şəki şairləri içərisində XVIII əsrin birinci yarısında yaşayab yaratmış Süleyman adlı bir şair də olmuşdur. Bu şairin Molla Pənah Vaqifə çox böyük təsiri var idi.

XIX əsrdə dövrün ictimai siyasi hadisələrini bədii dillə qələmə alan və cəmiyyətdəki sosial münasibətləri hadisələrin təsviri fonunda canlandıran görkəmli ədəbi simalar yetişmişdi.

Bü dövrdə Mirzə Şəfi Vazeh (1794 – 1852) öz lirik şeirləri ilə azadlığın və humanist ideyaların carçısı kimi çıxış edirdi. Abbasqulu ağa Bakıxanov Qüdsi təxəllüsü ilə bir çox bədii əsərlər yazmışdı. Qüdsinin əsərlərində maarifçilik dünyagörüşü əsas yer tuturdu. Dövrün görkəmli ədəbi simalarından olan İsmayıl bəy Qutqaşınlı hərbçi idi, general–mayor rütbəsi qazanmışdı. Fransız dilində yazdığı «Rəşid bəy və Səadət xanım» adlı povestində insanın bəşəri hüquq və azadlıqlarının tərənnümçüsü kimi çıxış edirdi. Bu dövrdə satirik poeziya da inkişaf edirdi. Satira mövzusu Qasım bəy Zakirin (1786 – 1857) əsərlərində xüsusi yer tutur. Onun satirik şeirlərində əsas etibarı ilə icitimai ədalətsizlik tənqid

olunur. Dövrün görkəmli ədəbi simalarından olan Mirzə Fətəli Axundovun (1812 – 1878) əsərlərində maarifçilik ideyaları üstünlük təşkil edir. XIX əsr, xüsusilə, əsrin sonları tarixə maarifçilik dövrü kimi daxil olmuşdur. Bu dövrdə Azərbaycanda Nəriman Nərimanovun təşəbbüsü ilə ilk kütləvi kitabxana açılmışdır. Kitabxanın yaradılması ictimai fikrin, xüsusən, maarifçiliyin formalaşması üçün mühüm addımlardan idi. Maarifçiliyin inkişafında Həsən bəy Zərdabinin (1842 – 1907) çox böyük əməyi, zəhməti və fəaliyyəti olmuşdur. Onun naşiri olduğu «Əkinçi» qəzeti 1875 – 1877-ci illərdə işıq üzü görmüşdü. Azərbaycanda maarifçilik işinin həyata keçirilməsində 1879-cu ildə işıq üzü görən «Ziya» (1880-ci ildən «Ziyayi – Qafqaziyyə»), 1880-ci ildən nəşr olunan «Kəşkül» 1891-ci ilə kimi qəzetlərin mühüm rolu var idi. Bu qəzetlər Tiflisdə çap olunsa da Azərbaycan həyatını və Azərbaycan ictimai fikrini canlandırırdı.

1880 – 1890-cı illərdə Bakıda «Каспи», «Бакинские известия», «Баку» və başqa qəzetlər də dərc olunmağa başladı. XIX əsrin görkəmli söz sənətkarlarından Seyid Əzim Şirvaninin, Nəriman Nərimanovun, Mirzə Fətəli Axundovun, Sultan Məcid Qənizadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Xurşud banu Natəvanın əsərləri həm maarifçilik ideyalarının yayılmasında, həm də ictimai həyatın canlandırılmasında çox böyük əhəmiyyət kəsb etmişdir.



XIX əsrin sonu, XX əsrin əvvəllərində maarifçilik hərəkatı Cənubi Azərbaycanda da geniş vüsət almışdı. Yaradılan bədii nümunələrdə həyatın real mənzərəsi ölkədə baş verən ictimai – siyasi hadisələr fonunda işıqlandırılırdı. 1905 – 1911-ci illər Məşrutə (konstitusiyalı demokratik quruluş) inqilabi dövründə Cənubi Azərbaycanda ilk dəfə ana dilində bir sıra qəzet və jurnallar nəşr olunmağa başlamışdı. «Azərbaycan», «Ana dili», «Məzəli», «Zənbur», «Həşərat – ül ərz» jurnalları ana dilində nəşr edilirdi. Əhalinin geniş kütləsinin maarifləndirilməsində bu mətbu orqanlarının mühüm rolu var idi. Eyni zamanda, ictimai fikrin canlanmasında Azərbaycan və fars dillərində dərc olunan «Naleyi - millət», «Molla Nəsrəddin» jurnalları da mühüm yer tuturdu. Bu dövrdəki jürnallarda dərc olunan materiallar, əsasən, demokratik ideyaların yayılması ilə bağlı idi. İran mənbələrindən alınan məlumatlara görə Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda 50-yə yaxın adda qəzet və jurnal nəşr edilmişdir.

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda dərc olunmuş ən mühüm qəzetlərdən biri 1917-ci ildə Əbülqasım Fyüzat və Şeyx Məhəmməd Xiyabani tərəfindən 1921-ci ilə kimi nəşr olunan «Təcəddüd» idi. Bu dövrdə Əbülziya Şəbüstəri, Seyid Hüseyn Ədalət kimi qələm sahibləri demokratik ruhlu qəzetlərdə ictimai fikrin

canlandırılmasına xidmət edən yazılarla çıxış etmişlər.

İctimai fikrin formalaşmasında, ən əsası isə cəmiyyətdə insanın azad, sərbət, müstəqil həyat mövqeyinə qoşulmasında XX əsr ədəbiyyatı çox böyük əhəmiyyət daşıyır. Bədii ədəbiyyat hər zaman insanların şüuruna və düşüncəsinə ciddi təsir edən vasitə olmuşdur. XX əsrdə, xüsusən, sovet ideologiyasının güclü təbliğ edildiyi bir mərhələdə milli şüurun canlandırılmasına təsir edən əsərlərin yaradılması çətin idi. Lakin ədəbiyyat çətinliklə də olsa öz işini görürdü. Cəmiyyəti azad, sərbəst, müstəqil düşüncəyə, vətənpərvəlik amalına nail olmağa səsləyirdi. Əlbəttə ki, bu yolda baş verən çətinliklər cəmiyyət həyatında fəsadların yaranmasına da öz təsirini göstərirdi. Xüsusən, Sovet hakimiyyətinin ilk onilliklərində Azərbaycanın intellektual potensialı bu sahədə böyük itkilərə məruz qaldı. Hüseyn Cavid, Mikayıl Müşfiq, Cəfər Cabbarlı, Hacı Kərim Sanılı, Əhməd Cavad, Səməd Mənsur, Cabbar Əfəndizadə, Almas İldırım, Müniri, İbrahim Tahir və bir çox başqaları dövrün siyasi qurbanları siyahısına daxil olmuşdular. Lakin ictimai fikri ləngitmək, onun qarşısını almaq mümkün deyildi. Cəmiyyətin ehtiyacı olduğu ictimai fikir və düşüncələr davam etdirilirdi. Əli Nəzmi, Abdulla Şaiq, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Məmməd Rahim, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Əhməd Cəmil, Cəlil



Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hacıbaba Nəzərli, Əbülhəsən Ələkbərzadə, Hüseyn Mehdi, Mir Cəlal, Əli Vəliyev, Sabit Rəhman, Süleyman Rəhimov, Tağı Şahbazi Simurq kimi bədii söz sənətkarları mövcud çətinliklərə baxmayaraq 1920 – 1930-cu illərdə öz əsərlərində həyati reallıqları təcəssüm etdirirdilər. 1930 – 1940-cu illərdə Məmməd Səid Ordubadi, Hüseyn Mehdi, Mirzə İbrahimov, Rəsul Rza, Səməd Vurğun, Süleyman Rüstəm, Sabit Rəhman, Mir Cəlal, Zeynal Xəlil, Osman Sıravəlli, Süleyman Sani Axundov, Seyid Hüseyn, Süleyman Rəhimov, Əli Vəliyev kimi yazıçı və şairlər həyat həqiqətlərini canlandıran əsərlərlə bədii dilin vüsətinə istinad edərək ictimai şüurun canlandırılmasında əvəzsiz xidmətlər göstərmişlər.

Yazıçıların və şairlərin yaratdığı əsərlərdə bədii ümumiləşdirmə ictimai təfəkkürün daha da canlanmasına və bununla bağlı ictimai şüurun formalaşmasına çox güclü təsir göstərir.

Heydər Əliyev göstərir ki, «Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları Azərbaycanın böyük şəxsiyyətləri, Azəbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycanın milli – mənəvi dəyərlərini yaradıblar».[1]

---

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

Bütün bunlar ictimai təfəkkürün canlanmasına və ictimai şüurun formalaşmasına təsir göstərən mühüm mənəvi – psixoloji amillərdir.

3) maddi mədəniyyət abidələri

İctimai təfəkkürün canlanmasında maddi mədəniyyət abidələrinin çox mühüm və təsiredici rolu vardır. Hər hansı ölkədə, hər hansı məkanda maddi mədəniyyət abidələrinin çoxluğu həmin məkanın tarixinin qədimliyini və mədəniyyətinin zəngin olduğunu göstərir. Maddi mədəniyyət abidələri tarixin canlı yaddaşıdır. *Bəzi abidələr vardır ki, zamandan – zamana onların özü qalıb. Belə abidələr qorunur və saxlanılır. Bəziləri müxtəlif zamanlarda baş verən hadisələrin təsirindən dağılıb izi qalıb. Belə abidələr bərpa olunur. Bəzi abidələr də vardır ki, onların izləri ancaq təsəvvürlərdə yaşayır. Belə abidələr yenidən qurulur və yaradılır.* Maddi mədəniyyət abidələrində xalqın həyatına, məişətinə, adət – ənənələrinə, fəlsəfi dünyagörüşünə, etik – əxlaqi normalarına və fəaliyyətinə dair təsəvürlər canlandırılır. Maddi mədəniyyət abidələri bütövlükdə cəmiyyətdə insanların fikir, düşüncə və təsəvvürlərini ümumiləşdirir. Maddi mədəniyyət abidələri ictimai fikri zaman – zaman formalaşdırır və zənginləşdirir. Hər bir dövrdə yaranan maddi mədəniyyət abidələrində cəmiyyətin bir mərhələsi canlanır. Bu bünövrə üzərində isə ictimai fikrin ənənələri inkişaf edir və zənginləşir.



Azərbaycan ərazisində müəyyən edilən ilkin insan mədəniyyətinin izləri bir milyon beş yüz min il bundan əvvələ gedib çıxır. Quruçay mədəniyyətinə aid olan nümunələr əsas etibarı ilə adi çay daşlarından hazırlanmış kobud əmək alətlərindən ibarətdir. Eyni zamanda, bu əmək alətlərinin içərisində əl çapacaqları, itiuclu alətlər, müxtəlif növ qaşovlar, dişli iskənəyə bənzər alətlər və s. vardır. Bu alətlər kəsmək, deşmək, sıyırmaq işlərinə tətbiq olunurdu.[1]

Qobustan ərazisində aparılan arxeoloji qazıntıların nəticəsi göstərir ki, burada həyat 12 min il əvvəl başlanmışdır. Qazıntılar zamanı ərazidən çaxmaq daşı və çay daşından, habelə sümükdən hazırlanmış müxtəlif alətlər aşkar edilmişdir. Aşkar edilən alətlərin təyinatı öyrənilərkən müəyyən olunmuşdur ki, sümükdən biz, ox ucu, balıq toru toxunulmasında istifadə edilən alətlər hazırlanırmış.[2]

Eradan əvvəl VII – VI əslərə aid olan əmək alətləri Gəncə yaxınlığındakı Gillikdağ ərazisində də aşkar edilmişdir. Buradan görünür ki, qədim Azərbaycan ərazilərində istehsal vasitələri mövcud imiş. İstehsal vasitələrinin mövcudluğu ondan xəbər verir ki, hələ qədim zamanlardan Azərbaycan ərazisində istehsal sahəsi yaranmışdır. İstehsal sahələrinin formalaşması isə iqtisadiyyatın mövcud-

---

[1] Bax: Azərbaycan tarixi. Bakı, 1994, s.20-21.
[2] Bax: Azərbaycan tarixi. Yenə orada, Bakı, 1994, s.25.

luğunu və onun müvafiq inkişaf perspektivlərinin olduğunu təsdiq edir. *Hər bir iqtisadi inkişafın arxasında isə siyasət, mədəniyyət və sosial məsələlər durur. Bu o deməkdir ki, ən qədim dövrlərdə Azərbaycan ərazisində istehsalı, siyasəti, mədəniyyəti, sosial problemləri tənzimləyən müvafiq dövlətçilik qurumu dayanmışdır.*

Aparılan tədqiqaqtlar və təhlillər onu göstərir ki, zaman keçdikcə əmək vərdişlərinin təkmilləşməsi və insanların texniki qaydalara yiyələnməsi yolu ilə təsərrüfat həyatında mühüm dəyişikliklər baş vermişdir. Bununla, birlikdə, dövlətçilik qurumlarında da zaman – zaman təkmilləşmə baş vermişdir. Eradan əvvəlki VI – IV minilliklərə aid olan eneolit dövründə metalişləmə və metallurgiyanın inkişaf etməsi insanların həyat tərzinə çox böyük təsir göstərmişdir. Kültəpə, Çalağantəpə, Əliköməktəpə, Leylatəpə və s. ərazilərdə aşkar edilən metal əşyaların sayca çoxluğu Azərbaycanda metaləritmənin qədim tarixə malik olduğunu sübut edir.

Eradan əvvəl IV minilliyin sonuna və II minilliyin əvvəllərinə təsadüf edən Tunc dövrü məhsuldar qüvvələrin sürətlə artmasına ciddi təsir göstərmişdir. Toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olunmuş, yeni heyvan növləri əhliləşdirilmiş, yaylaq maldarlığı təşəkkül tapmış, sənətkarlıq tərəqqi etmişdi.[1]

[1] Bax: Azərbaycan tarixi. Bakı, 1994, s.33.



Əmək alətlərinin təkmilləşdirilməsi, təsərrüfatda irəliləyişlərin baş verməsi, ictimai həyatda iqtisadi dirçəlişlə bağlı nailiyyətlərin mövcudluğu əhalinin dünyagörüşünə və ictimai təfəkkürün formalaşmasına da öz təsirini göstərmişdir. Belə ki, məsələn, Tunc dövrünə aid olan ətraf aləm barəsindəki təsəvvürlər, axirət dünyasına və mifik aləmə inam, qəbir abidələri, dəfn mərasimləri (ölülərin yandırılması, kollektiv və ya tək dəfn etmə, ölülərin yanına müəyyən alətlərin qoyulması və s.) təsərrüfat alətlərinin naxışlanması, qayaüstü rəsmlər (Qobustan, Gəlinqaya, Kəlbəcər) və s. eneolit dövrü üçün səciyyəvi olan hadisələrdən sayılmalıdır.

Azərbaycanda Orta Tunc dövründə (eradan əvvəl II minilliyin birinci yarısı) artıq, ilkin şəhər mədəniyyəti təşəkkül tapmağa başlamışdır. Orta Tunc dövrünün yaşayış məntəqələri əvvəlkilərdən fərqli olaraq daha böyük sahəni əhatə edirdi. Belə ki, məsələn, Üzərliktəpə və Göytəpə yaşayış məskənləri 3 hektara, Çinartəpə 7 hektara yaxın sahəni əhatə edirdi. Naxçıvan zonasında öyrənilmiş yaşayış məskənləri möhtəşəmliyi ilə fərqlənərək Qədim Şərqdəki şəhər dövlətlərini xatırladırdı.[1]

Orta Tunc dövründə ictimai – iqtisadi sahədə baş vermiş dəyişikliklər əhalinin dünyagörüşünə və ətraf aləmə münasibətinə təsir göstərmişdir. Orta

[1] Bax: Azərbaycan tarixi. Bakı, 1994, s.38-39.

Tunc dövrü Azərbaycanda qədim incəsənətin çiçəklənməsi mərhələsidir. Saxsı qabların üzərində çəkilmiş naxışlar qədim rəssamların bədii təfəkkürünü nümayiş etdirir. Qobustanda, Gəlinqaya və Kəlbəcərin qayaüstü rəsmlərində heyvanat aləmi, məişət və ev səhnələri, əyləncə və şamanlığa aid olan magiya təsvir olunmuşdur.[1]

Eradan əvvəl XIX – XVIII əsrləri səciyyələndirən Xocalı – Gədəbəy mədəniyyətinə dair abidələrdə tariximizin mühüm bir mərhələsi yaşayır. Bu mədəniyyət ərazicə Kiçik Qafqaz və Kürün sağ sahil zonasını əhatə edir. Bu dövrü xarakterizə edən mədəniyyət Gəncə – Qarabağ mədəniyyəti kimi də tanınır. Saysız – hesabsız maddi mədəniyyət nümunələri içərisində tuncdan təbərzin və ya yastı baltalar, dəstəyi şəbəkəli, bəzəkli xəncər və qılınclar, yabalar, qaytarğanlı at cilovları, sallaq qanadlı ox və yarpaqşəkilli nizə ucları, kəmərlər, quş fiqurları, saysız – hesabsız bəzək əşyaları daha geniş yayılmışdır.[2]

Azərbaycan ərazisində istehsal alətlərinin artımı, insanların həyat şəraitinin yaxşılaşması, mədəniyyətin inkişafındakı canlanma dövlət quruculuğunun formalaşmasına və onun strukturunun təkmilləşməsinə səbəb olmuşdur.

Azərbaycan ərazisində maddi mədəniyyət abidələrinin zənginliyi qədim dövrlərə məxsus dövlətçilik qurumlarının tarixinin uzaq keçmişlərə aid olduğunu göstərən maddi sübutlardır. Belə abidələrin mövcudluğu, əlbəttə ki, ictimai təfəkkürün formalaşmasına çox böyük təsir göstərir. Onların qorunub gələcək nəsillərə çatdırılması isə Azərbaycanın qədim dövlətçilik qurumları barədəki təsəvvürləri genişləndirir və zənginləşdirir. Azərbayacnın elə bir guşəsi yoxdur ki, orada qədim tariximizin izləri bu və ya digər abidələrdə saxlanmasın. Məsələn, Qobustandakı Böyükdaş, Kiçikdaş, Yazılıtəpə adlı məntəqələrdə qədim tariximizə, mədəniyyətimizə, həyat və məişətimizə aid çox maraqlı nümunələr yaşamaqdadır. Bu uca qayalıqlar üzərində 2 mindən artıq nəsli kəsilmiş heyvan növləri, həmçinin, ən ibtiadi geyim və müxtəlif dini ayin səhnələrini əks etdirən təsvirlər verilmişdir. Həmin təsvirlərin ən qədimləri 3 – 4 min il bundan əvvələ aiddir. Böyükdaş dağı ətəyində aşkar edilən qayaüstü yazılar tariximizin qaranlıq qatlarının işıqlanmasında xüsusi əhəmiyyət daşıyar.

Qazax rayonu ərazisində, «Damcılı bulağı» deyilən yerdə Aveydağın ətəkləri boyu müxtəlif dövrlərə aid olan bürclər, qalalar və s. tarixi abidələr vardır. Burada 100-dən artıq təbii mağara aşkar edilmişdir. Həmin yerdə itiuclu ox ucluqlarının və qədim daş dövrünə (paleolitə) aid əmək alətlərinin qalıqları da tapılmışdır. Naxçıvanda Kültəpə adlanan yerdə mis – daş dövrünə (eneolitə), tunc dövrünə və ilk dəmir

[1] Bax: Azərbaycan tarixi. Bakı, 1994, s.43-44.
[2] Bax: Azərbaycan tarixi. Bakı, 1994, s.44-45.

dövrünə aid əmək alətləri və heyvan fiqurları aşkar edilmişdir.

Xocalı çölündə eradan əvvəl I minilliyin ortalarına qədər davam edən tunc dövrünə aid daş qutu şəklindəki qəbir, saxsı qab, bəzək əşyaları və müxtəlif quş fiqurları tapılmışdır.

Naxçıvan və Şəmkir ərazilərində aşkar edilmiş tunc dövrünə aid olan siklop tikintiləri xüsusi maraq doğurur. Bunlar səngər, hörükdaş və ya qalaça adlandırılır. Göygöl rayonu ərazisində tunc dövrünə aid olan dən daşları, tünc balta – təbərzin, tunc qılınclar, quş şəkilli qanadlı büt, gildən düzəldilmiş çıraqlar və başqa saxsı məmulatları tapılmışdır. Zurnabad kəndində orta əsrlərdən qalma bir qala da aşkar edilmişdir.

Mingəçevirdə V – VI əsrlərə aid olan məbəd tikintiləri, dəmir oraq, toxuculuq dəzgahının hissələri, tunc dövrünə aid küpəşəkilli nəhrə, heykəllər, qızıl və gümüşdən olan bəzək əşyaları və digər məmulatlar tapılmışdır.

Qax rayonunun Ləkit kəndi yaxınlığında dairəvi formalı bir qədim məbədin xarabalıqları qalır. Tikinti VI – VII əsrlərə aiddir. Qum kəndində isə VI əsrə aid olduğu təxmin edilən iki məbədin qalıqları aşkar olunmuşdur. Dərbənd, Gillikçay, Samur çayı və Beşbarmaq dağı yaxınlığında tikilmiş qalalar onları tikinti texnikasına görə V – VII əsrlərə aid etməyə imkan verir. Həmin zonada Çıraxqala adlanan qədim



bir tikintinin yüksək bir qaya üzərində bina edilməsi maraq doğurur.

Yevlax dəmiryolu stansiyasından 20 kilometr məsafədə qədim Bərdənin qalıqları aşkar edilmişdir. Eyni zamanda, tikintisi XIV əsrə aid edilən Bərdə türbəsi saxlanmaqdadır. Beyləqan rayonu ərazisində yerli əhalinin Örənqala adlandırdığı qədim şəhər xarabalarının izləri qalır.

Burada VIII əsrə aid sikkələr tapılmışdır. Ancaq alimlərin dediyinə görə şəhərin tarixi daha qədimlərə gedib çıxır.

Gəncə şəhərindən 6 kilometr şimal – qərbdə köhnə Gəncənin qala divarları, saraylar, daşdan, bişmiş və çiy kərpicdən tikilmiş bina qalıqları vardır. Bu xarabalar XII əsrə aiddir. Gəncədə IX əsrə aid olan Comərd Qəssab türbəsi 2004-cü ildə bərpa edlilmişdir. Eyni zamanda, qədim şəhərin atributlarından olan qala divarları, Nizami Gəncəvinin türbəsi, xalqın mifoloji təfəkkürünü canlandıran «Şir və Günəş» abidəsi, «Ay ulduz» kompleksi, «Gəncənin gerbi», «Gəncə darvazaları»və s. kimi tarixi yadigarlar qurulub gələcək nəsillərin ərməğanına çevrilmişdir. Şamaxıda XIX əsrə aid «Yeddi gümbəz» abidəsi Saxlanmaqdadır.

Naxçıvanda XII əsrə aid Atababa türbəsi (Yusif ibn Qüseyr) Atabəy (Möminəxatun) məqbərəsi öz əzəməti ilə bu günədək qalmaqdadır. «Atabəy» (Möminəxatun) məqbərəsinin hündürlüyü 25 metrdən ar-

tıqdır. Naxçıvandan 37 kilometr şimal – qərbdə hündürlüyü 16 metr olan XIV əsrə aid bir türbə qallmaqdadır.

Bakı şəhərində XI əsrə aid Sınıxqala minarəsi, inşası XII əsrə isnad verilən «Qız qalası» XIV əsrə aid olan minarə və cümə məscidinin binası qalmaqdadır. Qız qalasının hündürlüyü 28 metr, divarların qalınlığı aşağıdan 5 metr, yuxarı hissədə isə 4 metrdir. Həmçinin Bakıda VI əsrə aid Şirvanşahlar sarayı XVI əsrə aid qala divarları Mərdəkanda VIII və XIV əsrə aid qalalar qorunub saxlanılır. Həmçinin, Ramana və Nardaranda XIV əsrə aid qalalar, Suraxanıda XVIII əsrə aid Atəşpərəstlər məbədi qalmaqdadır. Şuşada XVIII əsrə aid qalanın izləri, «Gəncə qapıları», «Xansarayı» abidələri vardır.

Qarqarçayın sahilində XVIII əsrə aid Əskəran qalası, Şəkidə, XVIII əsrə aid Xan Sarayı, həmin dövrə aid Şəkixanovlar evi tariximizin və mədəniyyətimizin yadigarları kimi qalmadadır.

Ağstafadan 40 kilometr aralı Gürcüstan sərhəddində Xram çayı üzərində əsrlərdən bəri qalan «Sınıq körpü» və Azərbaycanın İranla sərhədindəki «Xudafərin körpüsü» kimi tikililər xüsusi maraq doğurur[1]. Azərbaycan ərazisində bundan başqa çoxlu, sayı – hesabı bilinməyən qalalar, qalaçalar qədim dövrlərin

[1] Tarixi abidələrlə bağlı əsas məlumatlar «Azərbaycanın tarixi abidələri» Bakı, Azərbaycan Elmlər Akademiyasının nəşr., 1958, kitabından götürülmüşdür.



yadigarı olan türbə və məqbərələr, körpülər və s. maddi mədəniyyət abidələri vardır. Onların hər biri öz tədqiqatçısını gözləyir. Hər bir abidə tarixin canlı şahidi və yaddaşıdır. Hər bir abidədə azərbaycanlı təfəkkürü, düşüncəsi və dünyagörüşü həkk olunmuşdur.

4) sosial – siyasi hadisələr.

İctimai təfəkkürün formalaşmasında cəmiyyətdəki ictimai – siyasi hadisələrin, inqilab və qarşıdurmaların, həmçinin, dövlətlər arasındakı münaqişələrin də təsiri vardır. Doğrudur, ictimai – siyasi hadisələr, o cümlədən, inqilab və münaqişələr heç də tamamilə cəmiyyətin xeyrinə deyildir. Yəni hər bir münaqişə və çəkişmə, hər bir qarşıdurma və inqilab cəmiyyətdəki ictimai sabitliyinə ziyan vurur. Bunun arxasınca isə müəyyən məhrumiyyətlər, itgi, iqtisadi problemlər və s. gəlir. Lakin eyni zamanda, ictimai şüur da silkələnir, canlanır. Hadisələrin çevikliyi ictimai şüurda da bir fəallaşma yaranmasına səbəb olur. Sanki yatmış hissələr oyanır. Cəmiyyətə yeni bir baxış formalaşır. Azərbaycan cəmiyyətində sosial – siyasi hadisələr tarixən daim intensiv olmuşdur. Məhz bunun nəticəsidir ki, Azərbaycanda ictimai şüurun fəallığı və çevikliyi cəmiyyətdə baş verən sosial – siyasi hadisələrlə həmahəng olaraq inkişaf etmişdir. Azərbaycan cəmiyyətində ictimai şüurun formalaşmasındakı çevikliyin və fəallğın təsiridir ki, ictimai təfəkkürdə zaman – zaman azadlıq, sərbəstlik

və müstəqillik, azad cəmiyyət yaratmaq ideyaları yaşamışdır. Azərbaycan məkanında tarixən baş verən münaqişələrin və digər sosial – siyasi hadisələrin nəticəsində parçalanmaların baş verməsi insanları pərakəndə salmışdır. Zaman – zaman bu pərakəndəlik əhval – ruhiyyələrdə və ictimai baxışlarda yadlaşmalara səbəb olsa da milli xarakterlərdə ictimai təfəkkürlə bağlı təsirlər yaşamaqda davam etmişdir. Bunlar başlıca olaraq, milli – etnik adət – ənənələrdən, əxlaqi – etik normalardan, ən başlıcası isə azadlıq və müstəqillik ideyalarından ibarətdir. Tarixən baş vermiş parçalanmalara, separitzmə məruz qalmış yerlərdə yaşayan əhalinin tərkibinə və sayına baxmayaraq *hansı məkanda ictimai təfəkkür daha çevik olmuşsa, orada ictimai şüur da fəal olmuşdur. Yəni ki, belə məkanda insanların ictimai və milli şüurunu başqa, yad təsirlər, azərbaycançılığa uyğun gəlməyən ideyalar üstələyə bilməmişdir.* Ona görə də məhz ictimai şüurun milli xarakterinin daha güclü, daha canlı olduğu bir məkanda əlverişli tarixi şərait yarandıqda həmin ideyaların həyata keçirilməsi reallaşa bilmişdir. Əlbəttə ki, bundan ötrü təkcə əlverişli tarixi şəraitin özü kifayət etmir. Belə bir şəraitin reallığa çevrilməsi üçün tarixi şəxsiyyət amili mühüm və aparıcı yer tutur. *Şəxsiyyət amili, lider amili ona görə aparıcıdır ki, əvvəla, münbit tarixi şəraitdən istifadə edib xalqı mütəşəkkil etmək lazımdır. Xalqın mütəşəkkiliyi qələbənin astanası*



*deməkdir. Qələbə əldə etdikdən sonra onu saxlamaq və daha sonra cəmiyyəti iqtisadi, siyasi, ideoloji cəhətdən möhkəmləndirmək kimi vacib proseslərin həyata keçirilməsinə çalışmaq başlıca şərtdir.*

Azərbaycanın tarixində cəmiyyətin ictimai şüuruna təsir edən ən mühüm hadisələrdən biri 1828-ci il İran – Rusiya müqaviləsinin nəticəsində ölkənin iki hissəyə bölünməsi olmuşdur. Belə ki, məsələn, tarixlər boyu saysız – hesabsız sosial – siyasi hadisələrlə, üsyan və iğtişaşlarla, qarşıdurma və münaqişələrlə üzləşmiş Azərbaycan cəmiyyətində həmin hadisələrin nəticəsi olaraq azad, müstəqil, suveren bir dövlət yaratmaq ideyası həyata keçirilməmişdir. Mövcud olan dövlətçilik qurumları isə müstəqil sayılsa da onlar cəmiyyətdə milli şüuru formalaşdıra bilməmişlər. Nəticədə hakimiyyətin ideologiyası Azərbaycanın milli marqlarına uyğun gəlməmişdir. Başqa sözlə, belə dövlətçilik qurumları milli Azərbaycan dövlətçiliyinə çevrilə bilməmişdir. Məsələn, Azərbaycan tarixində ən uzun ömürlü olan Səfəvilər dövləti (237 il) milli Azərbaycan dövlətinə çevrilə bilməmişdir. Ona görə də bu dövlətçiliyin adı tarixdə Azərbaycanla yox, sülalə adı ilə (sülalənin banisi Şeyx Səfinin adı ilə) qalmışdır.

1828-ci il hadisələrindən sonra Azərbaycan torpaqlarının bir hissəsi İranın ərazisində qalmışdır. Cənubi Azərbaycanın Təbriz, Xoy, Mərənd, Səlmas, Miyanə, Qəzvin, Maku, Zəncan, Urmiya, Ərdəbil,

Sərab, Xalxal, Marağa, Binab, Astara və s. kimi şəhərləri və digər iri yaşayış məskənləri ictimai – siyasi hadisələrin meydanına çevrilmişdir. Bütün bunlar isə Cənubi Azərbaycanda ictimai şüuru çevikləşdirmiş və fəallaşdırmışdır. Nəticə bu oldu ki, XIX əsrin sonlarında Cənubi Azərbaycanda imperializmə qarşı xalq kütlələrinin geniş çıxışları başlandı. Bu mübarizə 1890-cı illərdən Nəsrəddin şahın ölkədə yaratığı ictimai ədalətsizliyə qarşı baş qaldırmışdır. Xalq arasında ictimai – siyasi və milli şüurun oyanması çox böyük əhəmiyyət kəsb edirdi. Nəhayət, 1905-ci ildə Cənubi Azərbaycanda «Məşrutə inqilabı» (konstitusiyalı demokratik təsisat) baş verdi. Həmin dövrdə Cənubi Azərbaycanda İranın başqa rayonlarına nisbətən sosial ziddiyyətlər və siyasi vəziyyət daha gərgin idi. Xalq ədalətli quruluş yaradılmasını tələb edirdi. Hərəkatın başında «Sərdari milli» (millətin başçısı) adlandırılan Səttar xan, «Salari milli» (millətin sərkərdəsi) adlandırılan Bağır xan dururdu. Lakin bu hərəkat yatırıldı və «Məşrutə inqilabına» son qoyuldu. Bununla belə, bu dövrdə həyata keçirilən repressiyalar xalqın ictimai şüurunun oyanışına əks təsir göstərə bilmədi. 1917-ci il fevralın 27-də Rusiyada qalib gəlmiş burjua – demokratik inqilabı Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkata da öz təsirini göstərdi. Cənubi Azərbaycanda əhalinin çıxışlarına İran Demokratik Partiyasının (İDP) əyalət komitəsi istiqamət verirdi.



Əyalət komsitəsinin rəhbəri Şeyx Məhəmməd Xiyabani idi. 1917-ci il aprelin 9-da İDP əyalət komitəsinin orqanı «Təcəddüd» («Yeniləşmə») qəzeti çap olunmağa başladı. 1917-ci il avqustun 24-də Təbrizdə İDP-nin Azərbaycan əyalət komitəsinin konfransında Azərbaycan Demokratik Firqəsi (ADF) müstəqil elan olundu. ADF-nin Mrəkəzi Komitəsi və onun rəhbəri Şeyx Məhəmməd Xiyabani seçildi. 1918-ci ilin fevralında ADF-nin Bakı təşkilatı yarandı. Bu təşkilat Cənubi Azərbaycan əhalisini azadlıq mübarizəsinə çağıran «Azərbaycan» qəzetini nəşr etdi. 1920-ci il aprelin 7-də ADF silahlı üsyan planı hazırladı. Üsyan baş tutdu və qələbə ilə nəticələndi. 1920-ci il iyunun 23-də mvəqqəti icra hakimiyyəti orqanı əsasında Milli hökumət yaradıldı. Azərbaycan «Azadistan» adlandırıldı. Xiyabani sədr seçildi.

1920-ci il sentyarbrın 12-də əksinqilabi qüvvələr Təbrizə hücum etdi. Əksinqilabçılar sentyabrın 14-də «Təcəddüd» qəzetinin readksiyasını dağıtdılar. Xiyabani vəhşicəsinə öldürüldü. Üsyan yatırlıd. Demokratlar 5 ay hakimiyyətdə oldular.[1] Bu Azərbaycan xalqının ictimai ədalətsizliyə, özbaşınalığa, daxili irticaya qarşı qəzəb və nifrətinin sonu deyildi. Şimali Azərbaycanda da həmin dövrlər ərzində azadlıq və müsətəqillik uğrunda mübarizə gedirdi.

[1] Məlumatlar Azərbaycan tarixi. («Müəllim» nəşriyyatı, Bakı, 2005) adlı kitabdan götürülmüşdür. Bax: səh. 256-260.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın dövlət müstəqilliyi elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cümhuriyyətin fəaliyyəti Milli Şura tərəfindən tənzim edilirdi. Milli Şuranın sədri Məmməd Əmin Rəsulzadə idi. 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və Müvəqqəti hökumət Gəncəyə köçdü. Sentyabrın 17-də Azərbaycan Milli hökuməti Bakıda qərarlaşdı. 1920-ci il aprelin 28-də bolşevik Rusiyası tərəfindən Azərbaycanın dövlət müstəqilliyinə son qoyuldu. Azərbaycan Demokratik Cümhuriyyətinin süqutu ilə əlaqədar müxtəlif mülahizələr irəli sürülsə də ən başlıca səbəb o idi ki, hökumətdə və parlamentdə sabitlik yox idi. Hökumət rəhbərləri idarəçilikdə, siyasətdə və diplomatiyada təcrübəli deyildilər. Xalqda milli birlik və mütəşəkkillik yaratmaq mümkün olmamışdı. Ən başlıcası isə milli lider yox idi. Zamanı öz arxasınca aparmağa qadir olan tarixi bir şəxsiyyətə cəmiyyətin daha çox ehtiyacı var idi. Lakin bu hadisələr tarixdə təcrübə idi. Sonrakı hadisələr üçün ibrət dərsinə çevrilmişdi. Buna görə də həm Cənubi Azərbaycanda, həm də Şimali Azərbaycanda milli azadlıq hərəkatı öz məqamında təsirini göstərə biləcək potensial bir qüvvəyə çevrildi. Belə ki, 1941 – 1945-ci illərdə Cənubi Azərbaycanda yenidən demokratik hərəkat baş qaldırdı. Bu dövrdə ölkədəki ictimai ədalətsizliklər Azərbaycan dilində nəşr olunan qəzet və jurnallarda əks olunmağa başlamışdı.



Bununla da demokratik hərəkatın birinci mərhələsi başlandı.

Cənubi Azərbaycanda Demokratik hərəkatın ikinci mərhələsi isə 1945-ci ilin iyun – sentyabr aylarından başlandı. Sentyabrın 3-də Seyid Cəfər Pişəvəri Azərbaycan Demokratik Partiyasının yaranması barədə bəyanat verdi. 1945-ci il «21 Azər» (12 dekabr) günü Milli Məclis işə başladı. Seyid Cəfər Pişəvərinin başçılığı ilə Milli hökumət yaradıldı. Milli dirçəliş faktı olan bu hadisə Azərbaycan xalqının tarixinə «21 Azər hərəkatı» kimi daxil oldu. 1946-cı il dekabrın 12-də İranın hökumət qoşunları Təbrizə daxil oldu. Milli hökumətin fəaliyyətinə son qoyuldu. Stalin Pişəvəriyə tövsiyə edirdi ki, İranın mərkəzi hökumətinə güzəştə getsin. Demokratik hərəkatın bir çox üzvləri məhv edildi. Bir qismi isə Şimali Azərbaycana (Azərbaycanı SSR-ə) keçdi. Seyid Cəfər Pişəvəri isə Azərbaycanda Bakı – Gəncə yolunda müəmmalı şəkildə törədilmiş avtomobil qəzasında həlak oldu. Bütün bunlar əlbəttə ki, xalqın azadlıq və müstəqillik ideyalarının məhv olması demək deyildi. Xalqın daxilindəki bu istək nə zamansa həyati reallığa çevrilib öz bəhrələrini verməli idi. Tarix sübut etdi ki, bu doğrudan da belədir. Belə də oldu. 1990-ci ildə SSRİ dövləti süquta uğradı. Azərbaycan 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini elan etdi. Ancaq həmin

dövrdə müsətqilliyi əldə saxlamaq çox çətin idi. Ölkədə daxili bir nizamsızlıq var idi.

1991-ci il sentyabrın 14-də Ayaz Mütəlibov Azərbaycan Respublikasının prezidenti seçilmişdi. Ölkə səriştəsiz rəhbərlərin əlində sanki bir oyuncağa çevrilmişdi. 1992-ci il ilin yanvarında Dağlıq Qarabağın Kərkicahan, fevral ayında isə Malıbəyli və Quşçular kəndləri erməni separatçıları tərəfindən tutuldu. 1992-ci il fevralın 25 – 26-da Rusiyaya məxsus 366-cı motoatıcı alayın iştirakı ilə Xocalı zəbt olundu. 1992-ci il martın 6-da Ayaz Mütəlibov istefa verdi. Mayın 18-də AXC – Musavat cütlüyü hakimiyyəti qəsb etdi. Lakin bu hakimiyyətin ömrü çox olmadı. Hakimiyyət kreslolarının sahibləri milli mənafe əvəzinə öz şəxsi mənafelərinə üstünlük verirdilər. Ölkə xaos içərisində idi. Hakimiyyətdə liderlik edənlər var idi. Ancaq onların içərisində milli lider olmağa qadir bir rəhbər yox idi. Bunun nəticəsi idi ki, 1992-ci il mayın 7 – 8-də Şuşa, mayın 17-də isə Laçın ermənilər tərəfindən ələ keçirildi. 1993-cü il aprelin 3-də Kəlbəcər tutuldu. Bu hadisələr cəmiyyəti mənəvi və psixoloji iflasa aparırdı. Xalq isə öz xilaskarına – Heydər Əliyevə üz tutdu. 1993-cü il iyunun 15-də Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıtdı. Bu zaman qarşıda bir məqsəd dururdu. Qazanılmış müstəqilliyi qoruyub saxlamaq! Bunun üçün ictimai – siyasi sabitliyin yaranması vacib idi. Lakin ölkədə AXC – Müsavat cütlüyünün



törətdiyi əməllər bu işə ciddi əngəl yaradırdı. Ermənistan isə bundan istifadə edib hücumlarını genişləndirirdi. 1993-cü il iyulun 12-də Ağdərə, 23-də Ağdam, avqustun 21-də Füzuli, avqustun 23-də Cəbrayıl, avqustun 31-də Qubadlı, oktyabrın 2 – 7-də Zəngilan rayonu işğal edildi.

Bütün bunlardan əlavə, ölkədə daxili separatçılıq meylləri də baş qaldırmışdı. 1993-cü ilin avqust ayında Əlikram Hümbətov 7 cənub rayonu əsasmda quraşdırma «Talış Muğan Respublikası» yarandığını elan etdi.

Şimal – Qərb regionunda «Ləzgistan dövləti» yaradılması meylləri baş qaldırdı. 1993-cü il iyulun 4-də Gəncədə qiyamçılar dəstəsi peyda oldu. Ölkə belə bir xaos içərisində boğulurdu. Lakin ümummilli lider Heydər Əliyevin gərgin əməyi, çox ciddi səyləri və siyasi uzaqgörənliyi sayəsində 1994-cü il mayın 12-də atəşkəs əldə edildi. Müstəqillik əldə edildikdən sonra ölkədə ən vacib olan birinci şərt yerinə yetirlidi. Müstəqillik çətinliklər bahasına qorunub saxlanıldı. Bundan sonra isə ölkənin iqtisadi dirçəlişini təmin etmək vəzifəsi qarşıda dururdu. 1994-cü il sentyabrın 20-də böyük neft strategiyası həyata keçirildi. «Əsrin müqaviləsi» adlı 30 illik bir saziş baş tutdu. 1999-cu ildə «Bakı Ceyhan» əsas ixrac Neft kəməri haqqında saziş imzalandı. 2000-ci ildən ölkədə baş verən iqtisadi dirçəliş dinamik inkişaf mərhələsinin başlanğıcı daxil oldu. 2004-cü

ildən isə sənaye istehsalanın artımı ölkədə sürətli iqtisadi inkişafın təməlini yaratdı.

Beləliklə, Azərbaycanda yeni bir həyat başlandı. Əsrlərlə arzuya çevrilmiş azadlıq, müstəqillik ideyaları əsrlərin ən böyük dahisi Ümummilli lider Heydər Əliyevin gərgin zəhməti, böyük səyləri, siyasi və diplomatik məharəti sayəsində həyata keçirilərək öz bəhrələrini verməyə başladı.



## İKİNCİ BÖLMƏ

### *Milli – mənəvi dəyərlər*

Azərbaycançılıq ideyalarının formalaşmasında milli – mənəvi dəyərlərin çox mühüm rolu vardır. Ümummilli lider Heydər Əliyev milli mənəvi dəyərləri milli ideologiyamızın ikinci hissəsi kimi qiymətləndirir: «Milli ideologiyamızın ikinci hissəsi bizim milli – mənəvi dəyərlərimizdir. Biz öz milli – mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli – mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli – mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli – mənəvi dəyərləriminin ən əsası bizim müqəddəs kitabımız «Qurani – şərif»də öz əksini tapıbdır. Ancaq bununla yanaşı Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli – mənəvi dəyərlərini yaradıblar. Bu bizim adət – ənənələrimizdir. Bu bizim milli əxlaqi metalitetimizdir. Bu bizim bütün başqa mənəvi dəyərlərimizdir. Bunların hamısı ilə biz fəxr etməliyik. Milli – mənəvi dəyərlərimiz bizim ana

dilimizdir, Azərbaycan dilidir, bizim dinimizdir. Bizim adət – ənənələrimizdir».[1]

Müasir beynəlxalq inteqrasiya şəraitində milli – mənəvi dəyərlər təkcə öz hüdudları daxilində inkişaf edib zənginləşə bilməz. Milli – mənəvi dəyərlərin inkişaf etməsi və zənginləşməsi üçün müasirləşmə ən başlıca şərtdir. Milli – mənəvi dəyərlərin müasirləşməsi onun bəşəri ideyalarla qovuşması sayəsində mümkündür. Milli – mənvi dəyərlərin müasirləşməsi insanların şüuruna təsir edərək onları etik, əxlaqi cəhətdən, həmçinin, bəşəri ideyaların mənimsənilməsi cəhətdən kamilləşdirir. Ümummilli liderimiz Heydər Əliyev milli – mənəvi dəyərlərimizin ümumbəşəri ideyalara inteqrasiyası barədə bəhs edərkən göstərir: «Bizim milli ideologiyamızın bir şaxəsi, bir qolu da ümumbəşəri dəyərlərdir. Ümumbəşəri dəyərlər Azərbaycan xalqı tərəfindən bir çox illərdir, əsrlərdir ki, qavranıbdır, qəbul olunubdur. Öz milli – mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq».

Milli – mənəvi dəyərlərimizi, başlıca olaraq, aşağıdakı kimi səciyyələndirmək mümükündür.

1) ana dili

---

[1] Bax: Heydər Əliyev. Yeni Azərbaycan Partiyasının yaradılmasının altıncı ildönümünə həsr olunmuş təntənəsi yığıncaqdakı nitqi. «Xalq qəzeti», 24 noyabr , 1998.



Azərbaycançılıq haqqında bəhs edərkən ana dili məsələsinə xüsusi bir diqqətlə yanaşmaq lazımdır. Ana dili hər bir xalqın, millətin varlığını təyin edən ən başlıca atributlardan biridir. Ana dili sadəcə informasiya vasitəsi kimi qəbul edilməməlidir. Ana dili xalqın min illərdən bəri yaratdığı milli – mənəvi sərvətlərin daşıyıcısıdır. Azərbaycan xalqının dünya-görüşündə, elmi və bədii təfəkküründə yaradılan nə varsa sonrakı nəsillərə ana dili vasitəsi ilə çatdırılır. Ona görə də ana dilini sevmək, onu qorumaq, dilin normalarına riayət etmək hər bir vətəndaşın borcudur. Dilin normaları gözlənilmirsə sonrakı nəsillər üçün onun anlaşıqlılıq səviyyəsi azalır. Deməli, bu gün biz ana dilini qorumuruqsa gələcək nəsilləri milli – mənəvi sərvətlərimizdən məhrum etmiş oluruq. Heydər Əliyev göstərir ki, «Gərək hər bir vətəndaş öz vətəninə görə, öz millətinə görə, öz xalqına görə, öz ana dilinə görə qürur hissi keçirsin, azərbaycanlı olması ilə fəxr etsin. Hər bir azərbaycanlı rus dilini, ingilis dilini, başqa dilləri mükəmməl bilərək onlardan istifadə edirsə öz doğma Azərbaycan dilinə diqqətini və hörmətini azaltmamalıdır».[1]

Dil elə ictimai varlıqdır ki, onun qorunması, norma sabitliyinin saxlanması və zənginləşməsi bilavasitə dövlətçiliklə bağlıdır. Dövlətçilik dilin dayağıdır. Dövlətçilik olmadıqda dilin özünün

---

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

mənəvi bir sərvət kimi qorunması, dil normalarının sabitliyinin saxlanılması heç kəsdə məsuliyyət hissi yaratmır. Dil strukturunun zənginləşməsindən isə söhbət açmaq mümkün olmur. Odur ki, dildən necə gəldi istifadə edilir, nəticədə ərazilər üzrə çoxlu nitq fərqləri (dialektizmlər) yaranır. Dilə çoxlu ixtiyari sözlər daxil olur. Böyük mütəfəkkirlər, söz ustadları, alimlər öz əsərlərini ana dilində yox, dövrün daha nüfuzlu sayılan başqa bir dilində yazmağa səy göstərirlər. Belə olduqda, əvvəla, ana dili sonrakı nəsillər üçün öz anlaşıqlığını azaltmış olur, ikincisi isə azərbaycanlı mütəfəkkirlərin yaradıcılığı başqa xalqların adına çıxılır. Həmin əsərlər ana dilini bədii, estetik, elmi cəhətdən zənginləşdirmək əvəzinə başqa dillərin inkişafına xidmət göstərməli olur. Azərbaycanın tarixində belə hallara yol verilməsi mövcud olmuşdur. Bu dil, hətta, sovet imperiyası dövründə öz məkanında ikinci bir dil kimi işlədilməyə də məruz qalmışdı. Ancaq ümummilli liderimiz Heydər Əliyevin böyük səyləri nəticəsində 1978-ci il Azərbaycan konstitusiyasında ana dilimiz dövlət dili kimi təsbit olunmuşdu. Azərbaycanda müstəqil dövlətçiliyin yaradılması ana dilimizin tətbiqinə, onun yazılı və şifahı normalarının yaxınlaşmasına, dilin məna potensialının daxili imkanlar hesabına zənginləşməsinə münbit bir şərait yaratdı. Ana dilinin qorunması, tətbiqi və onun təkmilləşməsi barədə Heydər Əliyevin fəaliyyəti tarixi bir hadisə



kimi qiymətləndirilməlidir. Heydər Əliyevin Respublika hakimiyyətində olmadığı vaxtlarda ana dilimiz barədə çox məsuliyyətsiz qərarlar verilirdi. İş hətta o yerə gəlmişdi ki, dilin özünün adı da sıradan çıxarılmışdı. Belə ki, 1992-ci il dekabrın 22-də AXC – Müsavat cütlüyü tərəfindən idarə edilən o zamankı Azərbaycan Milli Məclisi ana dili barədə yanlış bir qərar qəbul etmişdi. Bu qərara görə Azərbaycan Respublikasının dili türk dili elan olunmuşdu. Təkcə bunu nəzərə aldıqda ki, Azərbaycan dili ilə türk dili arasında norma baxımından çoxlu fərqlər vardır, onda həmin qərarın necə məsuliyyətsizlik olduğu bir daha aydınlaşar.

Heydər Əliyev 1995-ci ildə bu məsələ ilə əlaqdar müzakirələr keçirdi. Ana dilinin öz adı yenidən özünə qaytarıldı. 2001-ci il iyunun 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi barədə möhtəşəm bir fərman imzaladı. 2001-ci il iyulun 4-də isə ana dilinin tətbiqi məsələlərinin həyata keçirilməsinin təmin olunması məqsədi ilə Dövlət Dil Komissiyası yaradıldı. Respublika Prezidentinin 9 avqust 2001-ci il tarixli fərmanı ilə avqustun 1-i ana dili və əlifba günü kimi təsis edildi. Dövlət dilinin tətbiqi işinin əməli şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə 30 sentyabr 2001-ci ildə Respublika Prezidentinin təsdiq etdiyi «Azərbaycan Respublikasında Dövlət dili haqqında»

Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. Həmçinin, «Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə» 2003-cü il yanvarın 2-də Azərbaycan Respublikası Prezidentinin fərmanı verilmişdir.

Bu gün Azərbaycan dili müstəqil bir dövlətin dili kimi geniş tətbiq imkanlarına malikdir. Azərbaycanın milli mədəniyyət nümunələri, ölkənin sosial – iqtisadi nailiyyətləri, Respublikamızda baş verən yeniliklər beynəlxalq aləmə məhz ana dilində yayılır. Ana dilinin tətbiqi imkanları ilə rəsmi üslub zənginləşir. Rəsmi üslub bazasında ana dilinin yeni siyasət və diplomatiya üslubları formalaşır. Ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici ölkədə Azərbaycan dilindəki çıxışları dövlət dilimizin siyasət və diplomatiya üslublarının təməlidir. Azərbaycan dilində bu dilin öz potensialı əsasında hərbi üslub yaranır. Müasir dövrdə dilin ən başlıca problemi yazılı və şifahi nitqi bir – birinə yaxınlaşdıran normaların tətbiqindən və sabitləşdirilməsindən ibarətdir. Norma sabitliyi həm dilin Azərbaycan məkanından kənarda öyrənilərək istifadə olunmasını, həm də zamandan – zamana verilən informasiyaların qəbul edilməsini asanlaşdırır. Azərbaycan barədə beynəlxalq aləmdə doğru informasiyaların verilməsi ən başlıca cəhətlərdən biridir. Azərbaycanda müstəqil



dövlətçilik öz bəhrələrini verdikcə dilin öz məkanından kənarda öyrənilməsinə maraq artır. Bu isə Azərbaycana aid düzgün informasiyaların məhz bu dilin vasitəsi ilə alınmasına münbit şərait yaradır.

2) dini təəsübkeşlik

Azərbaycanda ictimai şüurun formalaşması prosesində, xüsusilə, əxlaqi – etik normaların zənginləşməsində dinin müəyyən rolu olmuşdur. Heydər Əliyev milli ideologiya haqqında bəhs edərkən dinlə əlaqədar fikirlərini belə ifadə edir: «Biz müstəqillik əldə edəndən sonra islam dinini özümüzə qaytardıq. Yəni bu din insanların qəlbində həmişə yaşayırdı, ancaq rəsmi deyildi. Bu, rəsmi qayıtdı, bərpa olundu. Şübhəsiz ki, müqəddəs kitabımızda, «Qurani-şərif»də böyük əxlaqi normalar əks olunubdur. Onlardan səmərəli istifadə etmək lazımdır».[1]

Dindən səmərəli istifadə etmək belə başa düşülür ki, bu dinə etiqad göstərən hər bir kəs onun qanunlarına, etik–əxlaqi normalarına hörmətlə yanaşmalıdır. Şərt onda deyildir ki, hər bir vətəndaş hökmən Quranı təhlil etməyi bacarmalıdır. Ancaq hər kəsin borcudur ki, dini ayinlərə hörmətlə yanaşsın, fanatizmə meyl göstərməsin. Dini dünyagörüş, şəriət qaydaları əsrlərlə insanların ictimai şüurunda özünə yer tapmış olduğu üçün qeyri

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

– ənənvi dinlərə və ya təriqətlərə meyl göstərilməsin. İbadət yerlərinə, müqəddəs sayılan şəxsiyyətlərə və ziyarətgahlara ehtiram göstərilsin. Heydər Əliyev bütün bunları ümumiləşdirərkən öz fikrini cəmiyyətdə aydın dəlillərlə çatdırır: «Biz imkan verməməliyik ki, dini bəzi şəxsi məqsədlər üçün istismar etsinlər. Buna imkan verməməliyik. Dinin ondan öz məqsədləri üçün istifadə etmək istəyən ayrı – ayrı adamların əlinə keçməsinə imkan verilməməlidir. Din həqiqi din xadimləri tərəfindən istifadə və tətbiq olunmalıdır. Burada da bizim görəcəyimiz işlər çoxdur və biz dini təbliğ edərkən müqəddəs islam dininin əxlaq normalarını ölkəmizdə vətəndaşların arasında geniş yayarkən, eyni zamanda, fanatizmə yol verməməliyik. Fundamentalizm, Fanatizm heç də müqəddəs kitabımızın mənası deyil. Bu sonradan yenə də dindən istifadə edib öz siyasi məqsədlərinə nail olmaq üçün, yaxud da ki, öz dövlət işlərini qurmaq üçün yaranmış ayrı – ayrı istiqamətlərdir. Biz, Azərbaycanda buna yol verməməliyik».[1]

Nəzərə almaq lazımdır ki, müasir dövrdə senzurasız ədəbiyyatın yayılması imkanlarından istifadə edən şəxslər və ya təşkilatlar islam dinini təbliğ etmək üçün saysız – hesabsız ünvanı, nəşr yeri, bəzən də müəllifi bilinməyən kitablar və kitabçılar çap etdirirlər. Bunların bir çoxu insanları haqqa,

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.



ədalətə, mənəvi kamilliyə dəvət etmək əvəzinə onlarda küskün, bədbin əhval – ruhiyyə yaratmağa meyllidir. Ona görə də xüsusən gənclər arasında azərbaycançılıq şüuru bazasında maarifləndirmə işi aparılmalıdır. Heydər Əliyevin tövsiyə etdiyi kimi, gənclər dünyaya ayıq gözlə baxmalı, təşəbbüskar olmalı, həyati çətinliklərdən çıxış yollarını axtarıb tapmağa daim səy göstərməlidirlər.[1]

İslam dininə aid həqiqətlər isə birbaşa müqəddəs Quranda öz təsdiqini tapmışdır. Quran ilahi bir kitab kimi özündə üçölçülü məntiqin məhdətinin təcəssüm etdirir.

***Zahiri məntiq*** – oxunanların başa düşülməsinə və onlara riayət olunmasına xidmət edir. Zahiri məntiq ayinlərin düzgün, dəyişdirilmədən öz norması hüdudunda yerinə yetirilməsini şərtləndirir.

***Batini məntiq*** – dünya və axirət, bədən və ruh, işıq və qaranlıq, görünən və görünməyən kimi əksliklərin qarşılıqlı vəhdətidir. Batini məntiq bəşəriyyətin böyük kəşflərə nail olunmasının irfan qapısıdır.

***Bəşəri məntiq*** – cəmiyyət həyatında əxlaqi-etik münasibətlərin, insanların hüquq və azadlıqlarının təminatçısıdır. Bəşəri məntiq bütün əsrlər boyu cəmiyyətdə vacib olan həyat və məişət normalarının məcmusudur.

[1] Bax: Heydər Əliyev. Fəal həyat mövqeyinin formalaşdırılması, mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Bakı, 1979, s.15.

Quran həqiqətlərindən kənarda deyilənlər isə əlbəttə ki, insanların doğru yoldan uzaqlaşmasına səbəb olan meyllərdir. Odur ki, dini dünyagörüşə yiyələndikdə həqiqət yolunu tutmaq ən vacib məsələ kimi diqqəti gələb etməlidir.

3) əxlaqi və etik normalar

Azərbaycan xalqına məxsus əxlaqi və etik normalar azərbaycanlı milli şüurunun tarixən formalaşmış tərkib hissəsindən ibarətdir. Hər bir xalqın əxlaqi və etik normalarında özünə məxsus millilik vardır. Azərbaycan xalqına məxsus əxlaqi – etik normaların milliliyi ailə və cəmiyyətə münasibətdə formalaşmışdır. Azərbaycanlı ailələr üçün səciyyəvi olan əxlaqi və etik keyfiyyətlərin ən başlıcası budur ki, burada ailə başçısının mövqeyi əsas tutulur. Bu mövqe məcburi qəbul edilmir, ictimai psixologiyada ənəviliyə əsaslanır. Eyni zamanda, ailədə hər hansı bir problem ailənin bir başçısı tərəfindən təkbaşına həll edilmir. Ailədə vacib problemlər kişi və qadın tərəfindən məsləhət olunmuş qaydada həll edilir. Kişi və qadın tərəfindən əldə edilən ailə mənfəətində ayrıseçkilik olmur. Ailə üzvləri bir – birini eşidir. Ailə üzvləri arasında mehribançılıq yaranır. Bununla da ailə etikası, ailə tərbiyəsi formalaşır. Ailədə uşaqlar bu etik normaları qəbul etdikdə ailə tərbiyə baxımından nümunəvi sayılır. Belə ailələrin bünövrəsi sədaqətliliklə və bir – birinə inamla möhkəmlənmiş olur. Ailədə belə münasibət olmadıqda isə normal



tərbiyədən söhbət gedə bilməz. Belə ailələrdə fəsadların baş qaldırması istisna deyildir. Nümunəvi ailələr isə cəmiyyətin bütövləşməsində, ictimai birlik və ictimai həmrəylik yaranmasında aparıcı yer tutur.

Heydər Əliyev göstərir ki, «Hər xalqın öz mentaliteti, əxlaqi qaydaları vardır. Bizdə nə qədər gözəl əxlaqi qaydalar var. İndi onları nəyəsə başqa şeylərə qurban vermək olmaz. Məsələn, bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin öz övladlarına olan qayğısı və məhəbbəti. Bu, bizim xalqımızın mentalitetidir və biz bununla fəxr etməliyik».[1]

Azərbaycanlı ailələrində qonaqpərvərlik də ictimai psixologiyada özünə möhkəm yer tapmış etiketlərdəndir. Təsadüfi deyildir ki, qapını döyüb «Allah qonağıyam», - deyənə «Allaha da qurban olum, qonağına da», - demişlər.

Ümumiyyətlə, *Azərbaycan cəmiyyəti üçün əsas olan keyfiyyətlər ictimai psixologiyada formalaşaraq ailədən cəmiyyətə, cəmiyyətdən də ailəyə keçərək möhkəmlənir.* Azərbaycan cəmiyyətində formalaşan və nəsildən – nəslə keçib ənənə şəklini alan əxlaqi – etik normalar, başlıca olaraq, aşağıdakı kimi ümuiləşdirilə bilər:

---

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

1) qonaqpərvərlik, əliaçıqlıq, səxavətlilik

2) bir – birinə hörmət, ehtiram və qarşılıqlı humanist münasibət

3) sözünə bütövlük, öz şəxsiyyətinə hörmət, qarşısındakına ehtiram

4) böyüyə hörmət, kiçiyə ehtiram

5) qarşılaşdıqda salamlaşmaqla ehtiram göstərmək

6) qadınlarda ailələrinə sədaqətlilik, uşaqlara məhəbbət

7) kişilərdə mərdlik və dözümlülük

8) lazım gəldikdə güzəştə getmək alicənablığı

9) dostluqda sədaqətlilik, qohumluqda dəyanətlilik

10) kişisi olmayan evə daxil olmamaq

11) vətənə, torpağa, doğulduğu məkana bağlılıq

12) böyük şəxsiyyətləri ilə fəxr etmək, onların xatirəsini və ehtiramını əziz tutmaq

13) qadınlarda abır, həya, ismətin qorunub saxlanması

14) kişilərdə qadınlara qarşı ləyaqətlilik

15) kişilərin qadın yanında, qadınların kişi yanında əxlaqi – etik normalara müvafiq davranması

16) müasir mərhələdə bəşəri ideyaların ən yaxşı ənənələrinin öz əxlaqi – etik normalarımıza tətbiq olunması



Azərbaycan cəmiyyətində formalaşmış əxlaqi və etik normalar başlıca olaraq xalqın özünün ictimai psixologiyası ilə bağlıdır. Xalqımıza məxsus əxliqi – etik normaların müəyyən qismi isə islamın müqəddəs kitabı olan «Qurani - Kərim»ə əsaslanır.

4) adət – ənənələr

Azərbaycançılıq milli şüuru xalqın qədimdən bəri gələn adət – ənənələrində xüsusilə qabarıq şəkildə əks olunur.Azərbaycan xalqına məxsus adət – ənənələr ictimai xarakter daşıyır. Belə ki, *Azərbaycan adət – ənənələri cəmiyyətdə formalaşıb cəmiyyətə xidmət edir və cəmiyyət həyatında da yaşamaqda davam edir.* Adət – ənənələr cəmiyyətdə varislik prinsipi üzrə yaranır, formalaşır, zənginləşir və yaşayır. Heydər Əliyev göstərir ki, «Azərbaycan xalqı tarix boyu nə qədər əziyyətlər çəkibdir. Anacq dilini də, dinini də adət – ənənələrini də öz mənəvi – əxlaqi mentalitetini də saxlayıbdır».[1]

Azərbaycan xalqına məxsus adət – ənənələrin bir çoxu ən qədim dövrlərdən bu günümüzə gəlib çatmışdır. Bəzi adətlər isə unudulub, öz ənənəsini itirmişdir. Lakin onların əvəzinə ictimai dünyagörüşlə bağlı olan başqa adətlər yaranaraq ənənə şəklinə düşmüşdür. Məsələn, Azərbaycan xalqında ta qədimdən qalan adət – ənənələrin timsalında qonaqpərvərlik (qonaq qəbul etmək, yola salmaq), dostluq (şəxsi

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

münasibətlər əsasına yaranan və ya ailə münasibətləri üzərində qurulan dostluq), qohumluq (qohumluğa görə münasibətlərin davm etdirilməsi), müəyyən ailə mərasimlərin davam etdirilməsi (məsələn, ailə qurmaq mərasimi, elçi getmək, nişan aparmaq, toy etmək, gəlin gətirmək, toydan sonrakı mərasimlər, uşaq anadan olanda adqoydu keçirmək və s.); bayramlarla bağlı mərasimlərin keçirilməsi (yaz bayramında yumurta boyamaq, qapı pusmaq, od yandırmaq, bayram süfrəsi açmaq, kosa – keçəl oyunlarını təşkil etmək, bəxt sınamaq və s.) bu gün də yaşayır. Yaz bayramının təmtəraqlı keçirilməsi il boyunun şadlıqla, firavanlıqla, xoşbəxtliklə keçirilməsinin rəmzi əlamətidir.

Azərbaycan xalqı üçün səciyyəvi olan bəzi adət və ənənələr də vardır ki, onların formalaşması islam dini ilə bağlıdır. Məsələn, ölünün dəfni qaydaları, ölənə yas mərsaimlərinin saxlanması, cümə axşamı günlərinin qeyd olunması, müqəddəs sayılan yerlərin ziyarət edilməsi və s. islam dini ilə əlaqədar yaranaraq formalaşmışdır.

Bəzi adət və ənənələr isə artıq unudulmuşdur. Ancaq onların izləri bu və ya digər sözlərdə qallmışdır. Məsələn, ölən şəxsin dəfni haqqında bəzən «quyulanmaq» sözü işlədilir. Bu o deməkdir ki, nə vaxtsa öləni indiki kimi dəfn etməyib quyuya salırlarmış. Yaxud bəzən kiminsə haqqında «canı yanmış», «tünbətün olmuş», «canımı oda salmaq»,



«atasına od vurmaq» kimi ifadələrin də işlədilməsinə təsadüf edilir. Bu o deməkdir ki, nə zamanca ölənin yandırılma mərasimi bizim cəmiyyətdə də mövcud olumuşdur. Lakin islamdan sonra bu adətlər aradan çıxmışdır. Onun dildə yaşayan izləri isə hansı adətlərin sonralar ictimai normalardan uzaqlaşdığını göstərir. Bəzən dildə «daşı atılmış», «daşqalaq olunmuş», «külü təpəsinə qoyum», «gözünə kül olmuş» və s. kimi ifadələr də işlədilir. Bu o deməkdir ki, nə zamansa ya ölənin arxasınca daş atmaq adəti olmuşdur, ya günah işləmiş adamı daş – qalaq yolu ilə öz cəzasına çatdırmışlar, yaxud başına və ya gözünə kül qoymuşlar. Ancaq bu adətlər unudulmuşdur. Adət – ənənə ictimai xarakter daşıdığı üçün bu gün bəşəri adətlərdən istifadə məişətdə özünə geniş yer tapmışdır. Məsələn, toy mərasimlərindəki bir çox adətlər unudulmuşdur. Toyda «bəy tərifi», «gəlin atdandı», toy zaman təşkil edilən yarışlar və s. yaddan çıxıb. Toyda bəylə gəlinin bir məclisdə oturması, hamının birlikdə rəqsə dəvət olunması, toyun xüsusi aparıcılarının olması və s. yeni adətlərdəndir. Yaxud, qadınlar bayramının, sevgililər bayramının keçirilməsi yeni adətlər sırasına daxildir. Milli xarakterli adətlərin içərisində yerli (lokal) adətlər də vardır ki, belə adətlərdə hər hansı regiona məxsus ənənələr təcəssüm olunur. Bütövlükdə isə bunların hamısı Azərbaycan adət – ənənələrinin tərkib hisslərini təşkil edir.

Adət və ənənələrin, bayramların, mərasimlərin ictimai xarakteri onların kütləviliyi ilə səciyyələnir. Cəmiyyət həyatındakı kütləviləşmə isə ictimai həmrəliyin, mənəvi-psixoloji birliyin və vəhdətin təməlidir.

5) ümumbəşəri dəyərlər

Ümumbəşəri dəyərlər də adət və ənənə kimi ictimai xarakterlidir. Ancaq adət və ənənələrdən fərqli olaraq ümumbəşəri dəyərlər qlobal əhəmiyyətli şüurun təzahur formasından ibarətdir. Ümumbəşəri dəyərlər insan cəmiyyətində həmişə mövcud olmuşdur. Ümumbəşəri dəyərlər elə bir mənəvi təsir vasitəsidir ki, onlar bir məkanda yaranır və öz ictimai xarakterinə görə sərhədlərini genişləndirə bilir. Ümumbəşəri dəyərlər, başqa sözlə, insanın ictimai şüuruna daha intensiv şəkildə təsir edən mənəvi – psixoloji vasitədir. Ümumbəşəri dəyərlər mədəni ənənləri olan insan cəmiyyətlərinin hər birində formalaşa bilər. Məsələn, Azərbaycanda XII əsrin böyük dahi mütəfikkiri Nizami Gəncəvinin yaratdığı insan azadlığı, hüquq bərabərliyi haqqındakı fikirlər, demokratik cəmiyyət arzuları ümümbəşəri ideyalar kimi qiymətləndirilə bilər. Doğrudan da Nizamidən əvvəl bədii ədəbiyyatda bu ideyalar ümumiləşdirilməmiş və həmin dövrün dövlətçilik qurumlarında onların həyata tətbiq olunması barədə heç bir təşəbbüs yaranmamışdır. Lakin ideyalar yaşamışdır. Nizaminin əsərləri



yayıldıqca, oxunduqca onun yaratdığı ideyalara da maraq çoxalmışdır.

Avropada həmin ideyalar Nizamidən dörd yüz il sonra oyanmağa başlamışdır. Onu da nəzərə almaq lazımdır ki, Nizamidə həmin ideyalar nə qədər mükəmməldirsə, Avropada utopistlərin yaratdığı ideyalar o qədər sadə görünür. Nizaminin yaratdığı ideyalar Nəsimi, Füzuli və başqa sənətkarlar tərəfindən daha da dərinləşdirilmiş və zənginləşdirilmişdir. Ümumiyyətlə, bəşəri ideyaların yaranmasında böyük şəxsiyyətlərin çox mühüm tarixi rolu vardır. Ümummilli liderimiz Heydər Əliyev təsadüfü demir ki, «Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli – mənəvi dəyərlərini yaradıblar».[1]

*Hər bir xalqın yaratdığı milli – mənəvi dəyərlər, bilavasitə həmin xalqın özü üçün səciyyəvidir, başqaları üçün örnək. Həmin milli – mənəvi keyfiyyətlər xalqın etiketidir. Bəşəri dəyərlər isə hamı üçündür, hüdudsuzdur, genişdir.* Hər hansı bir cəmiyyətdə yaranan bəşəri dəyərlər həm dünyəvi ictimai şüura təsir göstərir, həm də xalqın özünün mənəviyyatını zənginləşdirir, xalqın şüurunda bəşərilik yaradılmasının stimuluna çevrilir. Müasir

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

dövrdə bəşəri ideyalar əsas etibarı ilə beynəlxalq iqtisadi məkanda baş verən qloballaşma ilə əlaqədar yayılır. Qloballaşma milli mədəniyyətlərə birbaşa təsir edir. Ramiz Mehdiyev yazır ki, «Qloballaşma milli mədəniyyət və ənənələrin prioritetlərini gizli şəkildə dağıdır, özünəməxsusluqdan uzaqlaşmağa gətirib çıxarır və cəmiyyətin coğrafi və iqtisadi vəziyyətindən və siyasi quruluşundan asılı olmayaraq onun qərbləşməsini həyata keçirir».[1]

Nəzərə aldıqda ki, müasir dövrdə qloballaşmanın təsiri ilə Qərbə məxsus mədəniyyət etiketləri başqa ölkələrə səssiz – küysüz daxil olur, onda, milli mədəniyyətimizin qorunması haqqında Heydər Əliyev tövsiyələrinə biganə qalmağın yolverilməz olduğu hamını düşündürməlidir. Biz Qərbdən elə etiketləri qəbul etməliyik ki, onlar milli – mənəvi dəyərlərimizi zənginləşdirə bilsin. Çünki müasir beynəlxalq inteqrasiya şəraitində Azərbaycan cəmiyyəti özünü dünyadan təcrid edə bilməz. Bu gün Azərbaycan Respublikası iqtisadi, siyasi, elmi, mədəni və bir çox sahələrdə beynəlxalq inteqrasiya məkanına qoşulmuşdur. Ona görə də bəşər mədəniyyətinin ən yaxşı ənənələrini qəbul etmək bir zərurətə çevrilmişdir. Eyni zamanda, mədəniyyətlərin yaxınlaşması Azərbaycan cəmiyyətinə xas olan milli – mənəvi dəyərlərin bəşər mədəniyyətinin bir tərkib hissəsinə

[1] Bax: Рамиз Мехтиев. «Азербайджан: вызовы глобализации». Баку, 2004, s.561.



çevrilməsinə və onu zənginləşdirməsinə də təminat yaradır. Əlbəttə ki, vacib şərt milli mədəniyyətin qorunmasından ibarətdir. Buna görə Ümummilli liderimiz Heydər Əliyev göstərir ki, «öz milli – mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq».[1]

Ümumbəşəri dəyərlərlə bağlı nələrin qəbul edilməsinə də Heydər Əliyev bir konkretlik və aydınlıq gətirir. Heydər Əliyev göstərir ki, «bunun içərisində həm demokratiya, həm hüquq normaları, həm dünyəvi dövlət, həm insan azadlığı, insan haqlarının qorunması, plüralizm, sərbəst ticarət, insan sərbəstliyi, sərbəst bazar ticarəti, sərbəst bazar iqtisadiyyatı var – bunlar hamısı ümumbəşəri dəyərlərin bizim milli – mənəvi dəyərlərlə vəhdətindən meydana gələn müddəalardır».[2]

Bu müddəaların qəbul edilməsi *Azərbaycanda dövlətçiliyin təməlinin möhkəmləndirilməsinə zəmin yaratmaqdır, dövlətçiliyin atributlarına hörmət və ehtiram göstərməkdir, Azərbaycan mədəniyyətini dünya mədəniyyətinə tanıtmaqdır, milli mədəniyyətimizi dünya mədəniyyətinin bərabərhüquqlu subyektinə çevirməkdir, dünya elmindən səmərəli şəkildə bəhrələnməkdir, iqtisadiyyatımızı gücləndirib düşmən*

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.
[2] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

*üzərində qələbəyə və xalqımızın rifahının yüksəldilməsinə nail olmaqdır.*

Bütövlükdə milli – mənəvi dəyərlərimizin zənginləşməsi cəmiyyətimizdə mənəvi zənginlik yaradılmasına, milli şüurun yetkinləşməsinə və müstəqil dövlətçiliyimizin mənafeyinin qorunmasına xidmət göstərilməsi deməkdir. Başqa sözlə, cəmiyyətdəki milli və mənəvi zənginliyin özü müstəqil dövlətçiliyimizin mənəvi dayağıdır.



# ÜÇÜNCÜ BÖLMƏ

## Müstəqil dövlətçilik ənənələri

Milli şüurun formalaşmasında müstəqil dövlətçilik ənənələrinin olduqca mühüm rolu vardır. Dövlətçilik ənənələri hər hansı bir ölkədə tarixən formalaşır. Azərbaycanda müstəqil dövlətçiliyin tarixi qədim olmasa da artıq onun özünəməxsus ənənələri formalaşmışdır. Bu ənənələr az bir müddətdə o qədər zənginləşmişdir ki, onlar ümumilikdə yeni yaranan dövlətçilik qurumları üçün də örnək ola bilər. Dövlətçilik ənənələri də ictimai xarakterlidir; cəmiyyətin bütövləşməsi, milli ideyaların bəşəri ideyalara çevrilməsi, ölkədə insanların firavan həyat qura bilməsi, elmin, mədəniyyətin inkişafı bilavasitə bu ənənlərin bərqərar olunması ilə bağlıdır.

Azərbaycan Respublikasında yaranmış müstəqil dövlətçilik ənənələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

1) ictimai birlik, mütəşəkkillik, ictimai həmrəylik.

Müstəqil dövlətçiliyi bərqərar olunmasında ictimai birlik, mütəşəkkillik və ictimai həmrəylik ən əsas və aparıcı şərtlərdəndir. Müstəqil Azərbaycan dövlətçiliyin ilkin mərhələsində bu şərtlər xüsusilə vacib idi. Çünki ölkədə dağıdıcı və təxribatçı qüvvə-

lər dövlətçiliyin bünövrəsinin möhkəmləndirilməsi qarşısında çox böyük maneçiliklər yaradırdılar. Buna görə də Heydər Əliyev deyirdi: «Mən hər dəfə hamını milli birliyə dəvət edirəm, milli həmrəyliyə dəvət edirəm, hamımızı birlikdə Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa dəvət edirəm».[1]

Azərbaycanda ictimai – siyasi sabitliyin yaradılması da məhz, bilavasitə, Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etdi. Müstəqilliyin elan edilməsi tarixi bir məqam idi. Artıq cəmiyyətdə ictimai şüurun formalaşması səviyyəsi belə bir məqamdan istifadə olunmasına münbit şərait yaratmışdı. Enyi zamanda, Azərbaycanda müstəqilliyin elan edilməsi, əslində onun tarixi köklər üzərində bərqərar olunması idi. Heydər Əliyev Azərbaycanda müstəqilliyin elan olunmasına dair həyati reallığı belə şərh edir: «Müsətqillik əldə edən hər bir ölkə, milli azadlığını əldə edən xalq öz xoşbəxtliyinə gəlib çatır. Ancaq müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir. XX əsrdə, 1918-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdi. Bu gün tarixi düzgün təhlil etmək lazımdır. Əgər rus çar imperiyası dağılmasaydı belə bir tarixi – ictimai şərait yaranmasaydı, bizim mütərəqqi

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.



insanlarımız nə qədər mübarizə aparmış olsaydılar da heç bir müsətəqillik əldə edə bilməzdilər. Müstəqillik elan olundu, 23 aydan sonra bu dövlət, hökumət məhv oldu. Birinci, ona görə ki, daxili çəkişmələr imkan vermirdi ki, bu dövlət yaşasın. İkincisi də çar Rusiyası dağıldısa bir, iki, üç il Vətəndaş müharibəsi gedəndən sonra özünü möhkəmləndirdi və onun yerində Sovet imperiyası yarandı. Azərbaycan öz dövlət müstəqilliyini itirdi. Deməк müstəqilliyi əldə etmək, onu yaşatmaq tarixi ictimai – siyasi şəraitdən asılıdır.

1991-ci ildə də Sovetlər İttifaqı dağılmasaydı heç bir qüvvə, 15 müttəfiq respublikanın heç biri öz müsətəqilliyini elan edə bilməzdi. Yəni 1991-ci ildə də 1918-ci ildə olduğu kimi Azərbaycanın dövlət müstəqilliyini elan etməsi yaranmış tarixi ictimai – siyasi vəziyyətin nəticəsində olmuşdur. Ancaq bu müstəqilliyi yaşatmaq nə cür oldu ?

1991-ci ilin sonunu və 1992-ci ili götürək. 1992-ci ildə Azərbaycan müstəqilliyini saxlaya bilirdimi ? Yox. 1993-cü ilin iyun ayında başlanmış vətəndaş müharibəsi Azərbaycanın müstəqilliyini məhv edirdi».[1]

Müstəqillik elan edildikdən sonra qarşıda bir əsas məqsəd dururdu. O da müstəqilliyin qorunub saxlanmasından ibarət idi. Ancaq o zaman ha-

[1] Bax: «Xalq qəzeti», 24 noyabr, 1998.

kimiyyətdə təmsil olunan şəxslər bunu edə bilmirdilər. Həmin dövrdə Azərbaycanda hakimiyyət əldən – ələ keçirdi. O dövrdə bir tərəfdən hakimiyyət iflasa uğrayırdı, digər tərəfdən isə müstəqililyin və bütövlükdə dövlətçiliyin itirilməsi təhlükəsi baş verirdi. Həmin vaxtda Azərbaycan Respublikasının üzləşdiyi bəlaların səbəblərini aşağıdakı kimi ümumiləşdirmək olar:

a)milli birlik, mütəşəkkillik, ictimai həmrəylik yaradıla bilməmişdi.

b)hakimiyyət başındakı şəxslər milli mənafelərə xidmət etmək əvəzinə öz şəxsi mənafelərinə üstünlük verirdilər.

c)rəhbərlik edən şəxslərin dövlətçilik təcrübəsi yox idi. Hakimiyyət siyasət aləmində heç bir nüfuz qazanmamış adamların əlinə keçmişdi.

d)hakimiyyətdə olan şəxslər arasında heç kəs milli liderlik nüfuzu qazana bilməmişdi.

1993-cu il iyunun 15-də Heydər Əliyev Respublika Ali Sovetinin sədri seçildi. Ölkəmizin tarixinə qurtuluş günü kimi daxil olan həmin vaxtdan sonra dövlətçiliyin qarşısında duran müstəqilliyi qoruyub saxlamaq kimi vacib bir məsələnin həyata keçirilməsi barədə qətiyyətli addımlar atılmağa başladı. Başdan – başa xaos içərisində olan bir ölkədə ictimai birlik, mütəşəkkillik və ictimai həmrəylik yaratmaq kimi tarixi bir vəzifə Heydər Əliyevin öhədsinə düşmüşdü. Heydər Əliyev zamanı, dövrü,



hadisələri düzgün qiymətləndirərək Azərbaycanın müstəqilliyini qorumaq məqsədini çox böyük siyasi bacarıqla həyata keçirdi. Bunun üçün ilk növbədə xalqı mütəşəkkil etmək lazım idi. Heydər Əliyev hələ Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi zaman əhalinin rifahının yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə etmişdi. Xalq ona inanırdı. Onu xilaskar hesab edirdi. Ona görə də tezliklə xlaq Heydər Əliyevin ətrafında sıx birləşməyə başladı. Hələ Heydər Əliyev 1991-ci ildə Naxçıvanda ikən dekabrın 16-da Dünya azərbaycanlılarının həmrəyliyi ideyasını irəli sürmüşdü. 1991-ci il dekabrın 25-də bu ideya Azərbaycan Ali Soveti tərəfindən qərarlaşdırıldı. Bu ideya bütün azərbaycanlıları milli həmrəyliyə çağırırdı, milli şüurun canlandırılmasına və mənəvi birliyə dəvət edirdi. Ona görə də həmin ideya tezliklə öz bəhrəsini verməyə başladı. Yarandığı müddətdə öz tarixi vəzifəsini uğurla həyata keçirən bu ideya sonrakı vıaxtlarda da milli – mənəvi birliyin canlandırılmasında çox böyük əhəmiyyət kəsb etməyə başladı. Belə ki, Dünya azərbaycanlılarının Bakı şəhərində 2001-ci il noyabrın 9 – 10-u günləri keçirilən I, 16 mart 2006 -cı ildə keçirilən II qurultayları dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlı əhalinin milli şüurunda bir oyanış və dirçəliş yaratmış oldu. Bu, azərbaycanlıların milli, mənəvi və etnik – psixoloji səfərbərlik nümunəsi idi.

Son məlumatlara görə azərbaycanlılar dünyanın 67 ölkəsində məskunlaşmışdır. Onların məskunlaşdığı ölkələr və orada azərbaycanlıların sayı barədə məlumat aşığıdakılardan ibarətdir (Məlumat 15.04.2006-cı ilə aiddir).

1. ABŞ – 1 milyon
2. Avstraliya – 8 min
3. Astriya – 19 min
4. Albaniya – 12 min
5. Argentina – 12 min
6. Əlcəzair – 260 min
7. Əfqanıstan – 50 min
8. Banqladeş – 175 min
9. Belçika – 13 min
10. Birma – 8 min
11. Bolqarıstan – 65 min
12. Braziliya – 75 min
13. Butan – 1500 min
14. Böyük Britaniya – 170 min
15. Macarıstan – 27 min
16. Yunanıstan – 13 min
17. Danimarka – 60 min
18. Misir – 900 min
19. Hindistan – 300 min
20. İndoneziya – 44 min
21. İordaniya – 450 min
22. İraq – 1 milyon
23. İran – 30 milyon



24. İrlandiya – 4 min
25. İspaniya – 14 min
26. İtaliya – 33 min
27. Yəmən Ərəb Respublikası – 35 min
28. Yəmən Demokratik Respublikası – 27 min
29. Kanada – 170 min
30. Çin – 30 min
31. Küveyt – 19 min
32. Malta – 2 min 500 yüz
33. Meksika – 27 min
34. Monqolustan – 5 min
35. Norveç – 50 min
36. Birləşmiş Ərəb Əmirlikləri – 55 min
37. Oman – 19 min
38. Pakistan – 650 min
39. Polşa – 12 min
40. Portuqaliya – 7 min
41. Rumıniya – 45 min
42. Səduyyə Ərəbistanı – 40 min
43. Suriya – 95 min
44. Sudan – 17 min
45. Türkiyə – 3 milyon
46. Finlandiya – 12 min
47. Fransa – 70 min
48. Almaniya – 300 min
49. Çexiya – 2 min
50. Slovakiya – 2 min
51. İsveç – 2 min

52. Yuqoslaviya – 6 min
53. Yaponiya – 500 min
54. Belorusiya – 7 min
55. Ukrayna – 500 min
56. Rusiya Federasiyası – 3 milyon
57. Özbəkistan – 60 min
58. Qazaxıstan – 100 min
59. Gürcüstan – 600 min
60. Litva – 2 min
61. Moldova – 5 min
62. Latviya – 4 min
63. Qırğızıstan – 16 min
64. Tacikistan – 14 min
65. Türkmənistan – 45 min
66. Estoniya – 3 min
67. Azərbaycan respublikkası – 7 milyon
(File: // A:/ Azerworld oı. htm)

(Son məlumata görə Azərbaycan Respublikasında əhalinin sayı 9 milyonu keçmişdir).

Azərbaycan Respublikası hazırda özünün xarici ölkələrlə diplomatik və beynəlxalq əlaqələrini genişləndirir. Bu isə Respublikamızın beynəlxalq Aləmdəki nüfuzunun getdikcə artmasını təsdiq edən reallıq kimi qəbul edilməlidir. Hazırda 31 xarici dövlətin ölkəmizdə səfirliyi fəaliyyət göstərir:

1. ABŞ
2. Almaniya
3. Belarus



4. Bolqarıstan
5. Böyük Britaniya
6. Çin
7. Fransa
8. Gürcüstan
9. Hindistan
10. İran
11. İraq
12. İzrail
13. İsveç
14. İtaliya
15. İordaniya
16. Koreya
17. Liviya
18. Macarıstan
19. Misir
20. Norveç
21. Özbəkistan
22. Pakistan
23. Polşa
24. Qazaxıstan
25. Rumıniya
26. Rusiya Federastyası
27. Səudiyyə Ərəbistanı
28. Türkiyə
29. Ukrayna
30. Yaponiya
31. Yunanıstan

(File: /A: Minstry of Foreign Affairs or. htm)

Azərbaycanın aşağıdakı ölkələrdə diplomatik və konsulluq nümayəndəlikləri vardır:

1. ABŞ (eyni zamanda Meksika da akkreditə olunub)
2. Almaniya
3. Avstriya (eyni zamanda Slovakiya Respublikasında, ATƏT, BMT-nin Vyana bölməsi, BMSİT, NSHQMT, AEVA-da akkreditə olunub)
4. Belarus
5. Belçika (eyni zamanda Lüksemburq, Niderland və Avropa ittifaqında akkreditə olunub)
6. Birləşmiş Ərəb Əmirlikləri
7. Bolqarıstan
8. Böyük Britaniya (eyni zamanda İrlandiya, İsveç və Norveç də akkreditə olunub)
9. Çin (eyni zamanda Cənubi Koreya, Monqolustan, Şimali Koreya və Vyetnam da akkreditə olunub)
10. Fransa
11. Gürcüstan
12. Hindistan (eyni zamanda Nepal Krallığında akkreditə olunub)
13. İndoneziya
14. İran (eyni zamanda İqtisadi Əməkdaşlıq Təşkilatında akkreditə olunub)
15. İspaniya



16. İsveçrə (eyni zamanda Müqəddəs Taxt – Tacda akkreditə olunub)
17. İtaliya (eyni zamanda San Marino Respublikası, Malta Respublikası, həmçinin BMT-nin Ərzaq Proqramı yanında akkreditə olunub)
18. İordaniya
19. Kanada (eyni zamanda Beynəlxalq Mülki Aviasiya Təşkilatı yanında akkreditə olunub)
20. Küveyt
21. Latviya
22. Macarıstan
23. Misir (eyni zamanda Livanda akkreditə olunub, Ərəb Dövlətləri Liqası yanında Daimi Müşhaidəçi)
24. Moldova
25. Özbəkistan
26. Pakistan
27. Polşa
28. Rumınıya
29. Rusiya Federasiyası
30. Səduyyə Ərəbistanı Krallığı (eyni zamanda Bəhreyn, Qətər və Omanda akkreditə olunub)
31. Türkiyə
32. Türkmənistan
33. Ukrayna
34. Yaponiya
35. Yunanıstan
36. Avropa Şurası

37. BMT

38. Azərbaycan Respublikasının BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi

39. NATO (eyni zamanda kimyəvi silahların qadağan olunması müqaviləsi Təşkilatında akkreditə olunub)

40. YUNESKO

41. İstanbuldakı Baş Konsulluq (eyni zamanda QDİƏT-də akkreditə olunub)

42. Los – Ancelasdakı Baş Konsulluq

43. Qarsdakı Baş Konsulluq

44. Sankt – Peterburqdakı Baş Konsulluq

45. Təbrizdəki Baş Konsulluq

46. Livandakı Fəxri Konsulluq

Azərbaycan Respublikası aşağıdakı adı göstərilən ölkələrlə diplomatik əlaqələr qurmuşdur.

1. Türkiyə 14.01.92
2. İsveçrə 21.01.92
3. Lixtenşteyn 21.01.92
4. KXDR 30.01.92
5. Ukrayna 06.02.92
6. Meksika 10.02.92
7. İspaniya 11.02.92
8. Avstriya 20.02.92
9. Fransa 21.02.92
10. Polşa 21.02.92



11. Səduyyə Ərəbistanı 24.02.92
12. Yəmən 25.02.92
13. Banqladeş 26.02.92
14. ABŞ 28.02.92
15. Hindistan 28.02.92
16. Böyük Britaniya 11.03.92
17. Qvineya 11.03.92
18. İran 12.03.92
19. Liviya 16.03.92
20. Almaniya 17.03.92
21. Koreya 23.03.92
22. Finlandiya 24.03.92
23. Misir 27.03.92
24. Kuba 27.03.92
25. Filippin 27.03.92
26. Suriya 28.03.92
27. İraq 30.03.92
28. Niderland 01.04.92
29. Çin 02.04.92
30. Yunanıstan 02.04.92
31. Danimarka 02.04.92
32. Rusiya 04.04.92
33. İsrail 07.04.92
34. Fələstin 15.04.92
35. Monqolustan 16.04.92
36. Estoniya 20.04.92
37. Macarıstan 27.04.92
38. Cənubi Afrika 29.04.92

39. İtaliya 08.05.92
40. İsveç 08.05.92
41. Moldova 18.05.92
42. Vatikan 24.05.92
43. Tacikistan 29.05.92
44. Lyuksemburq 01.06.92
45. Bolqarıstan 05.06.92
46. Norveç 05.06.92
47. Türkmənistan 09.06.92
48. Pakistan 09.06.92
49. Rumıniya 16.06.92
50. Belçika 17.06.92
51. Avstraliya 19.06.92
52. Yeni Zenlandiya 29.06.92
53. Tailand 07.07.92
54. Kanada 10.07.92
55. Oman 13.07.92
56. Sudan 25.07.92
57. Portuqaliya 04.08.92
58. Mərakeş 25.08.92
59. Qvineya Bisau 27.08.92
60. Qazaxıstan 30.08.92
61. Birləşmiş Ərəb Əmirlikləri 01.09.92
62. Yaponiya 07.09.92
63. Qana 11.09.92
64. Livan 18.09.92
65. Vyetnam 23.09.92
66. İndoneziya 24.09.92



67. Həbəşistan 02.11.92
68. Gürcüstan 18.11.92
69. Qırğızıstan 19.01.93
70. Çexiya 27.01.93
71. İordaniya 13.02.93
72. Malayziya 05.04.93
73. Madaqaskar 26.05.93
74. Belarus 11.06.93
75. Albaniya 23.09.93
76. Braziliya 21.10.93
77. Argentina 08.11.93
78. Zambiya 18.11.93
79. Slovakiya 23.11.93
80. Latviya 11.01.94
81. Əlcəzair 22.04.94
82. Sinqapur 15.08.94
83. Qəmər adaları 06.09.94
84. Qatar 14.09.94
85. Küveyt 07.10.94
86. Mavritaniya 29.10.94
87. Qvatemala 01.11.94
88. Seyşel adaları 02.11.94
89. Çili 03.11.94
90. Qambiya 11.11.94
91. Əfqanıstan 16.11.94
92. Nikaraqua 23.11.94
93. Anqola 01.12.94
94. Kolumbiya 13.12.94

95. Maldiv adaları 20.12.94
96. Qonduras 22.12.94
97. Kamboca 28.12.94
98. Malta 09.01.95
99. Qayana 09.01.95
100. Uruqvay 11.01.95
101. Xorvatiya 26.01.95
102. Bosniya və Hersoqovina 09.02.95
103. Kamerun 24.02.95
104. Nepal 28.02.95
105. Burundi 02.03.95
106. Syerra – Leone 13.03.95
107. Sent Kids və Nevis 22.03.95
108. Antiqua və Barbuda 05.04.95
109. Panama 06.04.95
110. Venesuela 12.05.95
111. Laos 22.05.95
112. Mozambik 20.06.95
113. Makedoniya 28.06.95
114. Uqanda 19.08.95
115. Özbəkistan 02.10.95
116. Niger 10.11.95
117. Yamayka 22.11.95
118. Bruney – Darussalam 24.11.95
119. Litva 27.11.95
120. Sloveyniya 20.02.96
121. Seneqal 14.03.96
122. Andorra 30.04.96



123. Şri – Lanka 21.05.96
124. Liberiya 22.05.96
125. Peru 25.05.96
126. İrlandiya 01.07.96
127. Boliviya 08.07.96
128. Mavriki 19.07.96
129. Qabon 01.10.96
130. Cibuti 22.10.96
131. Bəhreyn 06.11.96
132. Kot divuar 19.11.96
133. Mali 26.11.96
134. Kosta – Rika 15.01.97
135. Serbiya və Çernoqoriya 26.08.97
136. İslandiya 27.02.98
137. Tunis 01.07.98
138. El – Salvador 23.03.99
139. Miyanma 03.08.99
140. Benin 14.10.99
141. Surinam 11.02.00
142. San Marino 19.04.02
143. Beliz 24.06.02
144. Haiti 09.05.03
145. Sent Vinsent 23.05.03
146. Ekvador 22.03.04
147. Somali 22.03.04
148. Kabo Verde 22.03.04
149. Çad 05.04.04
150. Şərqi – Timor 05.04.04

151. Paraqvay 20.04.04
152. Eritreya 20.04.04
153. Malavi 21.05.04
154. Burkino – Faso 28.05.04
155. Ruanda 28.05.04
156. Keniya 28.05.04
157. Ekvatorial Qvineya 11.11.04
158. Nauru 11.11.04

Azərbaycanın bir çox xarici ölkələrdə diaspor təşkilatları və cəmiyyətləri yaradılmışdır.

Almaniyanın Berlin, Maynts, Hannover, Franfurkt – Mayn, Ştutqart, Koln, ABŞ-ın Nyu Cersi, Kaliforniya, Missiuri ştatlarında, Baltimor şəhərində, Avstraliyanın Sidney şəhərində, Avstriyanın Vyana, Qrate, Zalsburq şəhərlərində, Böyük Britaniyanın London şəhərində, Çexiya respublikasının Brno şəhərində, Danimarkanın Arkus, Kopenhagen şəhərlərində, Estoniya Tallin şəhərində, Fransanın Paris, Strasburq, Qrenbol şəhərlərində, Gürcüstanın Tbilisi şəhərində, İsveçin Stokholm, Qoterborq, Yusdal, Linşopinq şəhərlərində, İsveçrədə, İtaliyanın Roma şəhərində, Kanadanın Monreal, Ontario şəhərlərində, Qazaxıstanın Almatı şəhərində, Qırğızıstanın Bişkək şəhərində, Latviyanın Riqa şəhərində, Litvanın Vilnus şəhərində, Moldovanın Kişinyov şəhərində, Niderlandın Haaqa şəhərində, Norveçin Oslo şəhərində, Özbəkistanın Daşkənd,



Səmərqənd şəhərlərində, Ruminyanın Buxarest şəhərində, Rusiya Federasiyasının Vladimir, Volqoqrad, Voloqda, Voroney, İvanov, Kalininqrad, Kamçatka, Kirov, Kostroma, Kurqan, Msokva, Nigerqorodsk, Novosibrsk, Perm, Rostov, Ryazan, Samara, Saratov, Sverdlov, Tver, Tomsk, Tula, Ulyanovsk vilayətlərində, Xanti Manisuysk Muxtar okruqunda, Şimali Qafqaz okruqunda, Mərkəzi okruqda, Sibir okruqunda, Uzaq Şərq okruqunda, Şimali Qərbi okruqunda, Başqırdıstanda, Buryatiyada, Dağıstanda, Qaraçay – Çərkəzdə, Komidə, Mari Respublikasında, Şimali Osetiyada, Udmurd respublikasında, Çuvaşiyada, Krasnodar diyarında, Primorsk diyarında, Arxangelsk diyarında, Həştərxan diyarında, Belqrad vilayətində, Braynskda, Valin vilayətində, Vinnitsa vilayətində, Dnepropetrovsk vilayətində, Donetsk vilayətində, Zakarpatyedə, Zaparojedə, Jitomirdə, İvanovo – Frankovsk vilayətində, Kirovoqrad vilayətində, Krımda, Luqansk vilayətində, Nikolayev vilayətində, Ukraynanın Kiyev şəhərində, Türkiyənin Ankara şəhərində Azərbaycanın diaspor təşkilatları və cəmiyyətləri fəaliyyət göstərir.

Azərbaycanda aşağıdakı beynəlxalq təşkilatların nümayəndəlikləri fəaliyyət göstərir:

1. Asiya İnkişaf Bankı
2. Atət
3. Avropa Komissiyası

4. Avropa Şurası
5. Avropa Yenidən Qurma və İnkişaf Bankı
6. Beynəlxalq Miqrassiya Təşkilatı
7. Beynəlxalq Qırmızı Xaç Komitəsi
8. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Federasiyası
9. Beynəlxalq Valyuta Fondu
10. BMT
11. BMT Əhali Fondu
12. BMT İnkişaf Proqramı
13. BMT Qaçqınlar Üzrə Ali Komissarlığı
14. BMT Uşaq Fondu
15. Bmt Ümumdünya Ərzaq Proqramı
16. Traseka
17. Ukrayna Elmi Texnoloji Mərkəzi
18. Ümumdünya Bankı

Azərbaycanda müstəqillik elan edildikdən sonrakı dövrdə milli birlik yaratmaq, insanları ölkənin mənafeyinə, cəmiyyətin mənafeyinə xidmət edən bir ideya ətrafında cəmləşməyə yönəltmək ən vacib bir məsələyə çevrilmişdi.

Milli birlik yaradılması sahəsində atılan ən mühüm addımlardan biri də 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasından ibarət idi. Partiya yaranan andan onun tərəfdarları, təəssübkeşləri və üzvləri sürətlə artmağa başlamışdı.



Çünki xalq ancaq bu partiyadan və onun rəhbərindən ümid gözləyirdi.

Yeni Azərbaycan Partiyası tarixi bir zərurətdən yaranmışdır. Partiya elə bir zamanda formalaşmağa başlamışdı ki, ölkə təlatüm içərisində idi. Ölkə bir tərəfdən, erməni təcavüzünə məruz qalmışdı, digər tərəfdən isə daxildə fəsadlar baş verirdi. Əhalini gündəlik zəruri tələbat malları ilə təmin etmək mümkün deyildi. Üstəlik qaçqın və köçkün ordusunun təminatı da böyük prblemlər yaradırdı. Bundan istifadə edən qüvvələr ölkəni parçalamaq niyyətini həyata keçirmək üçün dəridən qabıqdan çıxırdı. Ölkə vətəndaş müharibəsinin astasında idi. Xalq maddi-mənəvi, sosial-psixoloji iflasa uğrayırdı. Xalqı birləşdirməyə qadir olan, baş vermiş təlatümdən qurtarmağa aparan bir qüvvə yox idi. Belə bir böhranlı zamanda Yeni Azərbaycan Partiyası yarandı. Partiyanın qarşısına qoyduğu başlıca vəzifə ölkəni xaosdan qurtarmaq, milli birlik və mütəşəkillik yaratmaq, sonrakı mərhələdə isə ictimai-siyasi sabitliyə nail olmaqdan ibarət idi. Məhz bu tarixi zərurətin tələbi ilə Ümummilli liderimiz Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyası yarandı.

Yeni Azərbaycan Partiyası yaranmamışdın əvvəl ölkədə AXC və Müsavat Partiyası də mövcud idi. Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yarandığı halda, həmin partiyaların mövcudluğna heç bir ciddi tələbat olmamışdı. Sadəcə həmin partiyalar

SSRİ-nin dağılması ilə baş verən boşluqdan istifadə edərək ya ölkəmizdə gözü olan xarici müdaxiləçilərin sifarişlərini yerinə yetirirdi, ya da öz şəxsi mənafelərin həyata keçirməklə cəmiyyətdən daha artıq pay qopartmağa səy göstərirdilər. Ona görə də AXC-Müsavat cütlüyü özlərinə dayaq tapa bilmədi. Onların xalqa zidd niyyətləri isə iflasa uğradı. Həmin partiyalar iqtidarda təmsil olunmalarına baxmayaraq dövlətçiliyin sükanını əllərində saxlaya bilmədilər. Yeni Azərbaycan Partiyası isə öz üzərinə düşən tarixi missiyanı ləyaqətlə, şərəflə yerinə yetirdi. Xalqın Yeni Azərbaycan Partiyası ətrafındakı mütəşəkkilliyi onun 21 - 22 dekabr 1999-cu ildə keçirilən birinci, 21 noyabr 2001-ci ildə keçirilən ikinci və 26 mart 2005-ci ildə keçirilən üçüncü qurultaylarında bir daha təsbit edilmişdir.

Hazırda ölkə üzrə partiya üzvlərinin sayı 505 mindən artıqdır. Gəncədə isə partiya üzvlərinin sayı 23 min 525 nəfəri ötüb keçmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci il 9 fevral tarixli sərəncamı ilə həmin ilin «Gənclər ili» elan edilməsindən sonra partiyanın mövqelərinin gənc qüvvələr hesabına daha da gücləndirilməsi cəmiyyət həyatında baş verən ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir.

Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş milli birlik, mütəşəkkillik və ictimai həmrəylik ideyası Ümummilli liderimizin hakimiyyətə ikinci



qayıdışından sonra tezliklə öz bəhrəsini verdi. Xalq mütəşəkkil oldu və ölkəni həm daxildən, həm də xaricdən parçalamaq istəyən qüvvələrin qarşısına sipər çəkdi. Haqq qalib gəldi. Bu gün xalqın mütəşəkkilliyi yenilməz bir qüvvəyə çevrilmişdir. Bu yenilməz qüvvə ölkə prezidenti İlham Əliyevin ətrafında sıx birləşmişdir. Bu birlik gündən – günə artır, güclənir və möhkəmlənir.

2) ictimai – siyasi sabitlik

Müstəqilliyin elan edilməsindən sonrakı müddətdə ictimai – siyasi sabitlik yaradılması ən vacib bir məsələ kimi qarşıda dururdu. Aydındır ki, müstəqilliyin elan edilməsi özü ilə birlikdə bir sıra geostrateji məsələlərin də həll olunmasını zəruriləşdirirdi. Azərbaycanın müstəqillik əldə etməsinin qonşu dövlətlərdə və beynəlxalq aləmdə necə qiymətləndiriləcəyini nəzərə almadan ölkədaxili problemlərin həllinə nail olmaq mümkün deyildi. Həmçinin, nəzərə almaq lazım idi ki, Cənubi Qafqazda böyük strateji əhəmiyyətə malik olan Azərbaycan torpaqlarına strateji mövqeyi üçün marağı olan ölkələrin görünməyən əllər uzanırdı. Bu əllər bir tərəfdən Azərbaycanla düşmənçilik edən Ermənistanı qabağa itələyirdi, digər tərəfdən ölkənin daxilindəki təxribatçı ünsürləri idarə edirdi. Buna görə də Azərbaycanda ictimai – siyasi vəziyyət çox çətin idi. Bir tərəfdən xarici müdaxilələr ciddi problemlər yaradırdı, digər tərəfdən ölkədə hakimiyyət

üstündə çəkişmələr baş verirdi. Ölkədaxili çəkişmələr Ermənistan qüvvələrinə Azərbaycan torpaqlarını zəbt etməyə daha artıq şərait yaradırdı. Azərbaycanın əraziləri hakimiyyət uğrunda gedən çəkişmələrin nəticəsində düşmən əlinə keçirdi. 1992-ci ildə əsrin faciəsi olan «Xocalı faciəsi» baş verdi. Xocalının süqutunun başlıca səbəbi bundan ibarət idi ki, ölkəyə rəhbərlik edən Ayaz Mütəllibov səriştəsiz idi. İctimai – siyasi hadisələri yaxşı qiymətləndirə bilmirdi. Bu zəif yeri yaxşı başa düşən təxribatçı qüvvələr bilməmiş deyildi ki, xalq üzünü Heydər Əliyevə çevirə bilər. Odur ki, ölkədə daha artıq qarışıqlıq baş verməsi üçün hakimiyyət uğrunda canfəşanlıq edən AXC tərəfdarlarını fəallaşdırırdılar. Ölkədə erməni müdaxiləsi davam etdiyi vaxtda AXC-çilər mitinqlər təşkil edirdilər. Torpaq müdafiəsiz qalmışdı. Ona görə də məğlubiyyət – məğlubiyyət arxasınca gəlirdi. «Xocalı faciəsi»də belə baş verdi. Xocalı Ağdama açılan koridor idi. Ermənilər bu koridora sahib olmaq üçün dəridən – qabıqdan çıxırdılar. Bunun üçün məqam yetişdi. Onlar Xankəndindəki Rusiyaya məxsus 366-cı motoatıcı polkun yardımı ilə Xocalını ələ keçirə bildilər. Belə qarma – qarışıq dövrdə ölkədə üç əsas dağıdıcı qüvvə də baş qaldırmışdı. Birincisi, Şimal rayonlarının hesabına «Ləzgi dövləti» yaradılması, ikincisi, Cənub rayonlarının əsasında «Talış – Muğan Respublikasının» yaradılması, üçüncü isə Mərkəzdə quberniyalar yaradılması ide-



yasından ibarət idi. Bu zaman xalq Ümummilli lider Heydər Əliyevi hakimiyyətə qaytardı. 1993-cü ilin avqustunda Əlikram Hümbətovun başçılığı ilə yaradılmış qondarma «Talış Muğan Respublikası» Heydər Əliyevin qətiyyəti ilə ləğv edildi.

1994-cü il oktyabrın 4-də Gəncədə Surət Hüseynovun tərəfdarları icra hakimiyyətinin binasını tutdular. Bakıda qiyamçıları müdafiə edən iki hərbi hissə də dövlət çevrilişində iştiraka cəlb olundu. Oktyabrın 3-dən 4-nə keçən gecə Prezident Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Xalqın Heydər Əliyev ətrafında sıx birliyini görən qiyamçılar geri çəkilməli oldular. Heydər Əliyevin xalqa müraciətində deyilirdi: «Bilin ki, indi Azərbaycanın sərhədlərində bizim qəhrəman ordumuz, cəsur oğlanlarımız, övladlarımız torpaqlarımızın keşiyində durduğu bir vaxtda Azərbaycan torpaqlarını təcavüzdən qoruduğu vaxtda ölkəmizin tarixində belə bir vəziyyətin yaranması Azərbaycan torpaqlarına olan təcavüzə köməkdir, respublikamızın ərazi bütövlüyünə, müstəqilliyinə xəyanətdir».[1]

1994-cü il mayın 12-də Qırğızıstanın paytaxtı Bişkək şəhərində Ermənistanla atəşkəs haqqında razılıq əldə edildi. Ölkədə sabitliyin, sülhün və əmin – amanlığın əldə edilməsinə etibarlı zəmin yaradılmış

---

[1] Bax: Heydər Əliyev. Respublika Milli Televiziyası və radiosu ilə xalqa müraciəti. 4 oktyabr, 1994-cü il. «Müstəqilliyimiz əbədidir». Bakı, 1997, 2-ci cild, s.360.

oldu. Lakin təxribatçı qüvvələr ölkəni daxildən parçalamaq planlarından əl çəkməmişdilər.

1995-ci il martın 12-dən 13-nə keçən gecə Qazax və Ağstafa rayonlarında Xüsusi Təyinatlı Polis Dəstəsi və Rövşən Cavadovun quldur dəstələri tərəfindən dövlət çevrilişinə cəhd göstərildi. Bakıda 8-ci kilometr ərazisində yerləşən xüsusi təyinatlı dəstələr də bu təxribata qoşulmuşdular. Heydər Əliyevin səyi və siyasi uzaqgörənliyi, strateji fəaliyyəti ilə martın 17-də silahlı quldur dəstələri ləğv edildi. Beləliklə, ölkədə ictimai – siyasi sabitlik əldə edilməsinə tam bir təminat yaradılmış oldu.

3) iqtisadi dirçəlişin baş verməsi

Ölkədə ictimai – siyasi sabitliyin yaranması iqtisadi dirçəliş baş verməsinə zəmin yaratdı. Sovet dövlətinin süqutundan sonrakı dövrdə Azərbaycan öz müstəqilliyini elan etməsinə baxmayaraq, ölkədə hərtərəfli bir qarışıqlıq baş verirdi. İctimai – siyasi gərginlik özü ilə bir çox fəsadlar da törədirdi. Sovet dövründə Heydər Əliyevin yaratdığı bütün infrastrukturlar hakimiyyət çinoviklərinin əli ilə dağıdılırdı. Ölkəni iqtisadi cəhətdən ayağa qaldırmaq üçün lazım gələn potensial məhv edilmişdi. Sanki düşüncələrdə «Qoy hər şey məhv edilib dağıdılsın, biz yenisini yaradaq» kabusu dolaşırdı. Ölkənin siyasi və iqtisadi vəziyyəti birdən–birə geriləyərək 1918 – 20-ci illər səviyyəsinə qayıtmışdı. Əhali həm maddi, həm də mənəvi iflasa uğrayırdı. Ancaq insanların



qəlbində Heydər Əliyevə məhəbbət yaşayırdı. Xalqın Ümummilli liderə məhəbbəti ölkənin iqtisadi böhrandan çıxarılmasına olan inamı artırırdı. Xalq Heydər Əliyevə, Heydər Əliyev isə xalqa arxalanırdı. Ona görə də 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» kimi məşhurlaşan neft strategiyası proqramı həyata keçirildi.

Dövlətçiliyin iqtisadi bazasının yaradılması müstəqilliyin daimi, dönməz və əbədi olmasına təminatdır. İqtisadi baza yaradılmadan sülhü, əmin – amanlığı bərqərar etmək mümkün deyildir. İqtisadi inkişaf olmadıqda beynəlxalq inteqrasiya haqqında da düşünmək artıqdır. İqtisadi bazası olmayan dövlət beynəlxalq iqtisadi qloballaşma qarşısında tab gətirə bilməz. Hazırda ölkə iqtisadiyyatının dürmadan inkişaf etməsi üçün çox böyük strateji əhəmiyyət daşıyan proqramlar həyata keçirilir. Bu proqramların həyata keçirilməsi o deməkdir ki, ölkədə neft strategiyası aparıcı olsa da yeganə amil deyildir.

Əli Əhmədovun qeyd etdiyi kimi, «Heydər Əliyevin ölkənin müasir tarixində xidməti və həyata keçirdiyi missiyası sisitemində özünü büruzə verən əsas cəhətlərdən biri onun Azərbaycanın hərtərəfli inkişafına nail olmasıdır, həm də bu, keyfiyyət dəyişmələrinə gətirib çıxarmağa qadir olan sürətli yüksəlişdir. Əslində bu, Azərbaycan cəmiyyətinin

yeni durmunun, daha dəqiq deyilsə, yeni müsir Azərbaycanın özünün yaradılmasıdır»[1]

Bakı – Tbilisi – Ceyhan neft ixrac kəmərinin inşası neft və qaz istehsal edən müasir sənaye obyektlərin yaradılmasına imkan verir ki, bu da ixtisaslı kadrların və mütəxəsislərin yeni iş yerləri ilə təmin olunmasına şərait yaradır. Bundan əlavə, Azərbaycan neft və qaz sənayesi üçün lazımlı avadanlıqlar istehsal edən bir ölkə olmaqla dünya iqtisadiyyatında bu sahəyə olan tələbatın ödənilməsi prosesində də iştirak edir. Bu isə beynəlxalq iqtisadi əməkdaşlığın daha da möhkəmləndirilməsinə təminatdır.

İqtisadi inkişaf əhalinin rifahının yaxşılaşdırılması ilə birlikdə sülh, əmin-amanlıq, sabitlik və təhlükəsizlik kimi strateji məqsədlərə nail olmaq imkanlarının da reallaşdırılmasına xidmət etməlidir. Bu gün qarşıda duran ən başlıca vəzifə bundan ibarətdir ki, həm iqtisadi cəhətdən güclü və qüdrətli, həm də siyasi cəhətdən müstəqil olan bir dövlət yaradılmasına nail olunsun.

Azərbaycan Respukblikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2003-cü il 17 noyabrında keçirilən iclasdakı çıxışı zamanı ölkəmizin inikişafının davamlılığını təmin etmək üçün dövlətin və hökumətin görəcəyi işlərin istiqamətlərini müəyyənləş-

[1] Bax: Əli Əhmədov. Müasir Azərbaycanın qurulması. «Azərbaycan» qəzeti, 12 dekabr, 2009



dirdi və göstərdi ki, Azərbaycan iqtisadiyyatının inkişafı kompleks şəklində təmin olunmalıdır.

2004-cü il fevralın 11-də «Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı dövlət proqramı» qəbul edilmişdir. Bu proqramda azad sahibkarlığın inkişafı başlıca istiqamət kimi qiymətləndirilir.

Respublikanın sosial - iqtisadi inkişafı istiqamətində atılan addımların ən əhəmiyyətlisi «Azərbaycan Respublikasında sosial – iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2004-ci il fərmanına uyğun olaraq hazırlanmış «Azərbaycan Respublikasında regionlarının sosial – iqtisadi inkişafı dövlət proqramı (2004 – 2008-ci illər)» oldu. Dövlət proqramında Azərbaycanın ayrı – ayrı regionlarının iqtisadi inkişafını təmin etməyin yolları göstərilmişdir.

Azərbaycan Respublikasının iqtisadi inkişafındakı artım günbəgün insanların sosial həyatına və rifahına öz təsirin göstərir. Bu artım tempinə görə Azərbaycanın sosial-iqtisadi inkişafını üç əsas mərhələyə bölmək mümkündür.

*Birinci mərhələyə* 1994-cü ildən 2000-ci ilədək olan dövrü daxil etmək olar. Bu mərhələ Azərbaycanda ictimai – siyasi sabitlik dövrünün başlanması ilə səciyyələnir. İctimai - siyasi sabitlik dövrü respublikada iqtisadiyyatın ayağa dürmasına imkan vermişdir. Odur ki, həmin dövr *iqtisadi dirçəliş dövrü*

adlandırıla bilər. İqtisadi dirçəliş dövründə iqtisadi artımın ilbəil canlanması, xüsusilə, diqqəti cəlb edir. Belə ki, 1994-cü ildə dövlət büdcəsi 700 milyona qədər, 2000-ci ildə isə 1,2 milyard dollar olmuşdur.

*İkinci mərhələyə* 2000-ci ildən 2004-cü ilədək olan dövrü aid etmək mümkündür. Bu dövrdə iqtisadi inkişaf üzrə göstərici əvvəlki illərdəkindən daha artıq olmuşdur. Əgər 2000-ci ildə dövlət büdcəsi 1,2 milyard dollar idisə, 2004-cü ildə bu göstərici 2 milyard dollar olmuşdur. İkinci mərhələ Azərbaycan iqtisadiyyatında *dinamik inkişaf dövrü* kimi qiymətləndirilə bilər.

*Üçüncü mərhələ* 2004-cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələdə iqtisadi inkişafın artım sürəti daha intensiv olmuşdur. Belə ki, məsələn, 2004-cü ildə dövlət büdcəsi 2 milyard dollar idisə, 2005-ci ildə 2,5 milyard, 2006-cı ildə 4 milyard dollar olmuşdur. 2007-ci ildə artıq 6,5 milyard dollar həcmində proqnozlaşdırılmışdır. 2008-ci ildə dövlət büdcəsi 11 milyard, 2009-cu ildə isə 15 milyard 545 milyon dolları ötüb keçmişdir. 2010-cu il üçün icmal büdcəsini yuxarı həddi isə 12 milyard 636 milyon manat hesablanır. Üçüncü mərhələni iqtisadiyyatda *sürətli inkişaf dövrü* adlandırmaq olar. Müasir dövrdə iqtisadiyyatın sürətli artımını təmin edən amillər təkcə ölkədaxili resurslarla məhdudlaşa bilməz. İqtisadiyyatın artımı üçün beynəlxalq inteqrasiyaya qoşulmaq ən zəruri şərtlərdən biri hesab edilməlidir.



Çünki müasir qloballaşma şəraitində inteqrasiyaya qoşulmadan dirçəlişə və irəliləyişə nail olmaq mümkün deyildir. Müasir dövrdə, qloballaşma Ramiz Mehdiyevin təbiricə desək, «Qarşılıqlı iqtisadi amillərlə müəyyənləşən bir prosesə çevrilmişdir».[1] Bu mənada, qloaballaşma əslində, iqtisadi cəhətdən güclü olan ölkələrin başqa ölkələri öz təsirinin altına alması kimi başa düşülür. Məqsəd burada qlaoballaşmadan mümkün qədər fayda götürmək imkanlarının əldə edilməsindən ibarətdir.

Əli Həsənov haqlı olaraq yazır ki, «Qloballaşma keçid dövrünü yaşayan, xammalı, işçi qüvvəsi ucuz olan, daxili istehsalı və bazarı zəif qorunan ölkələrə daha çox ziyan vurur. Bir qayda olaraq, belə ölkələrin daxili istehsalı rəqabətə dözməyərək tam iflasa uğrayır. Bu da nəinki həmin ölkənin sosial-iqtisadi vəziyyətinə, eyni zamanda, milli –mənəvi dəyərlərinə, milli özünəməxsusluğuna və həyat tərzinə mənfi təsir göstərir və onun keyfiyyətini dəyişir».[2]

Qloballaşma bir tərəfdən sərhədlərdən – sərhədlərə, məsafələrdən – məsafələrə keçərək insan cəmiyyətini zamandan – zamana qazanılmış ümumbəşəri dəyərlərlə birləşdirir, ictimai, siyasi və psixoloji vəhdət yaradılmasına səbəb olur. yoxsullu-

---

[1] Bax: Ramiz Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003, s.34.

[2] Bax: Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bak, 2005, s.157

ğun aradan qaldırılmasına və bəşəriyyətin maddi rifahının yaxşılaşdırılmasına təsir edən iqtisadi dirçəlişə təkan verir. Digər tərəfdən, cəmiyyət həyatı qloballaşmanın təzadlı nəticələri ilə qarşılaşmalı olur. Belə ki, bir tərəfdən ictimai həyatda maddi istehsalın həcminin artması insanların rifahının yaxşılaşmasına təsir göstərir, digər tərəfdən iqtisadi cəhətdən inkişaf etməmiş ölkələr qlobal tərəqqi ilə ayaqlaşa bilmədiyi üçün xammal mənbəyi olmaqdan irəli gedə bilmir və asılı vəziyyətə düşür. Milli mənəviyyatda isə keyfiyyət dəyişmələri baş verməsi istisna olunmur. Başqa sözlə, qloballaşmadan o ölkələr xeyir götürür ki, onun iqitsadiyyatı təkcə xammala bağlı olmasın, həm də ölkədə istehsal prosesləri mövcud olsun və inkişaf etsin. İstehsal sahələri yarada bilməyən ölkələr isə təkcə xammal mənbəyinə çevrilir. Xammal mənbəyi olan öləkələrdə istehsal yaranmadığı şəraitdə ayrı – ayrı sahələrdə monopoliyalar baş qaldırır. Əhalinin az qismini təşkil edən məmur tipli şəxslər gəlir əldə edir. Qalan əhali isə yoxsulluq həddindən çıxa bilmir. Yoxsul əhali yoxsullaşaraq proletariata çevrilir. *Proletariatın isə tarixi vəzifəsi inqilabçı kütləyə çevrilməkdən ibarətdir.* Azərbaycan Respublikası bu gün iqtisadi inteqrasiyaya fəal qoşulmuş ölkələr sırasındadır. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrə xüsusən, iqtisadi inteqrasiya məkanına qoşulmasından məqsəd ölkənin müstəqilliyini qorumaq, onun bütövlüyünü təmin etmək, əmin



– amanlığa nail olmaq, istehsalın şəbəkəsini artırmaqla insanların maddi rifahını yüksək səviyəyə çatdırmaqdır.

Bu gün Respublikamızın şəhər və rayonlarında – Bakıda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə, Şəmkirdə və digər yerlərdə aparılan quruculuq və abadlıq işləri tarixiliklə müasirliyi qovuşdurur. Tarixi abidələrin bərpası, dünya standartlarına uyğun çəkilən yollar, yeni parklar, yaşıllıqlar müasir məktəb binaları, səhiyyə ocaqları, sağlamlıq və istirahət mərkəzləri, gənclərdə vətənpərvərlik tərbiyəsinin formalaşmasına xidmət edən olimpiya idman kompleksləri, sənaye istehsalı müəssisələri azərbaycançılığın canlı timsalı və bariz nümunəsidir.

Aydındır ki, müasir dövrdə beynəlxalq inteqrasiyaya qouşlamadan sosial – iqtisadi inkişafa nail olmaq mümkün deyildir. İnteqrasiya məkanı isə təkcə iqtisadiyyatla bağlı deyildir. İqtisadiyyat başqa sahələrin inteqrasiya məkanına qoşulmasının maddi stimuludur. Yəni iqtisadi inteqrasiya öz arxasınca siyasi, diplomatik, mədəni və s. sahələrin əlaqə məkanını genişləndirir.

İqtisadiyyatın sürətli artımı ölkənin beynəlxalq aləmdə nüfuzunu qaldırır, onun müdafiə qüdrətini gücləndirir. Ona görə də müstəqilliyin daimi, əbədi və dönməz olması üçün, ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün iqtisadi inkişaf əsas strateji istiqamətdir. Ölkəmizin iqtisadi nailiyyətlərinin

güebəgün artması işğal altındakı torpaqlarımızın azad olunmasının başlanğıcı deməkdir, mənfur erməni təcasüzünün sonunun yetişməsi, mifik Ermənistan dövləti yaratmaq iddeyasının iflasa uğraması deməkdir. *Ölkəmiz iqtisadi cəhətdən güclə̄ndikcə onun Cənubi Qafqazda regional bir dövlətə çevrilmək imkanları da reallaşır.*

4) milli ideologiya

Müstəqil dövlətçilik mərhələsində milli birliyə, mütəşəkkilliyə, ictimai həmrəyliyə nail olmaqla, ictimai – siyasi sabitlik yaratmaqla, iqtisadiyyatda irəliləyiş əldə etməklə milli şüurun formalaşdırılması imkanları daha artıq reallığa çevrilmiş olur. Milli şüur milli ideologiyanın təməlidir. Milli ideologiya dövlətçiliyə xidmət göstərir, onu sarsılmaz edir. Milli ideologiya icitmai şüurda milli düşüncəni, milli mənafeləri, milli təsübkeşliyi, milli mənliyi, milli adət – ənənələri, milli psixologiyanı, milli mənəviyyatı və əxlaqı, milli mədəniyyəti və milli vətənpərvərlik duyğusunu cəmləşdirir. Milli ideologiya insan və cəmiyyət arasında üzvi bağlılıq yaradan və milli mənafelərə xidmət edən milli şüur formasıdır.

Heydər Əliyev milli ideologiyanın dövlətçilik və cəmiyyət həyatı ilə bağlı əhəmiyyətini belə ümumiləşdirir: «Azərbaycanın müstəqil bir dövlət kimi milli ideologiyası mən bu gün cəsarətlə deyə bilərəm ki, Yeni Azərbaycan Partiyasının məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm



daxili siyasətdə, həm ictimai – siyasi sahədə, həm soisal – iqtisadi sahədə görduyümüz işlər həmin bu milli ideologiyanın üzərində qurulur».[1]

Heydər Əliyev milli ideologiyanın dörd əsas dayaq üzərində bərqərar olduğunu göstərir. Bunlardan birincisi dövlətçilik, ikincisi milli – mənəvi dəyərlər, üçüncüsü ümumbəşəri dəyərlər, dördüncüsü isə, «milli ideologiyanın özəyini, əsasını təşkil edən azərbaycançılıqdır.» Heydər Əliyev, eyni zamanda, dövlətçiliyi, milli – mənəvi dəyərləri və ümümbəşəri dəyərləri azərbaycançılıq anlayışının tərkib hissələri kimi qiymətləndirir.[2]

Ramiz Mehdiyev milli ideologiyanın insan və cəmiyyət arasındakı əlaqələrini şərh edərkən yazır: «Azərbaycançılıq» ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi – əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası dürür və bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir.

Bu gün biz Azərbaycanda milli ideologiyanın formalaşmasının şahidiyik. Millətin potensialını və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu göstərir ki, neokonservatiz-

---

[1] Bax: «Xalq qəzeti», 24 noyabr 1998-ci il.
[2] Bax: «Xalq qəzeti», 24 noyabr 1998-ci il.

min milli forması kimi «azərbaycançılıq» milli ideologiyanın əsasıdır və Azərbaycan dövlətinin bütün tarixi boyu da əsası olaraq qalacaqdır».[1]

Milli ideologiya, beləliklə, özündə aşağıdakı ən mühüm cəhətləri birləşdirir:

1) tarixilik
2) varisilik
3) tarixiliklə müasirliyin vəhdəti
4) milli – mənəvi dəyərlərin bəşəri ideyalarla qovuşdurulması
5) tarixən əldə edilən mənəvi sərvətlərimizin qorunub gələcək nəsillərə çatdırılması
6) milli – mənəvi sərvətlərimizin xalqın mənafeyinə xidmət göstərməsi
7) milli – mənəvi sərvətlərimizin bazasında vətənpərvərlik tərbiyəsinin formalaşdırılması
8) dövlətçiliyin ideoloji bazasının möhkəmləndirilməsi

İdeologiya hər bir siyasi partiyanın fəaliyyət istiqamətini müəyyən edən konsepsiya proqramıdır. Hər bir siyasi partiyanın əsaslandığı ideologiya milli səciyyəli fəaliyyət istiqaməti kimi qəbul edilə bilməz. İdeologiya o zaman milli konsepsiya proqramına çevrilə bilər ki, onun təməli milli mənafelər üzərində qurulsun. Məsələn,

[1] Bax: Ramiz Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003, s.34.



Azərbaycanda 1990-cı illərin başlanğıcında yaranmış AXC-Müsavat partiyalarının əsaslandığı ideologiyanın təməli xalqın mənafei üzərində qurulmamışdı. Odur ki, həmin partiyalar, hətta, iqtidarda təmsil olunduqları vaxtda da xalqın patiyasına çevrilə bilmədilər. Çünki o partiyaların işi xalqın mənafeyinə xidmət etməklə bir araya sığmırdı. Ona görə də onlar öz sosial dayaqlarını itirdilər. İflasa uğradılar. Hazırda, da həmin partiyalar siyasi fəaliyyətdən uzaqlaşmış vəziyyətdədirlər.

Yeni Azərbaycan Partiyası isə xalqın mənafeini qoruduğu üçün öz sosial dayaqlarını günbəgün möhkəmləndirdi, xalq tərəfindən qəbul olundu və iqtidar apartiyasına çevrildi. Yeni Azərbaycan Partiyasının ortaya qoyduğu ideologiya milli-mənəvi zəmin üzərində qurulduğu üçün bir partiyanın proqrammı çərçivəsindən çıxaraq milli-ideologiyaya və dövlətçilik ideologiyasına çevrildi.

İdeologiya xalqın və dövlətçiliyin mənafeinə xidmət etdiykdə yaşayır və öz dövlətçiliyinin uzunömrlü olmasını təmin edir. Bu mənada, ideologiya dövlətçiliyin duyan qəlbi, düşünən beyni, mənəvi qidası kimi fəaliyyət göstərir. Partiyanın, milli ideologiyanın və dövltəçiliyin vəhdəti xalqa xidmətin nümunəsidir. Azərbaycan dövlətçiliyi məhz bu vəhdət bazasında inkişaf edir.

Binası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qurulmuş Azərbaycan milli ideologiyası

özünün dünyəviliyi ilə, humanistliyi ilə, yaradıcı və qurucu xarakteri ilə daim yaşayacaq, zənginləşəcək, müstəqil dövlətçiliyin möhkəmlənməsinə və çiçəklənməsinə xidmət edəcəkdir.

5) elitar təbəqənin formalaşması

Elitar təbəqə bütün zamanlarda cəmiyyətin aparıcı qüvvəsi olmuşdur. Cmiyyətdə öz ağılı, idrakı, nüfuzu, intellekti, ictimai mövqeyi ilə aparıcı qüvvəyə çevrilmiş insanlar elitar təbəqəni təşkil edir. Ona görə də elitar təbəqəni sosial, siyasi, intellektual, eyni zamanda, maddi və mənəvi cəhətdən öz üstünlükləri ilə fərqlənən *cəmiyyət aristokratiyası* da hesab etmək olar. Aristokrat təbəqə cəmiyyətdə ictimai şüurun formalaşmasınıa təsir edən əsas və aparıcı qüvvədir. Bütün zamanlarda cəmiyyət öz aristokrat qüvvəsinin ətrafında toplaşmışdır. Aristokrat təbəqə cəmiyyətin içərisindən yetişən ziyalılardır, elm, mədəniyyət adamlarıdır, ictimai – siyasi hadisələrin aparıcısı olan şəxsiyyətlərdir, maddi istehsalı formalaşdıran yaradıcı insanlardır.

Azərbaycanda cəmiyyəti öz arxasınca aparmağa qadir olan aristokratik təbəqə tarixən mövcud olmuşdur. Ramiz Mehdiyev yazır ki, «Elita cəmiyyətin idarəetmə və siyasi, demokratik proseslərə təsir göstərmək bacarığı yüksək olan təbəqəsidir. «Elita» anlayışına tarixi – məntiqi baxımından yanaşılmalıdır. Elita xalqın milli sərvətidir. Hər bir cəmiyyətdə elita müxtəlif olur. O fərqlidir və elmi, siyasi, iqtisadi,



ədəbi – bədii, hakim, inzibati, müxalif (yəni əks - elita) və s. elitaya bölünür».[1]

Elitar təbəqədən məhrum olan cəmiyyət mənəvi iflasa uğramağa məhkumdur.

Azərbaycanda tarixlər boyu elitar təbəqə formalaşmış və cəmiyyətin maddi, mənəvi, soisoloji, mədəni inkişafında aparıcı qüvvə ölmüşdür. Məsələn, «Kitabi – Dədə Qorqud» dastanlarında Dədə Qorqud, Bayındır xan, Qazan xan, Dirsə xan, Baybura xan, Baybecan xan kimi şəxsiyyətlər cəmiyyətin elitar təbəqəsinin obrazıdır. Xalq onların ətrafında toplaşır və görəcəkləri iş barədə məsləhət alırlar. Hər hansı bir qəbilə həyatında fəsad baş verirsə onlar birlikdə həmin fəsadları aradan qaldırırlar.

Azərbaycan xalqının tarixində bir çox hökmdarlar, sərkərdələr, böyük fikir dahiləri yetişmişdir ki, cəmiyyətin inkişafında onların özünəməxsus fəaliyyəti olmuşdur.

Əlbəttə ki, ictimai fikrin canlanmasında, ictimai şüurun oyanmasında elitar təbəqə aparıcı qüvvə olmuşdur. Bunun nəticəsidir ki, 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yarandı. Elitar təbəqənin fəaliyyəti xalqın mənafeyinə yönəldikdə cəmiyyət üçün əhəmiyyətli olur. Məhz 1991-ci ildə qazanılmış müstəqilliyin qorunmasında Heydər

[1] Bax: Ramiz Mehdiyev, XXI əsrdə milli dövlətçilik. Bakı, 2003, s.38.

Əliyev ideyalarını həyata keçirən elitar təbəqənin fəaliyyəti aparıcı olmuşdur. *Elitar təbəqə xalqın mənafeyi üçün çalışanda xalq qazanır. Elitar təbəqə öz mənafeyini güdürsə cəmiyyət itirir və mənəvi iflasa uğrayır.*

1991-ci ildən ta ictimai – siyasi sabitlik yaranmasına qədər olan müddətə kimi Azərbaycanda ayrı – ayrı qruplaşmaların törətdiyi fəsadlar məhz cəmiyyətə zidd olan «elitanın» hesabına baş verirdi. Lakin Heydər Əliyev cəmiyyəti səfərbər etdi. Dövrün ictimai hadisələrini xalqın mənafeyinə yönəldə bilən siyasi elitar təbəqə formalaşmağa başladı.

XX əsrin əvvəllərində formalaşmış elitar təbəqənin də siyasi mövqeyi bolşevik hakimiyyəti ilə tutuşmurdu. Ona görə də həmin dövrdə onlar fiziki təzyiqlərə və repressiyalara məruz qaldılar. Azərbaycanda formalaşan ictimai şüurun «sosialist şüuru» ilə əvəz olunması dövrü başladı. Lakin xalqın milli şüuru potensial qüvvəyə çevrildi. Heydər Əliyevin Azərbaycandakı rəhbərliyi dövründə yaradılan şərait milli şüurun yenidən canlanmasına səbəb oldu.

Bu gün Azərbaycanda elitar təbəqənin hərtərəfli formalaşması üçün münbit şərait vardır. Azərbaycanda siyasi elitanın formalaşması isə xüsusi bir əhəmiyyət kəsb edir. Azərbaycanda elitar təbəqənin formalaşması prosesi ölkə prezidenti İlham



Əliyevin məqsədyönlü siyasi fəaliyyətinin nəticəsində baş verir. Müasir azərbaycanlı elitanın avanqardı olan İlham Əliyev yeni əsrdə Heydər Əliyev ənənələrini ləyaqətlə davam və inkşiaf etdirir. İlham Əliyevin bütün fəaliyyəti onun vətənpərvərlik mövqeyinin və azərbaycançılıq amalının parlaq təcəssümüdür.

Ümummilli liderimiz Heydər Əliyev ölkə prezidenti İlham Əliyevin gələcəkdəki fəaliyyətini uzaqgörənliklə duyaraq xalqı əmin edirdi ki, «Həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir».[1]

O ümidlər həqiqətən bu gün özünü tamamilə doğruldur. Xalq yeni əsrin qurucu lideri kimi İlham Əliyevi sevir, ona arxalanır və inanır. Xalqla rəhbər arasında formalaşmış belə bir qırılmaz əlaqə ölkədə milli azərbaycançılıq şüurunun formalaşması və zənginləşməsi üçün ən etibarlı və ən münbit bir zəmindir.

[1] Bax: Novruz Məmmədov. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir. «Respublika» qəzeti, 31 oktyabr, 2004-cü il.

## SON SÖZ

İdeologiya milli dövlətçilik zəminində ictimai, siyasi və mənəvi dünyagörüşün ümumiləşdirici bir vasitəsi kimi milliliyin qorunub saxlanmasına xidmət edir. Milli dövlətçilikdə milliliyə dair etiketlərə riayət edilməsi millət kimi formalaşmış xalqın mövcudluğuna, yaşamasına və ölkənin ərazi bütövlüyünün qorunmasına etibarlı təminatdır.

Müasir mərhələdə qloballaşma milliliyə məxsus ən aparıcı keyfiyyətlərə guclu təsir edərək onu sıradan çıxarmağa meyllidir. Odur ki, qloballaşmanın fəsadlı təsirindən qorunmaq üçün milli ideologiyanın təbliği və tətbiqi xüsusi əhəmiyyət daşıyır. Buna görə də hər bir azərbaycanlı vətən, xalq və millət qarşısında özünün mənəvi borcunu şərəflə yerinə yetirməlidir. Bunları, başlıca olaraq aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

1) milli – mənəvi dəyərlərin, əxlaqi – etik normaların, mədəni ənənlərin qorunub saxlanması

2) dövlətçiliyə və onun atributlarına (dövlət dilinə, bayrağına, himninə, gerbinə) hörmətlə yanaşılması

3) dünyanın ayrı – ayrı yaşayış məskənlərində məskunlaşmış azərbaycanlıların bir – birinə və müstəqil Azərbaycan dövlətçiliyinə diqqət, qayğı, ehtiram və rəğbət göstərməsi



4) milli – mənəvi dəyərlərin bəşəri dəyərlərlə zənginləşdirilməsi

5) vətənpərvərlik amalının formalaşdırılması

6) düşmənə qarşı mübarizədə barışmazlıq, birlik, mütəşəkkil və yenilməzlik nümayiş etdirməsi

7) ictimai həmrəyliyin daim qorunub saxlanması

8) gənc nəslin yüksək təhsilə, təlim və tərbiyəyə yiyələnməsi

9) çətin anlarda vəziyyətdən çıxış yollarının axtarılıb - araşdırılıb tapılması

10) mənəvi saflıq təməlində azərbaycanlı şəxsiyyətinin formalaşdırılması

Etiraf etmək lazımdır ki, qloballaşma mərhələsində iqtisadi cəhətdən güclü olan dövlətlər başqa dövlətlərə, xüsusən, inkişaf etməkdə olan dövlətlərə təsir göstərmək imkanlarını qat – qat artırırlar. Qloballaşmanın əsas təsir gücü milliliyə qarşıdır. *Bu prosesdə güclü dövlətlər, xüsusilə, fövqəl dövlətlər üçün ərazi bütövlüyünün qorunması prinsipi dəyişərək hegomonçuluğa* çevrilir. Milli – mənəvi dəyərlər ümumi əxlaqi prinsiplərlə əvəz olunur. Belə dövlətlər *sərhədsiz mədəniyyət* forması əldə etməyə nail olurlar. Fövqəl dövlətin dili də bütün sərhədləri yarıb keçir.

Dövlətçilikdə milli ideologiyanın formalaşdırılması və onun qorunması xalqın bütövlüyünün və mütəşəkkilliyinin bərqərar olunması kimi vacib bir fəaliyyət sahəsini təşkil edir.

# M Ü N D Ə R İ C A T

**Ciriş.**
Azərbaycançılıq ideyaları haqqında .............. 3-21

**Birinci bölmə.**
Azərbaycan cəmiyyətində
ictimai təfəkkürün formalaşması .................. 22-66

**İkinci bölmə.**
Milli – mənəvi dəyərlər ............................... 67-86

**Üçüncü bölmə.**
Müstəqil dövlətçilik ənənləri ...................... 87-127

**Son söz ....................................................... 128-129**



**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Tural Əhmədov**
*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**
*Montajçı:* **Rasim Hacıyev**
*Operator çapçı:* **Elşad Hacıyev**

Yığılmağa verilmiş **25.03.2010.**
Çapa imzalanmış **02.04.2010.**
Şərti çap vərəqi **8,2.** Sifariş № **68.**
Kağız formatı **60x84 1/16.** Tiraj **500.**

Kitab «**Elm və Təhsil**» nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.